Xalqın qəzeti!

# Xalq qəzeti

№ 123 (30817) 18 iyun 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan diplomatiyasının coğrafiyası genişlənir

*Azərbaycan Prezidenti İlham Əliyev Fələstin səfirinin etimadnaməsini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Fələstin Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Əhməd Metaninin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.**

Dövlətimizin başçısı xalqlarımızı dostluq və qardaşlıq əlaqələrinin birləşdirdiyini deyərək, səfirin ölkəmizdə fəaliyyəti dövründə bunun şahidi olacağına əminliyini bildirdi, xalqlarımız arasında münasibətlərin dövlətlərarası əlaqələr üçün də önəmli amil olduğunu vurğuladı. Əməkdaşlığın genişləndirilməsi üçün bundan sonra da birgə səylərin göstəriləcəyini deyən Azərbaycan Prezidenti bu xüsusda yüksəksəviyyəli müxtəlif qarşılıqlı səfərlərin önəminə toxundu. Dövlətimizin başçısı ikitərəfli siyasi əlaqələrimizi qeyd edərək, ölkələrimiz arasında qarşılıqlı dəstəyi və həmrəyliyi vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın Fələstin xalqının haqlı tələbini, İsrail-Fələstin münaqişəsinin "iki dövlət prinsipi" və BMT-nin müvafiq qərarları əsasında həllini, eyni zamanda, BMT Baş Assambleyasında Fələstin məsələsi ilə əlaqədar keçirilən səsvermələrdə Fələstinin haqlı mövqeyini həmişə dəstəklədiyini bir daha bildirdi. Ölkəmizin Fələstinə göstərdiyi humanitar yardımı xatırladan Azərbaycan Prezidenti bunun gələcəkdə də davam edəcəyini dedi.

*(ardı 2-ci səhifədə)*

# Demokratiya döyüşməli, yoxsa düşünməlidir?



**Son dövrlər Avropa siyasi leksikonunda diqqətçəkən və eyni zamanda, narahatlıq doğuran bir anlayış tez-tez səslənməyə başlayıb: "döyüşkən demokratiya". Termin ilk baxışda özündə ziddiyyət daşıyır. Axı burada demokratiya – sülhün, dözümlülüyün, fikir müxtəlifliyinin, hüquq və azadlıqların təcəssümü kimi təqdim olunmur. Necə ola bilər ki, sülhsevər və liberal mahiyyət daşıyan bir sistem "döyüşkən" – yəni aqressiv, repressiv və müdafiə yönlü bir forma alır?**

Məsələ ondadır ki, Avropanın aparıcı siyasi dairələrində – xüsusilə də, liberal elita içərisində – bu anlayış artıq təkcə nəzəri diskursdan ibarət deyil. O, praktik siyasi yanaşma, ideoloji silah və bəzən də hakimiyyətin qorunması üçün alət kimi ön plana çıxır. Konsepsiya iddia edir ki, demokratiya yalnız o halda yaşaya və davam edə bilər ki, öz düşmənlərinə qarşı sərt davransın. Yəni, demokratik sistem – paradoksal şəkildə – bəzi fikir axınlarına, təşkilatlara və siyasi partiyalara azadlıq tanımamaqla özünü qoruyacaq. Bu yanaşmanın əsas fəlsəfəsi belə formalaşdırılır: "Azadlıq düşmənlərinə azadlıq vermək olmaz". Məhz bu arqument üzərində "döyüşkən demokratiya" ideyasını müdafiə edənlər hüquqi və siyasi məhdudiyyətləri əsaslandırırlar. Sosial şəbəkələrin senzurasından tutmuş, sağçı-populist partiyaların kənarlaşdırılmasına, bəzi medianın susdurulmasına qədər atılan addımlar bu anlayışın praktik nümunələri kimi ortaya çıxır.

*(ardı 5-ci səhifədə)*

## Paşinyan–kilsə davasına diaspor da qoşulur



**Erməni Apostol Kilsəsi ilə hakimiyyət arasında yaşanan gərginlik səngimiş kimi görünür. Ölkənin baş naziri Nikol Paşinyanın beş gündür "Facebook" sosial şəbəkəsindəki hesabında bu istiqamətdə heç bir paylaşım etməməsi belə deməyə əsas verir. Ancaq, bu, iqtidarın kilsə ilə bağlı başlatdığı kampaniyadan, yəni katolikos II Qareginin taxtdan əl çəkməyə məcbur edilməsi və yeni katolikos seçkilərinə nail olunması prosesindən imtina etdiyi anlamına gəlmir.**

Müvəqqəti deeskalasiya, yəni qeyri-sabit vəziyyətin nizamlanması üçün məqsədyönlü addımların atılması Hayastan mediasının da diqqətindən yayınmır. "Hraparak" qəzetinin bununla bağlı yaydığı xəbər maraq doğurur.

ardı səhifə ⇨ 7

## Strateji geosiyasi rəqabət və hərbi qarşıdurmalar



səhifə ⇨ 6

## İlbəil cavanlaşan xariqələr şəhəri

səhifə ⇨ 9

## Azərbaycanın praqmatizmə və ədalətə söykənən sabitlik modeli

*Bunu təkcə bölgə ölkələri deyil, dünya nəhəngləri də qəbul edirlər*

**Dünyanın dəyişən siyasi landşaftında Azərbaycanın geosiyasi və iqtisadi strategiyasının konturları daha qabarıq şəkildə özünü göstərməkdədir. Bu gün Bakı ilə, xüsusilə, enerji daşıyıcıları sahəsində əməkdaşlıq etmək istəyən, Azərbaycanı özlərinə etibarlı tərəfdaş kimi seçən ölkələrin sayı artmaqdadır.**



"Bu gün əksər qlobal güc mərkəzləri Azərbaycanı Orta Dəhliz üzrə nəqliyyatın inkişafı çərçivəsində Cənubi Qafqazın əsas nəqliyyat və logistika qovşağı hesab edirlər. Mərkəzi Asiya ölkələri, Gürcüstan, Türkiyə, eləcə də Çin və Avropa ölkələri müxtəlif marşrut təşəbbüsləri ilə çıxış edir, ölkəmizin ərazisindən tranzit daşımaları qururlar". Bu sözləri Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Praqada keçirilən GLOBSEC-2025 beynəlxalq forumu çərçivəsində təşkil olunan "Orta dəhliz: yeni geosiyasi və geoiqtisadi arteriya" panel sessiyasındakı çıxışında deyib.

ardı səhifə ⇨ 5

## Bakı–İrəvan münasibətləri və ATƏT(sizlik)




səhifə ⇨ 7

## Dövlət ədalətlə, cəmiyyət ləyaqətlə yüksəlir



səhifə ⇨ 6

## Azərbaycana Çin yatırımı 900 milyon dollara çatıb



səhifə ⇨ 8

# Azərbaycan Prezidenti İlham Əliyev Fələstin səfirinin etimadnaməsini qəbul edib

(əvvəli 1-ci səhifədə)



Prezident İlham Əliyev Fələstinin ölkəmizdəki səfirliyinin uzun müddətdir fəaliyyət göstərməsini məmnunluqla qeyd edərək, bunun üçün Azərbaycan dövlətinin verdiyi dəstəyə toxundu.

Dövlətimizin başçısı Azərbaycanın daim İslam həmrəyliyinin gücləndirilməsinə çalışdığını dedi və bunun İslam Əməkdaşlıq Təşkilatı, onun rəhbər orqanları tərəfindən həmişə yüksək qiymətləndirildiyini vurğuladı. Bu təşkilatın Zirvə görüşünün gələn il Azərbaycanda təşkil ediləcəyini bildirən dövlətimizin başçısı belə mötəbər tədbirin keçirilməsi üçün ölkəmizin seçilməsini bütün müsəlman aləmində bizə olan xoş münasibət kimi qiymətləndirdi və Fələstinin də bu toplantıda yüksək səviyyədə təmsil olunacağına ümidvarlığını ifadə etdi.

Əhməd Metani Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mahmud Abbasa çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Fələstin Prezidentinin ölkəmizə rəsmi səfərini, həmçinin onunla beynəlxalq tədbirlər zamanı görüşlərini məmnunluqla xatırladı.

Səfir dövlətimizin başçısının 15 İyun – Milli Qurtuluş Günündə onu qəbul etməsindən böyük şərəf hissi keçirdiyini bildirdi. O, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi ilə ölkəmizin çətin vəziyyətdən çıxdığını vurğuladı. “Biz Azərbaycan üçün hər zaman tərəqqi, həmçinin daha yüksək nailiyyətlər və əmin-amanlıq arzu edirik”, - deyən səfir Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti və rəhbərliyi nəticəsində ölkəmizin regionda və dünya səviyyəsində çox mühüm bir dövlətə çevrildiyini qeyd etdi.

Söhbət zamanı siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlıq və dəstəkdən məmnunluq ifadə olundu.

# “Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2279 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2279 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 486 (Cild I); 2024, № 5 (I kitab), maddə 516, № 8, maddə 936) ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”ın 154-cü bəndindən “və “İdarələrarası elektron sənəd dövriyyəsi haqqında Əsasnamə”yə” sözləri çıxarılsın.

**2.** “İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 844 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1794 (Cild I); 2024, № 5 (I kitab), maddələr 516, 529) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə”nin 3.0.24-cü yarımbəndində “idarələrarası elektron sənəd dövriyyəsi sisteminin” sözləri “Elektron Hökumət İnformasiya Sisteminin Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminin” sözləri ilə əvəz edilsin.

**4.** “Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2014 (Cild I) 3.2-ci bəndi və 7-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 iyun 2025-ci il**

# Koreya səfiri etimadnaməsini Azərbaycan Prezidentinə təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kımqu Kanqın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.**

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında münasibətlərin uğurlu inkişafına toxunaraq, siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu vurğuladı, mütəmadi əsasda siyasi məsləhətləşmələrin və dialoqun aparıldığını qeyd etdi. Prezident İlham Əliyev siyasi və iqtisadi-ticari əlaqələrin daha da inkişafı üçün geniş imkanların olduğunu dedi, bu xüsusda ölkəmizin sənayeləşmə, həmçinin Azərbaycanın regionlarının inkişafı proqramları çərçivəsində əməkdaşlıq məsələlərinə toxundu.

Kımqu Kanq Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə edərək, 15 İyun - Milli Qurtuluş Günündə Prezident İlham Əliyev tərəfindən qəbul edilməsinin onun üçün böyük şərəf olduğunu dedi. Səfir Koreya Respublikasının ozamankı Prezidenti Ro Mu Hyunun ölkəmizə rəsmi səfərini, həmçinin Prezident İlham Əliyevin Koreya Respublikasına dövlət səfərini xatırladı və bu səfərlərin əlaqələrimizin inkişafına ciddi təkan verdiyini vurğuladı.

Görüşdə ölkələrimiz arasında yüksək texnologiyalar, rəqəmsal transformasiya, elm, təhsil, o cümlədən peşə təhsili, tibb və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi.

Səfir Ələt Azad İqtisadi Zonasının Koreya Respublikasının biznes dairələri üçün maraqlı olduğunu dedi.

Söhbət zamanı Azərbaycanın siyasəti nəticəsində Cənubi Qafqaz regionunda sülh və sabitliyin təmin edildiyi diqqətə çatdırıldı, bu xüsusda Koreya yarımadasında da davamlı sülhün təmin olunacağına ümidvarlıq ifadə edildi.

# “Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar” mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi “Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar” mövzusunda Şuşada keçirilən beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

Müasir dövrdə dünyada olduqca mürəkkəb geosiyasi hadisələr baş verir. Milli, regional və qlobal təhlükəsizliyə qarşı çoxsaylı təhdidlərin yaranması və ölkələrin müxtəlif siyasi, hərbi, iqtisadi, mədəni, humanitar, ekoloji çağırışlarla üzləşməsi fonunda beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzlərinin meydana çıxması və yeni dünya nizamına keçid prosesi müşahidə olunmaqdadır. Belə bir şəraitdə dövlət maraqlarının, ölkələrin müstəqilliyinin və suverenliyinin qorunması, sülh, sabitlik, əməkdaşlıq və çoxtərəfli inkişaf naminə səylərin birləşdirilməsi müstəsna əhəmiyyətə malikdir.

BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı birləşmələrinin tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinə baxmayaraq, 30 ilə yaxın ərazisinin 20 faizi işğal altında olmuş Azərbaycan ikili standartlarla, qərəzli və ədalətsiz münasibətlə üzləşmişdi. 44 günlük Vətən müharibəsi və 1 günlük antiterror əməliyyatı nəticəsində ölkəmiz ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə tam bərpa etdi. Beləliklə, müasir Azərbaycan dövlətini dərin sosial, iqtisadi və siyasi böhrandan qurtaran dahi şəxsiyyət, milli dövlətçilik ideologiyasının yaradıcısı ümummilli lider Heydər Əliyevin arzuladığı qalib və qüdrətli Azərbaycan dövləti formalaşdı.

Ədalətli dünya nizamının tərəfdarı olduğunu hər zaman əməli fəaliyyəti ilə nümayiş etdirən Azərbaycan nəinki yerləşdiyi Cənubi Qafqaz regionunun, həm də bütövlükdə Avrasiyanın dialoq və əməkdaşlıq məkanına çevrilməsinin tərəfdarı kimi çıxış edir. Dost və tərəfdaş ölkələrlə birlikdə həyata keçirdiyimiz layihələr regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verir, həm Şərq ilə Qərb, həm də Şimal ilə Cənub arasında konstruktiv və perspektivli işbirliyinə əlverişli zəmin yaradır. Dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmiş Azərbaycan Bandunq Prinsiplərinə daim sadiq qalaraq ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə müdafiə etmişdir.

Bu gün ədalətli dünya naminə yeni geosiyasi nizamın formalaşması dövlətlərin siyasi məsuliyyət prinsipinə əsaslanan ardıcıl və məqsədyönlü fəaliyyətindən asılıdır. Ölkələr məhz qarşılıqlı hörmət və etimada, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, müasir çağırışlara cavab verən səmərəli işbirliyi həyata keçirməklə bu prosesə layiqli töhfə verə bilərlər.

2025-ci il “Konstitusiya və Suverenlik İli” kimi respublikamızda təntənəli şəkildə qeyd olunur. Azərbaycan milli maraqları rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini cəsarətlə davam etdirir, öz konstitusiyasına, suveren hüquqlarına əsaslanaraq sülh, əməkdaşlıq və davamlı inkişaf naminə yeni dünya nizamının fəal iştirakçısı olmağa çalışır.

Azərbaycanın Milli Qurtuluş Günündə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə baş tutan bu mötəbər tədbirin dünyada cərəyan edən aktual məsələlərin müzakirəsi baxımından məhsuldar olacağına və ölkələrimiz arasında çoxşaxəli münasibətlərin inkişafına təkan verəcəyinə əminliyimi ifadə edərək, konfransın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 iyun 2025-ci il**

# Prezident İlham Əliyevin Şimali Makedoniya Assambleyasının sədri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Şimali Makedoniya Respublikası Assambleyasının sədri Afrim Qaşini qəbul edib.**

Söhbət zamanı Azərbaycanla Şimali Makedoniya arasında münasibətlərin inkişafından məmnunluq bildirildi, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulandı.

Əlaqələrimizin möhkəmlənməsində müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunuldu, bu xüsusda Şimali Makedoniya Prezidentinin ölkəmizə rəsmi səfəri və keçirilən səmərəli müzakirələr qeyd olundu.

Qonaq vurğuladı ki, Şimali Makedoniya Azərbaycanı dost ölkə kimi qəbul edir.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə əlaqələrimizin perspektivlərinə dair müzakirələr aparıldı, Azərbaycan və Şimali Makedoniyanın qanunverici orqanları arasında əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu.

*AZƏRTAC*

# Şimali Makedoniya heyəti XİN-də

**İyunun 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Şimali Makedoniya Assambleyasının sədri Afrim Qaşinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə Azərbaycan ilə Şimali Makedoniya arasında mövcud ikitərəfli və çoxtərəfli gündəlikdə duran məsələlər, parlamentlərarası əlaqələr, habelə regional məsələlər müzakirə edilib.

Söhbət zamanı ölkələrimiz arasında son zamanlar yüksəksəviyyəli səfər və təmasların artan dinamizmindən məmnunluq ifadə olunub, bu çərçivədə liderlərimiz arasında görüşlər, parlamentlərimiz arasında artan dialoq, xarici işlər nazirləri arasında təmasların, eləcə də Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti qeyd olunub.

Nazir Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan-Ermənistan normallaşma prosesinin gedişatı və bu prosesə mane olan amillər barədə ətraflı məlumatlandırıb.

*XQ*

# “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 103 nömrəli **Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 86** (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında hidrometeorologiya fəaliyyətinə dövlət nəzarəti haqqında Əsasnamə”nin 4-cü hissəsinin on üçüncü abzasında “hərbi” sözü “dövlət” söz**ü** ilə əvəz edilsin.

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 25 iyun tarixli 514 nömrəli **Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 412** (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə”nin 14-cü hissəsinin ikinci abzasında “təyyarələrə, gəmilərin” sözləri “hava gəmilərinə, dəniz gəmilərinin” sözləri ilə əvəz edilsin.

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 489 (Cild I); 2024, № 5 (I kitab), maddə 511) ilə təsdiq edilmiş “Odlu silahın tətbiqi ilə bağlı ov etmə, eləcə də idmanla məşğul olma Qaydaları”nın 2.3.6-cı yarımbəndində “vertolyot” sözü “helikopter” sözü ilə əvəz edilsin.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 yanvar tarixli 15 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 21 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında” Əsasnamə”nin 13-cü hissəsində “təyyarələrə və vertolyotlara, gəmilərin” sözləri “hava gəmilərinə, dəniz gəmilərinin” sözləri ilə əvəz edilsin.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 iyul tarixli 97 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 536 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Protokolunun Əsas Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

2-ci hissə üzrə:

2.4-cü və 2.5-ci bəndlərdə “Təyyarə” sözü “Hava gəmisinin” sözləri ilə əvəz edilsin;

2.34-cü bəndin üçüncü cümləsində “təyyarə” sözü “hava gəmisi” sözləri ilə əvəz edilsin;

2.37-ci bənddə “təyyarənin” sözü “hava gəmisinin” sözləri ilə əvəz edilsin;

3-cü hissə üzrə:

3.3-cü bənddə “təyyarənin” sözü “hava gəmisinin” sözləri ilə əvəz edilsin;

3.17-ci bənddə “təyyarə” sözü “hava gəmisinin” sözləri ilə əvəz edilsin.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 13 (Cild I) ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 58-ci bəndin ikinci abzasına “ekipaj komandirinin” sözlərindən sonra “(hava gəmisi kapitanının (komanda verən pilotun)” sözləri əlavə edilsin;

6.2. 59-cu bəndin birinci abzasına “ekipaj komandiri” sözlərindən sonra “(hava gəmisinin kapitanı (komanda verən pilot)” sözləri əlavə edilsin.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 798 (Cild I); 2024, № 8, maddə 950) ilə təsdiq edilmiş “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı”nın 17-ci hissəsində “Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar” sütununda “Məsafədən idarə edilən pilotsuz uçan aparatlar” sözləri “Mülki pilotsuz uçuş aparatları (uşaqların istifadəsi üçün nəzərdə tutulmuş oyuncaq pilotsuz uçuş aparatları istisna olmaqla)” sözləri ilə əvəz olunsun və həmin hissənin “Xüsusi icazə verən icra hakimiyyəti orqanı” sütununa birinci halda “Azərbaycan” sözündən əvvəl “Dövlət Mülki Aviasiya Agentliyi qismində” sözləri əlavə edilsin.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 326 (Cild I); 2024, № 2, maddə 155, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş “Daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan əmlak növlərinin və onların qeydiyyatını aparan inzibati orqanların Siyahısı”nın “Daşınar əmlakın rəsmi reyestrlərini aparan inzibati orqanların adları” sütununun 12-ci hissəsinə “Azərbaycan” söz*ündən əvvəl* “Dövlət Mülki Aviasiya Agentliyi qismində” sözləri *əlavə* edilsin.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 avqust tarixli 623 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 771 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının hərbi geyim forması və xüsusi rütbəsi olan əməkdaşlarının geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə”nin 13-cü hissəsində “təyyarələrə və vertolyotlara, gəmilərin” sözləri “hava gəmilərinə, dəniz gəmilərinin” sözləri ilə əvəz edilsin.

“Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə”nin və “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2087 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. preambulada “təhlükəsizliyi üzrə” sözləri “təhlükəsizliyinə dair” sözləri ilə əvəz edilsin;

10.2. həmin Fərmanla təsdiq edilmiş 1 nömrəli əlavə – “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə” üzrə:

10.2.1. 1.1-ci və 1.2-ci bəndlərdə “təhlükəsizliyi üzrə” sözləri “təhlükəsizliyinə dair” sözləri ilə əvəz edilsin;

10.2.2. 2.1.1-ci yarımbənddə “təhlükəsizliyinin təmin edilməsi üzrə” sözləri “təhlükəsizliyinə dair” sözləri ilə əvəz edilsin;

10.2.3. 3.1.3-cü yarımbənddə “aeroportun” sözü “hava limanının” sözləri ilə, “aeroportların” sözü “hava limanlarının” sözləri ilə əvəz edilsin.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287; 2025, № 3, maddələr 224, 227) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.0.18-ci yarımbəndə “barədə” sözündən sonra “tabeliyindəki qurum vasitəsilə” sözləri əlavə edilsin;

3.0.22-ci yarımbənddə “icazələr” sözü “tabeliyindəki qurum vasitəsilə icazə” sözləri ilə əvəz edilsin;

3.0.23-cü yarımbənddə “, telekommunikasiya, informasiya və meteoroloji xidmətlərini” sözləri “xidmətləri” sözü ilə əvəz edilsin;

3.0.24-cü yarımbəndə “əlaqədar” sözündən sonra “, Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 25.1-ci maddəsi nəzərə alınmaqla” sözləri əlavə edilsin;

3.0.26-cı yarımbənddə “aviasiya mütəxəssislərinin” sözləri “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 25.2-ci maddəsi nəzərə alınmaqla, aviasiya personalının” sözləri ilə əvəz edilsin.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292 (Cild I); 2025, № 3, maddələr 222, 224) ilə təsdiq edilmiş “Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı”nda aşağıdakı dəyişikliklər edilsin:

12.1. “Giriş” hissəsi üzrə:

12.1.1. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

“Dövlət Proqramında aviasiya təhlükəsizliyi dedikdə insanlardan və maddi resurslardan istifadə etməklə mülki aviasiya sahəsində hava limanlarının, hava gəmilərinin və mülki aviasiyanın digər obyektlərinin mühafizəsi, hava gəmisi heyətinin, aviasiya personalının və sərnişinlərin həyat və sağlamlığının qorunması, əl yüklərinin, baqajın, poçtun, digər yüklərin və hava gəmilərindəki bort ehtiyatlarının yoxlanılması, hava gəmilərini zəbt etmək və qaçırmaq cəhdlərinin qarşısının alınması, təhlükə mənbələrinin və risk faktorlarının müəyyən edilməsi yolu ilə insanlara və əmlaka zərər vurulması riskinin minimuma endirilməsi məqsədilə həyata keçirilən, habelə uçuşların təhlükəsizliyinin, müntəzəmliyinin və səmərəliliyinin təmin olunmasına xidmət edən aviasiyanın qanunsuz müdaxilə aktlarından qorunması üzrə tədbirlər kompleksi nəzərdə tutulur.”;

aşağıdakı məzmunda doqquzuncu və onuncu abzaslar əlavə edilsin:

“Dövlət Proqramının yerinə yetirilməsinin təmin edilməsinə cavabdeh orqan Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra – Nazirlik) tabeliyində Dövlət Mülki Aviasiya Agentliyidir (bundan sonra – Aviasiya Agentliyi).

Aviasiya Agentliyi onun səlahiyyətləri və yerinə yetirdiyi vəzifələri barədə ICAO-ya məlumat verir.”;

1-ci hissə üzrə:

1.1.3-cü yarımbənddə “ekipaj üzvlərinin” sözləri “hava gəmisi heyətinin” sözləri ilə əvəz edilsin;

1.2.1-ci yarımbənddə “ekipaj üzvlərinin” sözləri “hava gəmisi heyətinin” sözləri ilə, “aeroportların (hava limanlarının)” sözləri “hava limanlarının” sözləri ilə əvəz edilsin;

1.2.6-cı yarımbənddə “ekipaj üzvlərinin” sözləri “heyətinin” sözü ilə əvəz edilsin və həmin yarımbənddən “müəssisələri” sözü çıxarılsın;

3.2.2-ci yarımbənddə “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tabeliyində Dövlət Mülki Aviasiya Agentliyinə (bundan sonra – Aviasiya Agentliyi)” sözləri “Aviasiya Agentliyinə” sözləri ilə əvəz edilsin;

4-cü hissə üzrə:

4.1-ci bənddə “əlaqəsi” sözü “mübadiləsi” sözü ilə əvəz edilsin;

4.1.1-ci yarımbənddə “analitik məlumatların” sözləri “konfidensial informasiyanın” sözləri ilə əvəz edilsin;

4.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“4.1.2. aviasiya təhlükəsizliyi üzrə konfidensial informasiyanın təhlili, mübadiləsi, əlaqələndirilməsi və istifadəsi üzrə nəzarətə cavabdeh qurum Aviasiya Agentliyidir;”;

12.4.4. aşağıdakı məzmunda 4.1.3–4.1.7-ci yarımbəndlər əlavə edilsin:

“4.1.3. aviasiya təhlükəsizliyi sahəsində dövlət siyasəti barədə məlumatlılığın təmin edilməsi, Dövlət Proqramının və “Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları”nın tələblərinin yerinə yetirilməsi, mülki aviasiyanın təhlükəsizliyinə təhdidlərin müəyyənləşdirilməsi və risklərin qiymətləndirilməsi, təhlükəsizlik sistemindəki zəifliyin, boşluğun və təhdid nəticəsində yarana biləcək fəsadların aradan qaldırılması məqsədilə Dövlət Proqramı, “Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları”nın müvafiq hissələri, həmçinin aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə digər konfidensial informasiya aviasiya subyektlərinə, həmçinin hava limanlarında təmsil olunan dövlət qurumlarına çatdırılır;

4.1.4. aviasiya təhlükəsizliyi üzrə konfidensial informasiyanın mübadiləsi, təhlükəsizliyinin təmini və metodları dövlətlər arasında imzalanmış yazılı sazişlər əsasında müəyyənləşdirilir;

4.1.5. konfidensial informasiya mübadiləsi həyata keçirilməzdən əvvəl aviasiya təhlükəsizliyi üzrə informasiya konfidensial informasiya kimi qiymətləndirilir, identifikasiya edilir və onun təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görülməsi tələb edilir;

4.1.6. aviasiya təhlükəsizliyi üzrə konfidensial informasiyanı qəbul edən tərəf onun təhlükəsizliyinin qorunması və yayılmasının qarşısının alınması üçün tədbirlər həyata keçirir;

4.1.7. xarici dövlətlər tərəfindən təqdim olunan və ya xarici dövlətlərin maraqlarına toxunan aviasiya təhlükəsizliyi üzrə konfidensial informasiyanın mühafizəsi təmin edilir.”;

12.4.5. 4.2.5-ci yarımbəndin 9-cu abzasında “aeroportlarda” sözü “hava limanlarında” sözləri ilə əvəz edilsin;

12.4.6. 4.2.6 – 4.2.10-cu yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“4.2.6. Aviasiya Agentliyi Dövlət Proqramının, aviasiya təhlükəsizliyi sahəsində keyfiyyətə nəzarət və aviasiya təhlükəsizliyi sahəsində personalın hazırlığı üzrə milli proqramların işlənib hazırlanmasında xarici dövlətlərlə əməkdaşlıq edir, bu sahələr üzrə məlumat mübadiləsini təmin edir və xarici dövlətlərin müraciəti əsasında qeyd edilən proqramların müvafiq hissələrini həmin dövlətlərə təqdim edir;

4.2.7. Aviasiya Agentliyində Dövlət Proqramının 4.2.6-cı yarımbəndində qeyd edilən sahələr üzrə məlumat mübadiləsinin təmini məqsədilə məsləhətləşmələr aparılır, aviasiya təhlükəsizliyi üzrə məsul şəxslərin adları, ünvanları, telefon, teleks və faks nömrələri, avtomatik fiksasiyalı teleqraf rabitəsinin (AFTN) ünvanı göstərilməklə, tərəflər arasında əlaqə yaratma qaydası və məlumatların çatdırılması üsulları müəyyən edilir;

4.2.8. Aviasiya Agentliyi aviasiya təhlükəsizliyinin təmini sahəsində keçirilmiş yoxlamaların nəticələri barədə konfidensial məlumatların rəsmi müraciətlər əsasında digər dövlətlərə təqdim edilib-edilməməsi barədə qərarın qəbulu məqsədilə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra – DTX) ilə və Nazirliklə məsləhətləşmələr aparır və yalnız qeyd edilən qurumların razılığından sonra məlumat mübadiləsini təmin edir;

4.2.9. Dövlət Proqramının 4.2.8-ci yarımbəndində qeyd edilən konfidensial informasiyanın diplomatik kanallarla xarici dövlətlərə çatdırılması məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə müraciət edilir;

4.2.10. Aviasiya Agentliyi xarici dövlətlərin konkret reyslərinin və ya hava gəmisinin istismarçılarının təhlükəsizliyinin təmini məqsədilə konfidensial informasiya təşkil edən əlavə təhlükəsizlik tədbirləri görülməsi barədə müraciətlərini qəbul edir, DTX-nin və Nazirliyin rəyi və hava limanlarının faktiki imkanları nəzərə alınmaqla qərar qəbul edir və həmin müraciətlərin təmin olunması üçün “Azərbaycan Hava Yolları” QSC-yə və hava limanlarının rəhbərlərinə göstəriş verir;”;

12.4.7. aşağıdakı məzmunda 4.2.11-ci və 4.2.12-ci yarımbəndlər əlavə edilsin:

“4.2.11. xarici dövlətlərin hava limanlarına və ya konkret reyslərinə münasibətdə qanunsuz müdaxilə aktının başvermə təhdidi barədə konfidensial informasiya alındıqda, Aviasiya Agentliyi tərəfindən DTX ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsilə ən qısa zamanda həmin dövlətin səlahiyyətli orqanına və hava gəmisinin istismarçısına məlumat verilir. Həmin dövlətə məlumatın bilavasitə ötürülməsi mümkün olmadıqda, məlumat üçüncü dövlətə və ya ICAO-ya müraciət etməklə çatdırılır;

4.2.12. Aviasiya Agentliyi milli daşıyıcıların konkret reyslərinin təhlükəsizliyinin təmini məqsədilə əlavə təhlükəsizlik tədbirləri görülməsi barədə xarici dövlətlərə müraciət etməzdən əvvəl DTX və Nazirliklə müvafiq məsləhətləşmələr aparır və həmin dövlət tərəfindən müraciətdə qeyd olunan əlavə təhlükəsizlik tədbirlərinin alternativ variantlarının tətbiqi imkanlarını nəzərdən keçirir.”;

12.5. 5-ci hissə üzrə:

12.5.1. 5.2-ci bənddə “Aeroport” sözü “Hava limanı” sözləri ilə, “aeroportlarda” sözü “hava limanlarında” sözləri ilə əvəz edilsin;

12.5.2. 5.4-cü bənddə “Aeroport” sözü “Hava limanının” sözləri ilə əvəz edilsin;

12.6. 6-cı hissə üzrə:

12.6.1. 6.0.1-ci yarımbənddə “adekvat” sözü “uyğun” sözü ilə əvəz edilsin;

12.6.2. 6.0.8-ci yarımbənddə “aeroportların” sözü “hava limanlarının” sözləri ilə əvəz edilsin;

12.7. 7.0.9-cu yarımbənddə “ekipaj üzvlərinin” sözləri “hava gəmisi heyətinin” sözləri ilə, “aeroportların” sözü “hava limanlarının” sözləri ilə əvəz edilsin.

13. “Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı”nın və “Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1047 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 3, maddə 224) aşağıdakı dəyişikliklər edilsin:

13.1. həmin Fərmanla təsdiq edilmiş “Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası” üzrə:

13.1.1. 2-ci hissə üzrə:

13.1.1.1. 2.1.2-ci yarımbənddə “hava gəmilərinin və aviasiya məmulatının fiziki xassələrinə, konfiqurasiyalarına, material hissələrinə, texniki xüsusiyyətlərinə, habelə aviasiya personalına dair tətbiqini” sözləri “mülki aviasiya sahəsində” sözləri ilə əvəz edilsin;

13.1.1.2. 2.1.3-cü yarımbənddə “hava gəmilərinin və aviasiya məmulatının fiziki xassələrinə, konfiqurasiyalarına, material hissələrinə, texniki xüsusiyyətlərinə, habelə aviasiya personalına tətbiqini” sözləri “mülki aviasiya sahəsində” sözləri ilə əvəz edilsin;

13.1.1.3. 2.1.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.1.5. **xidmət təminatçısı** – təlim təşkilatları, hava gəmisinin istismarçıları, aerodrom istismarçıları, hava gəmisinin istismarçılarına xidmət göstərən texniki xidmət təşkilatları, hava gəmisinin, mühərrik və ya pərlərin növ dizaynına və istehsalına məsul olan hüquqi şəxslər və fərdi sahibkarlar, o cümlədən hava hərəkəti xidmətlərini təmin edən təchizatçı;”;

13.1.1.4. 2.1.6-cı yarımbənddə “, qəbuledilən” sözü “və məqbul” sözləri ilə əvəz edilsin;

13.1.1.5. aşağıdakı məzmunda 2.1.6-1-ci yarımbənd əlavə edilsin:

“2.1.6-1. **uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə performans** – müəyyən edilmiş uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə performans indikatorlarına və hədəflərinə uyğun olaraq dövlətin və ya xidmət təminatçısının nailiyyəti;”;

13.1.1.6. 2.1.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.1.7. **uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə performans indikatoru (bundan sonra – performans indikatoru)** – **uçuşların təhlükəsizliyinin təmin edilməsinin monitorinqi** və performansının qiymətləndirilməsi üçün istifadə olunan və məlumatlara əsaslanan meyarlar;”;

13.1.1.7. aşağıdakı məzmunda 2.1.7-1-ci yarımbənd əlavə edilsin:

“2.1.7-1. **uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə performans hədəfi (bundan sonra – performans hədəfi)** – uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədlərinə uyğun olan dövlətin və ya xidmət təminatçısının planlaşdırdığı və ya nəzərdə tutduğu performans indikatoru ilə bağlı müəyyən müddət üçün hədəf;”;

13.1.1.8. 2.1.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.1.8. **uçuşların təhlükəsizliyi üçün risk (bundan sonra – risk)** – proqnozlaşdırılmış təhlükə amilinin fəsadlarının və ya nəticələrinin başvermə ehtimalı və uçuşların təhlükəsizliyinə təsirinin ciddiliyi;”;

13.1.1.9. aşağıdakı məzmunda 2.1.8-1-ci yarımbənd əlavə edilsin:

“2.1.8-1. **mülki aviasiya subyektləri** – xidmət təminatçıları da daxil olmaqla mülki aviasiya sahəsində fəaliyyət göstərən və təhlükəsizliyin təmin edilməsi öhdəliyini üzərinə götürmüş fiziki və ya hüquqi şəxslər;”;

13.1.1.10. 2.1.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.1.9. **risklərin azaldılması** – proqnozlaşdırılmış təhlükə amilinin fəsadlarının və ya nəticələrinin başvermə ehtimalı və uçuşların təhlükəsizliyinə təsirinin ciddiliyinin azaldılmasına yönəlmiş profilaktik və bərpaedici tədbirlərin məcmusu;”;

13.1.1.11. aşağıdakı məzmunda 2.1.9-1-ci və 2.1.10-1–2.1.10-3-cü yarımbəndlər əlavə edilsin:

“2.1.9-1. **risklərin qiymətləndirilməsi** – risklərin məqbul olub-olmadığını müəyyən etmək üçün analitik üsullara əsaslanan qiymətləndirmə;”;

“2.1.10-1. **təhlükə amili** – aviasiya hadisəsinə və ya insidentinə səbəb ola biləcək, yaxud buna şərait yarada biləcək vəziyyət və ya obyekt;

2.1.10-2. **təhlükəsizlik mədəniyyəti** – uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün lazımi məsuliyyətin, öhdəliyin və hesabatlılığın yaranmasına yönəldilmiş, eləcə də insanların təhlükə amillərinə məruz qalmasının minimuma endirilməsi ilə bağlı davamlı dəyərlər, normalar, münasibətlər və təcrübələr toplusu;

2.1.10-3. **uçuşların təhlükəsizliyinə dair məlumat** – uçuşların təhlükəsizliyinin təkmilləşdirilməsi üçün aviasiya ilə bağlı müxtəlif mənbələrdən toplanılmış faktlar toplusu;”;

13.1.1.12. 2.1.11-ci yarımbənd ləğv edilsin;

13.1.1.13. 2.1.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.1.12. **uçuşların təhlükəsizliyinin idarə edilməsi üzrə toplanılmış məlumat bazası** – uçuşların təhlükəsizliyinin idarə edilməsi məqsədləri üçün işlənmiş, sistemləşdirilmiş və təhlil edilmiş uçuş təhlükəsizliyinə dair məlumatların toplusu;”;

13.1.1.14. 2.1.13-cü yarımbəndə “məqsədilə” sözündən sonra “Nazirliyin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – Agentlik) tərəfindən” sözləri əlavə edilsin, həmin yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.14-cü yarımbənd əlavə edilsin:

“2.1.14. **uçuşların təhlükəsizliyi üzrə müfəttiş yoxlaması (bundan sonra – müfəttiş yoxlaması)** – aviasiya fəaliyyətini həyata keçirən fiziki və hüquqi şəxslər tərəfindən dövlətin müəyyən etdiyi səriştə və uçuşların təhlükəsizliyinin təmin edilməsi səviyyəsinə uyğun olaraq fəaliyyət göstərdiklərini müəyyən etmək məqsədilə audit və inspeksiyalar daxil olmaqla yerinə yetirilən fəaliyyət.”;

13.1.2. 3-cü hissə üzrə:

13.1.2.1. 3.1-ci bənddə “Nazirliyin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – Agentlik)” sözləri “Agentlik” sözü ilə əvəz edilsin;

13.1.2.2. 3.2.1-ci yarımbəndə birinci halda “dövlət” sözündən əvvəl “dövlət siyasətini,” sözləri əlavə edilsin;

13.1.2.3. 3.2.2-ci yarımbənddə “uçuşların” sözü “mülki hava gəmilərinin uçuşlarının” sözləri ilə əvəz edilsin;

13.1.2.4. 3.2.8-ci yarımbənddə “, telekommunikasiya, informasiya və metereoloji xidmətlər” sözləri “xidmətləri” sözü ilə əvəz edilsin;

13.1.2.5. 3.3.14-cü yarımbənddə “istismarçılarına” sözü “subyektlərinə” sözü ilə əvəz olunsun və həmin yarımbəndə “edilməsi,” sözündən sonra “etibarlılıq müddətinin uzadılması,” sözləri əlavə edilsin;

13.1.3. 5-ci hissə üzrə:

13.1.3.1. 5.2.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“5.2.2. uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə nəzarətin, habelə uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirilməsi üçün Agentliyin hazırlıqlı müfəttişlər ilə komplektləşdirilməsi;”;

13.1.3.2. 5.2.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.2.9-cu yarımbənd əlavə edilsin:

“5.2.9. mülki aviasiya sahəsində normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərin pozulduğu aşkarlandığı təqdirdə müvafiq tədbirlərin görülməsi.”;

13.1.3.3. 5.3.1-ci yarımbənddə birinci halda “mülki” sözü “dövlətə mənsub” sözləri ilə əvəz edilsin;

13.1.3.4. 5.3.7-ci yarımbənddə “, metereoloji təminat və telekommunikasiya xidmətinin və bu xidmətin” sözləri “xidmətlərinin və bu xidmətlərin” sözləri ilə əvəz edilsin;

13.1.3.5. 5.3.11-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.3.12-ci yarımbənd əlavə edilsin:

“5.3.12. mülki hava gəmilərinin istismarçılarının, eləcə də mülki hava gəmilərinə texniki xidmət göstərən və onların uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilatların sertifikatlaşdırma tələblərinə uyğunluğu.”;

13.1.3.6. 5.5-ci bənddən “ildə bir dəfə”, “xidmət təminatçıları ilə razılaşdırmaqla” sözləri çıxarılsın və həmin bənddə “keçiriləcəyi sahələr” sözləri “əhatə dairəsi” sözləri ilə əvəz edilsin;

13.1.3.7. 5.7-ci bənddən “pozuntular və” sözləri çıxarılsın;

13.1.3.8. 5.8-ci bənddən “pozuntuların və uçuşların təhlükəsizliyinə təsir edə biləcək” sözləri çıxarılsın;

13.1.3.9. 5.11.5-ci yarımbəndə “xarici” sözündən sonra “dövlətə mənsub” sözləri əlavə edilsin;

13.1.4. 6-cı hissə üzrə:

13.1.4.1. 6.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“6.1.2. aşkar edilmiş təhlükə amillərinin risklərinin qiymətləndirilməsi və azaldılması.”;

13.1.4.2. 6.2.1-ci yarımbənddə “sahəsində yüksək səmərəlilik göstəricilərinə” sözləri “üzrə performansa” sözləri ilə əvəz edilsin;

13.1.4.3. 6.2.3-cü yarımbənddə “məmulatının təqdim edilməsi və xidmətlər” sözləri “fəaliyyətinin” sözü ilə əvəz edilsin;

13.1.4.4. 6.2.4-cü yarımbənddə “personalın” sözü “aviasiya personalının” sözləri ilə, “təqdim edilən aviasiya məmulatlarının və göstərilən xidmətlərin” sözləri “həyata keçirilən fəaliyyətin” sözləri ilə əvəz edilsin;

13.1.4.5. 6.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“6.3. Bütün xidmət təminatçıları UTİS-ə malik olmalıdır, eləcə də həyata keçirdikləri fəaliyyətlə əlaqədar təhlükə amillərinin aşkar edilməsinə və risklərin idarə edilməsinə təminat verən qaydaları təsdiq və tətbiq etməlidirlər.”;

13.1.4.6. 6.4.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 6.4.4-cü yarımbənd əlavə edilsin:

“6.4.4. aviasiya fəaliyyəti ilə bağlı digər aidiyyəti məlumatların toplanılması.”;

13.1.4.7. 6.5.2-ci, 6.5.5-ci (hər iki halda) və 6.5.6-cı yarımbəndlərdə “personalın” sözü “aviasiya personalının” sözləri ilə əvəz edilsin;

13.1.4.8. 6.5.7-ci yarımbənddə “personalın attestasiyası” sözləri “aviasiya personalının şəhadətnamə, vəsiqə və sertifikatlara malik olması” sözləri ilə əvəz edilsin;

13.1.5. 7-ci hissə üzrə:

13.1.5.1. 7.1.2-ci yarımbənddə “nəzarət” sözü “monitorinq” sözü ilə əvəz edilsin;

13.1.5.2. 7.6.3-cü yarımbənddə “səmərəliliyinə” sözü “təmin edilməsi üzrə performansa” sözü ilə, “səviyyə göstəricilərinə” sözləri “indikatorlarına və hədəflərinə” sözləri ilə əvəz edilsin;

13.1.5.3. 7.7-ci bənddə “səmərəlilik göstəricilərinin” sözləri “performans indikatorunun” sözləri ilə əvəz edilsin;

13.1.5.4. 7.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

“7.8. Agentlik xidmət təminatçıları, habelə digər mülki aviasiya subyektləri üçün hər təqvim ili üzrə Azərbaycan Respublikasının mülki aviasiyasında uçuşların təhlükəsizliyinin hədəflənən minimal səviyyəsini müəyyən edir.”;

13.1.6. 8-ci hissə üzrə:

13.1.6.1. 8.5-ci bənddə “9.3-cü” sözləri “9.2-ci” sözləri ilə əvəz edilsin;

13.1.6.2. 8.7-ci bənddən dördüncü halda “aviasiya” sözü çıxarılsın;

13.1.6.3. 8.8-ci bənddə “dövlətlərin” sözü “dövlətə mənsub” sözləri ilə əvəz edilsin;

13.1.7. 9-cu hissə üzrə:

13.1.7.1. 9.1-ci bənddə “dövlətin” sözü “dövlətə mənsub” sözləri ilə əvəz edilsin;

13.1.7.2. 9.2-ci və 9.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“9.2. Aviasiya hadisəsinin araşdırılmasını Azərbaycan Respublikası Nazirlər Kabinetinin yaratdığı aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiya həyata keçirir.

9.3. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın tərkibi və fəaliyyət qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur.”;

13.1.8. 10-cu hissə üzrə:

13.1.8.1. adında və 10.5-ci bənddə “personalın” sözü “müfəttiş heyətinin” sözləri ilə əvəz edilsin;

13.1.8.2. 10.2-ci bənddə “peşəkar hazırlığının təşkilini və ixtisasının artırılmasını” sözləri “uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təlim keçməsini” sözləri ilə əvəz edilsin;

13.1.8.3. 10.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

“10.7. Agentlik uçuşların təhlükəsizliyinə nəzarətin həyata keçirilməsində iştirak edən müfəttiş heyətinin təlimini sertifikatlaşdırılmış təhsil müəssisəsində və ya ICAO-nun təlim mərkəzlərində, habelə Agentlik tərəfindən səlahiyyət bəyanı verilmiş müvafiq təlimçi sertifikatına malik şəxslər vasitəsilə Agentlikdə həyata keçirir.”;

13.2. həmin Fərmanla təsdiq edilmiş “Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı” üzrə:

13.2.1. 1-ci hissə üzrə:

13.2.1.1. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

“Dövlət Proqramı “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa, “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiya və onun əlavələri ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə və mülki aviasiya sahəsində digər beynəlxalq təşkilatların standartlarına və tövsiyə olunan təcrübəsinə uyğun olaraq, habelə mülki aviasiya sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrin tələbləri nəzərə alınmaqla hazırlanmışdır.”;

13.2.1.2. üçüncü abzasa “dedikdə” sözündən sonra “təhlükə mənbələrinin aşkarlanması və risklərə nəzarət yolu ilə uçuşların təhlükəsiz həyata keçirilməsi, o cümlədən” sözləri əlavə edilsin;

13.2.1.3. beşinci abzasda “təşkilatları” sözü “təşkilatlarının” sözü ilə əvəz edilsin və həmin abzasdan “Dövlətlərarası Aviasiya Komitəsinin fəaliyyəti çərçivəsində” sözləri çıxarılsın;

13.2.1.4. altıncı abzasda “Sərnişin və yük daşınmasında” sözləri “Mülki aviasiya sahəsində” sözləri ilə əvəz edilsin;

13.2.2. 3-cü hissə üzrə:

13.2.2.1. 3.1.2-ci yarımbənddə “uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi ilə bağlı” sözləri “mülki aviasiya sahəsində” sözləri ilə əvəz edilsin;

13.2.2.2. 3.1.4-cü yarımbənddə “risklərə nəzarət” sözləri “risklərin idarə edilməsi” sözləri ilə əvəz edilsin;

13.2.2.3. 3.1.5-ci yarımbənddə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.1.6-cı və 3.1.7-ci yarımbəndlər əlavə edilsin:

“3.1.6. mülki aviasiya sahəsində təhlükəsizlik mədəniyyətinin təşviq edilməsi;

3.1.7. müxtəlif mənbələrdən uçuşların təhlükəsizliyinə dair məlumatların toplanılması, qorunması və təhlili, o cümlədən bu təhlilin nəticəsi olaraq mülki aviasiyanın daha təhlükəsiz və səmərəli fəaliyyət göstərməsi üçün düzgün qərarların verilməsi, habelə risklərə əsaslanan uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi.”;

13.2.2.4. 3.2.1-ci yarımbəndə “bazanın” sözündən sonra “beynəlxalq standartlar və tövsiyə edilən təcrübə nəzərə alınmaqla” sözləri əlavə edilsin;

13.2.2.5. 3.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.2.3. Azərbaycan Respublikasında uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə performans indikatorlarının və hədəflərinin monitorinqi;”;

13.2.2.6. 3.2.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.2.5 – 3.2.7-ci yarımbəndlər əlavə edilsin:

“3.2.5. uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində qabaqcıl təcrübənin tətbiqini təşviq etmək;

3.2.6. uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarət, eləcə də aviasiya hadisələrinin araşdırılması funksiyalarının yüksək səviyyədə keçirilməsi üçün lazımi insan və maliyyə resurslarının cəlb edilməsi;

3.2.7. uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində aidiyyəti dövlət qurumları və mülki aviasiya sənayesi arasında fəal əməkdaşlığın qurulması və dəstəklənməsi.”;

13.2.2.7. 3.3.2-ci yarımbənddə “idarə olunması” sözləri “azaldılması” sözü ilə əvəz edilsin;

13.2.3. 5-ci hissə üzrə:

13.2.3.1. 5.1.3-cü yarımbəndə “toplanmasının” sözündən sonra “, təhlil edilməsinin” sözləri əlavə edilsin;

13.2.3.2. 5.1.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

“5.1.9. mülki aviasiya subyektlərinin hüquqi və fiziki şəxslərə göstərdikləri xidmətlərin milli və beynəlxalq tələblərə uyğunluğunun təmin edilməsi.”;

13.2.4. 6-cı hissə üzrə:

13.2.4.1. 6.1.3-cü yarımbəndə “uyğunluğuna” sözündən sonra “, aviasiya sahəsində yarana biləcək təhlükə amillərinin müəyyən edilməsinə, risklərin qiymətləndirilməsinə və xidmət təminatçılarının xidmət göstərməsi zamanı həmin amillərin təsir dərəcəsinin azaldılması üçün risklərin idarə edilməsi sisteminə” sözləri əlavə edilsin;

13.2.4.2. 6.1.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 6.1.5-ci yarımbənd əlavə edilsin:

“6.1.5.Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün maarifləndirmə və məlumatlandırma işlərinin görülməsi, aviasiya hadisələri və insidentlərinin məlumat bazasının formalaşdırılması.”;

13.2.5. 7.2.1-ci yarımbənddə ikinci halda “xarici” sözü “beynəlxalq” sözü ilə əvəz edilsin;

13.2.6. 9-cu hissə üzrə:

13.2.6.1. 9.1.3-cü yarımbəndə “prosedur” sözündən sonra “, təlimat” sözü əlavə edilsin;

13.2.6.2. 9.1.4-cü yarımbəndə “xarici” sözündən sonra “dövlətə mənsub” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 17 iyun 2025-ci il**

# Bolqarıstan Milli Assambleyasının sədri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib

**Azərbaycanda səfərdə olan Bolqarıstan Respublikası Milli Assambleyasının sədri Nataliya Kiselova iyunun 17-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarını ziyarət edib. Milli Assambleyanın sədri Ulu öndərin məzarı önünə əklil qoyub, xatirəsini dərin hörmət və ehtiramla anıb.**



*

Həmin gün Bolqarıstan Milli Assambleyasının sədri xanım Nataliya Kiselovanın başçılıq etdiyi nümayəndə heyəti Zəfər parkını da ziyarət edib.

Burada qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Milli Assambleyanın sədri Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib.

***XQ***

# Azərbaycan–Bolqarıstan parlament əlaqələri inkişaf edir



**İyunun 17-də Milli Məclisin sədri Sahibə Qafarova Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) 65-ci plenar sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikası Milli Assambleyasının sədri Nataliya Kiselova ilə görüşüb.**

Sahibə Qafarova QDİƏT PA-nın fəaliyyətdə olan sədri kimi sessiya çərçivəsində QDİƏT PA-ya sədrliyin Bolqarıstan parlamentinə təhvil veriləcəyini qeyd edib və bu təşkilatın parlamentlərarası əməkdaşlıq üçün mühüm bir platforma olduğunu bildirib.

O qeyd edib ki, Azərbaycan və Bolqarıstan dost və strateji tərəfdaş ölkələrdir. Ölkələrimiz arasında siyasi əlaqələr Prezident İlham Əliyevin və Prezident Rumen Radevin qarşılıqlı səfərləri ikitərəfli münasibətlərin inkişafında müstəsna rol oynayır.

Nataliya Kiselova ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olmasından məmnunluğunu bildirib və onun səfərinin də bu münasibətlərin göstəricisi olduğunu diqqətə çatdırıb. Qonaq ölkələrimiz arasında əlaqələrin inkişafı baxımdan QDİƏT PA-nın əhəmiyyətli bir platforma olduğunu qeyd edib. O, Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Veliko-Tarnovo şəhərinin Trapezitsa Arxeoloji Muzey Qoruğunun bərpasının bolqar xalqı tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib.

***XQ***

# Şimali Makedoniya heyəti Milli Məclisdə



**İyunun 17-də Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanda rəsmi səfərdə olan Şimali Makedoniya Respublikası Assambleyasının sədri Afrim Qaşi ilə görüşüb.**

Əvvəlcə Assambleyanın sədri Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Sonra qonaqlar Milli Məclisdə Heydər Əliyev Muzeyində olublar. Afrim Qaşi Xatirə kitabını imzalayıb.

Görüşdə Sahibə Qafarova iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 30 il ərzində ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlər üzrə inkişafından məmnunluğunu bildirərək, dövlətlərarası əlaqələrimizin səmimi dostluq və qarşılıqlı hörmət üzərində qurulduğunu qeyd edib. Qonağın səfərinin əhəmiyyətini vurğulayan parlamentin sədri, bu səfərin parlament sədrləri səviyyəsində ilk belə səfər olduğunu, onun iki ölkə və qanunverici orqanlar arasında əlaqələrin dərinləşməsinə təkan verəcəyinə inamını ifadə edib.

Söhbət zamanı Azərbaycan və Şimali Makedoniya arasında siyasi, iqtisadi, mədəni-humanitar, təhsil və elm sahələrini əhatə edən ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Dövlətlərarası əlaqələrin möhkəmlənməsində müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin müstəsna rolu vurğulanıb, Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkovanın bu ilin mart ayında ölkəmizə rəsmi səfərinin və keçirilən səmərəli müzakirələrin əhəmiyyəti qeyd olunub. Ali qonaqla görüşünü məmnuniyyətlə xatırlayan Sahibə Qafarova həmin səfərin dövlətlərarası münasibətlərin inkişafında əhəmiyyətini qeyd edib.

Assambleyanın sədri Afrim Qaşi ölkəmizə ilk rəsmi səfərindən məmnunluğunu bildirərək, Bakıya valeh olduğunu, son illər Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətlər və yüksək inkişaf dinamikasının Azərbaycan xalqının böyük əzm və səylə çətinliklərin öhdəsindən gəldiyini nümayiş etdirdiyini xüsusi vurğulayıb. O, Şimali Makedoniyanın dost ölkələrlə əlaqələri daha da genişləndirmək siyasəti apardığını qeyd edərək, Azərbaycanın yerləşdiyi regionda mühüm geosiyasi əhəmiyyətə malik ölkələrdən biri olduğunu və bu baxımdan onunla əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduqlarını bildirib.

Görüşdə qonaqlara Milli Məclisin tarixi, strukturu, fəaliyyəti haqqında da məlumat verilib.

***XQ***

# Azərbaycan – Böyük Britaniya diplomatik müzakirəsi

**Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın xarici işlər, ittifaq və inkişaf məsələləri üzrə dövlət katibi Devid Lemmi arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq məsələləri, İsrail–İran qarşıdurması nəticəsində mövcud regional vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında sülh prosesinin perspektivləri müzakirə olunub.

Birləşmiş krallıq naziri Qurtuluş Günü münasibətilə təbriklərini çatdırıb, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Kralın Təvəllüd Günü münasibətilə edilmiş təbriklərə görə təşəkkür edib. O, Əhmədabad şəhəri yaxınlığında “Air India” şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində Böyük Britaniya vətəndaşlarının həlak olması ilə bağlı cənab Prezident İlham Əliyevin göndərdiyi başsağlığı məktubunu yüksək dəyərləndirdiklərini bildirib.

Nazir Ceyhun Bayramov də təbrikə görə təşəkkür edib və başsağlığı diləklərini çatdırıb.

Tərəflər İsrail–İran toqquşması nəticəsində bölgədə yaranmış təhlükəsizlik vəziyyətindən ciddi şəkildə narahat olduqlarını bildirib, vəziyyətin daha da gərginləşməsinin qarşısını almaq məqsədilə diplomatik yollarla təmasların və danışıqların davam etdirilməsinin vacib olduğunu vurğulayıblar.

Qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

# Erməni hərbi cinayətləri sübuta yetirilir

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyunun 17-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə ifadə verən Əsgər Dövlətov düşmənin törətdiyi genişmiqyaslı təxribat nəticəsində yaralanıb. Zərərçəkmiş bildirib ki, həmin gün Şuşa rayonunun Xəlfəli kəndində düşmənin açdığı atəşlər nəticəsindən açılan atəş nəticəsində həyatını itirdiyini bildirib.

Zərərçəkmiş Hüseyn Babayev ifadəsində Ağdamda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələr tərəfindən atılmış mərminin partlaması nəticəsində sol qulaq və boyun nahiyəsindən xəsarətlər aldığını söyləyib.

Zərərçəkmiş Nicat Qasımov düşmənin açdığı artilleriya atəşi nəticəsində Füzulidə yaralandığını deyib.

Ayaz Həsənli ifadəsində Ağdam istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən basdırılmış minanın partlaması nəticəsində xəsarətlər aldığını söyləyib.

Dövlət ittihamçıları Fuad Musayev və Vüsal Abdullayevin suallarına cavablarında zərərçəkmiş şəxslər bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri ərazilərimizdə intensiv şəkildə genişmiqyaslı təxribatlar törədiblər.

Ceyhun Hüseynov Zəngilan rayonunda düşmən tərəfindən atılmış qumbaraatan mərmisinin partlaması nəticəsində xəsarət alıb. “Düşmən əvvəlcə artilleriya atəşi açdı, sonra isə canlı qüvvə ilə hücuma keçməyə cəhd etdi”, - deyə o bildirib.





Zərərçəkmiş şəxsin hüquqi varisi Əlizamin Qənbərov ifadəsində övladı Rəşad Qənbərlinin Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində Laçın rayonunda həlak olduğunu deyib. Ə.Qənbərov ona dəyən zərərin ödənilməsinin qeyri-mümkün olduğunu vurğulayıb.

İfadə verən Sarıbala Həsənov övladı Səid Həsənovun Kəlbəcər rayonunda düşmən tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu bildirib.

Füzuli Qasımov Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında oğlu İnqilab Qasımzadənin Ermənistan silahlı qüvvələrinin qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində Xankəndi şəhərində həyatını itirdiyini söyləyib.

İlahə Eyvazova ifadəsində həyat yoldaşı Tural Cahangirovun Kəlbəcərdə düşmən tərəfindən odlu silahdan açılmış atəş nəticəsində həlak olduğunu deyib. “Həmin gün qızımın ad günü idi”, - deyə o əlavə edib.

Aynur Mürsəlova ifadəsində həyat yoldaşı Zahir Əliyevin Kəlbəcərdə düşmən tərəfindən açılan atəş nəticəsində həyatını itirdiyini bildirib. Onunla birlikdə Ayxan Kərimli, Musa Orucov və Yusif Məcidli də müxtəlif növ bədən xəsarətləri alıb, bir neçə nəfər isə həlak olub. O, dövlət ittihamçısı Təranə Məmmədovanın sualına cavabında deyib ki, həmin vaxt düşmən mütəmadi olaraq təxribatlar törədərək ərazilərimizə müxtəlif silahlardan atəş açıb.

Zərərçəkmiş şəxs Sübhan Qardaşxanov Ağdam rayonu istiqamətində atılmış mərminin yaxınlığa düşüb partlaması nəticəsində çoxsaylı qəlpə xəsarətləri alıb. Hadisə zamanı Mehdi Abbasov, Devid Cəlilov, Rəsul Teymurov, Əli Tağıyev və Cavad Məhərrəmov həlak olub, daha bir neçə nəfər isə yaralanıb. O, hadisədən əvvəl də düşmən tərəfin mütəmadi olaraq təxribat törətdiyini, atəş açdığını bildirib.

Zərərçəkmiş Rövşən Xəlilov Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında qeyd edib ki, Ağdamda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin snayper atəşi və atdıqları artilleriya mərmisinin partlaması nəticəsində xəsarətlər alıb. Həmin vaxt yanında olan İsmayıl Həşimov da yaralanıb.

Zərərçəkmiş şəxslər Tural Zeynalov, Şahin Əhmədov, Zeynal Cəbrayılov, Mehdi Yusifov, Rəsul Feyzullayev ifadələrində Zəngilan rayonunda düşmən tərəfindən açılmış atəşlər nəticəsində yaralandıqlarını diqqətə çatdırıblar.

Təbriz Abuşov ifadəsində Xocalı rayonunda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində güllə yarası aldığını söyləyib.

Zərərçəkənlər İlham İsrayılov və Namiq Əliyev Ağdamda artilleriya mərmisinin partlaması nəticəsində yaralandığını söyləyib.

Zərərçəkən Atalı Soltanəli də düşmənin genişmiqyaslı təxribatı nəticəsində Ağdərə istiqamətində yaralanıb. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında o deyib ki, hadisə zamanı yanındakı şəxslər həlak olublar.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası iyunun 24-nə təyin olunub.

***XQ***

# Şuşada yeni dünya nizamı müzakirəsi

**Bugünlərdə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Şuşa şəhərində “Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar” mövzusunda beynəlxalq konfrans keçirilib. Məclisdə Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin konfrans iştirakçılarına müraciətini səsləndirib.**




Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov azad olunmuş ərazilərdə görülən işlərdən danışıb. Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Efkan Ala Azərbaycan ilə Türkiyə arasında münasibətlərin dostluğa, qardaşlığa və strateji müttəfiqliyə əsaslandığını qeyd edib.

Milli Məclisin deputatı Ramil Həsənin moderatorluğu ilə keçirilən plenar sessiyada çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib: “32 il əvvəl – 1993-cü il iyunun 15-də son dərəcə mürəkkəb bir şəraitdə - Azərbaycan Respublikası yenicə bərpa etdiyi dövlət müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya olarkən müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmiş və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi yazılmışdır”.

Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Zafer Sırakayanın moderatorluğu ilə “Milli suverenlik, regional əməkdaşlıq və qlobal təhlükəsizlik: yeni çağın siyasi paradiqmaları” mövzusunda panel sessiyada YAP Sədrinin müavini, Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov, Qazaxıstanın “AMANAT” Partiyasının İcra katibi Daulet Kəribek, Sahibkarlar və İş Adamları Hərəkatı – Özbəkistan Liberal Demokratik Partiyasının Siyasi Şurası İcra Komitəsinin sədri, Özbəkistan Respublikası Ali Məclisi Qanunvericilik Palatasındakı UzLiDeP fraksiyasının sədri Aktam Xaitov, Serbiya Tərəqqi Partiyası Sədrliyinin üzvü, Serbiya Respublikasının Avropa inteqrasiyası naziri Nemanya Staroviç müzakirədə iştirak ediblər.

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradovun moderatoru olduğu “Ortaq dəyərlər və süni intellekt: yeni təhdidlər və imkanlar” mövzusunda panel sessiyasında Çinin Azərbaycandakı səfiri Lu Mey, Bolqarıstanın Haqq və Azadlıqlar Hərəkatı parlament fraksiyası sədrinin müavini Ceyhan İbryamov, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Tahir Mirkişili mövzu ilə bağlı çıxış ediblər.

***XQ***

# Azərbaycanın praqmatizmə və ədalətə söykənən sabitlik modeli

(əvvəli 1-ci səhifədə)

Əvvəlcədən qeyd edək ki, Prezidentin köməkçisinin Praqadan verdiyi mesajlar ciddi siyasi yükə malikdir. Çexiya Avropa İttifaqının (Aİ) əsas üzv ölkələrindən biri olmaqla yanaşı, burada keçirilən yüksək səviyyəli görüşlər və səsləndirilən fikirlər Azərbaycanın mövqeyinin beynəlxalq aləmdə bir daha güclü şəkildə ifadə olunmasına şərait yaratdı. Azərbaycan Aİ ilə enerji sahəsində strateji əməkdaşlıq memorandumu imzalamış ölkədir və bu sənədin mahiyyəti ölkəmizi Avropanın etibarlı enerji təminatçısı kimi ön plana çıxarıb. Diqqətimizi çəkən önəmli məqam H.Hacıyevin çıxışında toxunduğu siyasi aspektlərin əhəmiyyətinə görə heç də istisadi prioritetlərdən geri qalmaması idi.

"Azərbaycan davam edən Rusiya–Ukrayna münaqişəsi ilə İsrail və İran arasında artan hərbi qarşıdurma arasında gərgin geosiyasi vəziyyətin episentrindədir. Bakı bu cür ssenarilərin mümkünlüyünü qabaqcadan görüb və onlara, o cümlədən qonşu dövlətlərə tətbiq edilən sanksiyaların mümkün nəticələrinə əvvəlcədən hazırlaşıb". Bakının uzaqgörən diplomatiyasını əyani misalla xüsusi qeyd edən H.Hacıyevin bölgədəki mövcud sabitliklə bağlı dedikləri isə Azərbaycanın dostlarını da, bədxahlarını da düşünməyə vadar etməlidir: "Dünyada baş verənlərə daha geniş kontekstdə baxsaq və müqayisə aparsaq görərik ki, Cənubi Qafqaz ən sabit regionlardan biridir". Bəli, Prezidentin köməkçisinin böyük dövlətlərin özlərinə geoiqtisadi tərəfdaş seçərkən siyasi sabitliyə önəm vermələrinin əhəmiyyətini qeyd etməsi təsadüf deyildi. Azərbaycanın Şərqdən Qərbə uzanan geniş ticarət yollarında ən sərfəli tərəfdaş olması məhz ölkədə və bölgədə yaratdığı sabitlik amili ilə birbaşa bağlıdır.

*

GLOBSEC-2025 beynəlxalq forumunda vurğunun daha çox Orta Dəhliz üzərinə yönəldiyini nəzərə alsaq, Bakının bu kontekstdə apardığı siyasətdən danışan H.Hacıyev onu təkcə logistik marşrut kimi deyil, həm də mədəni, iqtisadi və enerji qarşılıqlı əlaqələr üçün strateji platforma kimi dəyərləndirdi. Onun Aİ-nin Cənubi Qafqaz regionu üçün hələ də dəqiq strategiya formalaşdırmadığına diqqəti yönəltməsi, Brüsseli Transxəzər Dəhlizinin əhəmiyyətini dərk etməyə və hər şeydən əvvəl investisiyalar daxil olmaqla, daha fəal tərəfdaşlıq mövqeyi tutmağa çağırması Bakının Qərbə yeni diplomatik mesajı kimi qəbul olunmalıdır.

Azərbaycan Prezidentinin köməkçisinin ABŞ-ın yeni administrasiyası ilə strateji tərəfdaşlığın mümkünlüyünü ayrıca vurğulaması



## Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Azərbaycanın bölgədə yaratdığı sabitlik ölkəmizin beynəlxalq müstəvidə atdığı çox effektli addımları ilə birbaşa bağlıdır. Rəsmi Bakının bu istiqamətdə apardığı diplomatiya bir sıra dövlətlər tərəfindən yüksək qiymətləndirilir. Bəli, Azərbaycan bölgə ilə bağlı bir çox məsələlərdə prinsipiallıq və çeviklik nümayiş etdirir. Bəzi məqamlarda isə vasitəçilik missiyasını da yerinə yetiririk. Yaxın tarixin təcrübəsi də göstərir ki, Bakı bir sıra ölkələr arasında sülh və vasitəçilik meydanına çevrilib. Bunun özü də danılmaz reallıqdır. Azərbaycan dünyanın nüfuzlu dövlətləri ilə müttəfiqlik və tərəfdaşlıq müqavilələri imzalayanda, əlaqələri bu müstəvidə quranda da özünün milli maraqlarına uyğun addımlar atır. Bu zaman qərarlarımızı heç bir halda kiməsə xoş gəlmək, yaxid siyasi kursunu dəstəkləmək üçün qəbul etmirik.

Azərbaycan, yeri gələndə, bu və ya digər məsələ ilə bağlı prinsipial mövqeyini, ciddi yanaşmasını ortaya qoymağı bacarır. Artıq müttəfiq və tərəfdaş ölkələr bunu başa düşürlər. Nəinki başa düşürlər, həmin ölkələrin dövlət xadimləri, siyasətçiləri Bakının bu mövqeyini yüksək qiymətləndirirlər. Buna xeyli misal gətirə bilərik. Bununla yanaşı, ölkəmiz indiki mürəkkəb beynəlxalq münasibətlər sistemində, geosiyasi planda qeyri-adekvat hərəkətlərin regiona təsirsiz ötüşməyəcəyini də yaxşı başa düşür. Azərbaycan diplomatiyasının üstünlüyü odur ki, belə mürəkkəb dönəmdə sözünə sadiq qalır, milli maraqlara cavab verən addımlar atır. Qarşıdurmadan yayınmaq, ortaya çıxan bütün məsələlərin həllinə kompromisə gəlməklə nail olmaq, bölgədə sabitliyi poza biləcək heç bir hərəkətə yol verməmək. Bunlar diplomatiyamızın uğurunu şərtləndirən amillərdir. Eyni zamanda, daxili sabitliyə yönələn bu diplomatiya bəzi bədxahlarımızın Azərbaycana qarşı ata biləcəkləri addımları, bəyanatları və yanaşmarları da əngəlləyir.

isə Bakının Vaşinqtona ismarıcı sayıla bilər. H.Hacıyev Donald Trampın ilk prezidentlik dövründə Trans–Adriatik Boru Kəməri (TAP) layihəsinin həyata keçirilməsində uğurlu əməkdaşlığını qeyd edərək, rəsmi Bakının ikitərəfli münasibətləri dərinləşdirməyə hazır olduğunu bildirməsi isə forum iştirakçılarının böyük marağına səbəb oldu: "ABŞ Prezidentinin iştirakı, siyasi dəstəyi bu layihəni reallığa çevirdi və biz buna görə ona çox minnətdarıq. TAP hazırda Avropanın enerji təhlükəsizliyinə səmərəli töhfə verməkdədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan öz təbii qazını 10-u Avropa dövləti olmaqla 12 ölkəyə ixrac edir. Biz əlaqələrimizin coğrafiyasını daha da genişləndirməyi səbirsizliklə gözləyirik".

Daha sonra çıxışında Zəngəzur dəhlizi mövzusuna toxunan H.Hacıyev Azərbaycanın Ermənistandan konkret addımlar gözlədiyini, bu yolun bütün bölgə üçün strateji əhəmiyyət kəsb etdiyiyi bildirdi: "Bu gün artıq münaqişə həll edilib, biz regionda tam təhlükəsizlik və sabitlik yaratmışıq, Ermənistan da regional müzakirələrin və əsas nəqliyyat əlaqələrinin bir hissəsi ola bilər".

Bununla bağlı Prezidentin köməkçisinin İrəvana ironik ismarıcı yaddaqalan oldu: "Ermənistanın alternativ "Dünyanın kəsişməsi" layihəsini təşviq etmək cəhdləri gecikmiş reaksiyadır. Biz nəqliyyat marşrutları arasında "gözəllik yarışmasında" iştirak etmirik. Orta Dəhlizi ilk növbədə öz ölkəmizin maraqları üçün inkişaf etdiririk. Onu da başa düşmək lazımdır ki, bu dəhliz, sadəcə, "A" nöqtəsindən "Z" nöqtəsinə gedən marşrut deyil. Onların arasında çoxlu ziqzaqlar, o cümlədən geosiyasi amillər var".

*

Bütövlükdə, Hikmət Hacıyevin Praqa forumundakı çıxışı Şərqlə Qərb arasında ən mühüm kommunikasiyalarda Azərbaycanın müstəsna rolu barədə aydın mövqenin ifadəsi idi. Prezidentin köməkçisi belə bir fikri açıq şəkildə çatdırdı ki, Bakının qurduğu bütün əlaqələr, həyata keçirdiyi layihələr bəzi qüvvələrin süni sxemlər tətbiq etmək istəyi ilə bağlı spekulyasiyalara imkan vermir.

Bəli, Azərbaycan ona görə etibarlı və sabit tərəfdaş hesab olunur ki, onun tərəfində güc, praqmatizm və ədalət var. Yazımızı Ümumukrayna "Novaya sila" Partiyasının lideri, hüquqşünas, birinci çağırış Ali Radanın deputatı, Ukrayna prezidenti vəzifəsinə sabiq namizəd Yuri Zbitnevin on il bundan əvvəl Azərbaycan barədə dediyi sözlərlə yekunlaşdırırıq: "Beynəlxalq siyasətdə iki yanaşma – praqmatik və romantik yanaşma həmişə əlaqəlidir. Sonuncu yanaşmada həmişə romantik piramidalar qurulur, birinci yanaşmada isə dövlətlərin milli mənafeləri nəzərə alınmaqla yeni paradiqmalar, beynəlxalq münasibətlərin yeni arxitekturası yaradılır. Azərbaycanın siyasətini məhz bu cür düşünülmüş praqmatik yanaşmaya aid etmək olar. Ukrayna kimi, Azərbaycan da bir çox geosiyasi qüvvə mərkəzlərinin kəsişdiyi məkanda yerləşir. Buna görə də ölkə rəhbərliyi təkcə öz dövlətinin güclənməsinə deyil, həm də regionda sabitliyin qorunub saxlanmasına yönəlmiş dəqiq və çevik siyasət yeridir".

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Prezidentin köməkçisi "Azərbaycan bölgədə sabitliyin yaradıcısıdır", – deyəndə, yəqin beş il əvvələ qədər Cənubi Qafqazı partlatmaq həddinə çatmış Ermənistan–Azərbaycan hərbi münaqişəsinin qısa müddətdə, həm də beynəlxalq hüquq çərçivəsində həllini və ondan sonra baş verən prosesləri nəzərdə tutur. Bununla da Azərbaycan bölgədə hərbi münaqişəyə səbəb ola biləcək bütün riskləri neytrallaşdırdı. Bu gün heç bir kənar qüvvənin gəlib burada aranı qarışdırmaq, sabitliyi pozmaq şansı yoxdur. Bəli, Azərbaycan bölgənin sabitləşdirici aktoru statusunda çıxış edir. Məhz bu amilə görə Cənubi Qafqazda sabitlik hökm sürür.

Orta Dəhliz məsələsinə gəldikdə isə, əslində, Azərbaycan bu layihəni özünü düşünərək gerçəkləşdirir. Sonra Çin, onun ardınca Mərkəzi Asiya ölkələri gəlir. Çünki bizim özümüzdən ötrü münaqişə, risk amili yarada biləcək nə Rusiya, nə də İran xətləri o qədər də əlverişli deyil. Yəni, Azərbaycandan asılı olmayan münaqişələr yarandığı təqdirdə ölkəmizin dünya ilə əlaqələrində problem yarana bilər. Məz buna görə Bakı seçimi Gürcüstandan keçməklə qardaş Türkiyəyə uzanan xətlər üzərində edib. Həmin xətlərin hamısı, ilk növbədə, dövlətimizin və xalqımızın mənafeyinə xidmət edir. Neft-qaz kəmərləri, avtomobil yolları, müasir kommunikasiyar üçün fiber-optik kabellərin çəkilişi və nəhayət, dəmir yolu. Burada Azərbaycana kənardan yardım edilmir. Əksinə, kənardan mane olmağa çalışırdılar. İndi isə həmin əleyhdarlarımız bu kəmərlərə möhtac qalıblar. Vaxtilə Mərkəzi Asiya ölkələri bütün əlaqələri Şimal qonşumuzun ərazisi ilə həyata keçirirdi. Quru yolları Rusiyadan keçən Çin də Azərbaycanın yaratdığı nəqliyyat habına maraq göstərir. Yəni, ölkəmiz bu məsələlərdə, doğrudan da, uzaqgörənlik nümayiş etdirib və bu gün onun faydasını görməkdədir. Azərbaycanın beynəlxalq arenada geosiyasi mövqelərinin güclənməsi həm də bu amillə bağlıdır.

# Demokratiya döyüşməli, yoxsa düşünməlidir?

(əvvəli 1-ci səhifədə)

Bu, doğrudan da, demokratiyanın qorunmasıdır, yoxsa liberalizm adı altında yeni ideoloji avtoritarizmin formalaşması? Bəlkə bu anlayış azad cəmiyyətlərin öz prinsiplərini inkar edərək, daxili və xarici müxalifətə qarşı yeni repressiv alətlər formalaşdırmaq cəhdidir? Bütün bu suallar indi Avropanın siyasi gələcəyi və demokratik institutların mahiyyəti ilə bağlı fundamental müzakirələrə ehtiyac olduğunu göstərir. Çünki demokratiyanın "döyüşkən" forma alması bütöv bir idarəetmə fəlsəfəsinin dəyişməsi deməkdir. Bu dəyişikliyin dalğası təkcə Avropanın daxilində deyil, onun qonşuluğundakı regionlara – o cümlədən, Şərqi Avropaya, Qafqaza və Balkanlara da təsir edir.

*

2024-cü ilin Avropa Parlament seçkiləri qitənin siyasi mənzərəsində sarsıdıcı dəyişikliklərin baş verdiyini açıq şəkildə göstərdi. Uzun illərdir ki, Avropanı liberal-demokratik dəyərlər adı altında idarə edən mərkəzçi qüvvələr bu dəfə gözlənilməz reallıqla üzləşdilər: sağçı, suverenist və anti-establişment partiyalar ciddi irəliləyiş qazandı. Almaniyada "Almaniya üçün Alternativ (AfD)", Fransada "Milli Ralli", İtaliyada isə baş nazir Meloninin rəhbərlik etdiyi sağçı ittifaqlar böyük ictimai dəstəyə sahib oldu. Məhz bu nəticələr Avropa xalqının illərdir yığılan narazılığının, iqtisadi, mədəni və sosial problemlərə cavab tapa bilməyən quruluşlara verdiyi səsli və açıq etiraz idi.

Lakin bu demokratik iradə Brüsseldə, xüsusilə Avropa Komissiyası və digər mərkəzi institutlarda panikaya səbəb oldu. Demokratiyanın və xalq hakimiyyətinin beşiyi sayılan Avropada birdən-birə xalqın səsinə qarşı şübhə ilə yanaşılmağa başlandı. Sanki seçici öz iradəsini bildirməklə nəsə "səhv etmişdi".

Məsələ burasındadır ki, illərdir başqalarına demokratiya dərsi keçən Avropa elitası indi demokratik yolla seçilmiş sağ qüvvələrə qarşı media hücumları, ideoloji damğalama və nəhayət, "döyüşkən demokratiya" adlı yeni repressiv doktrina ilə cavab verir. Müxtəlif liberal media orqanlarında bu partiyalar "populist", "anti-demokratik", "ifrat sağçı" adlandırılır. Hətta onların uğurunu xalqın iradəsi yox, sosial şəbəkələrdəki "manipulyasiyalar", "dezinformasiyalar" və guya, xarici qüvvələrin təsiri ilə izah etməyə çalışan qərəzli analizlər yayılır. Ən böyük təhlükə isə bundadır: bu yanaşma demokratiyanın öz mahiyyətini – plüralizmi, fikir azadlığını, alternativ seçimin mövcudluğunu – sual altına qoyur. Demokratiya yalnız "doğru" fikirlər və "məqbul" namizədlər çərçivəsində baş verəndəmi keçərlidir? Yoxsa, onun gücü məhz fərqli, bəzən narahatedicici fikirlərə açıq olmasındadır?

Əgər Avropa siyasi elitası "döyüşkən demokratiya" adı altında xalqın seçiminə qarşı ideoloji sədd çəkirsə, bu, artıq liberalizmin müdafiəsi deyil – bu, liberal avtoritarizmin təzahürüdür. Belə davam edərsə, Avropa demokratiyası öz prinsiplərini qorumaq adı ilə onları ayaq altına atmaq təhlükəsi ilə üz-üzədir.



*

Əvvəllər azadlıqların müdafiəsi kimi təqdim olunan demokratiya bu gün yeni bir mərhələyə qədəm qoyur – özünü qoruma adı altında özgələri susdurmağa çalışan bir sistemə çevrilir. "Döyüşkən demokratiya" adı verilən bu yanaşma ilk baxışda demokratik dəyərləri müdafiə kimi görünsə də, praktikada ideoloji avtoritarizmin zərif örtüyünə çevrilir. Əgər fikir azadlığı yalnız "doğru" və "məqbul" hesab edilən düşüncələrlə məhdudlaşdırılırsa, bu artıq demokratiya deyil — bu, liberal ortodoksiyanın diktaturasıdır.

Bu yanaşma informasiya məkanında sistemli senzura mühiti yaradır. Sosial şəbəkələrdə və media platformalarında müəyyən fikirlər — xüsusilə də mövcud siyasi xəttə uyğun gəlməyən, "populist" və ya "radikal" sayılan baxışlar — görünməz bir əl tərəfindən bloklanır. Fikrin və sözün sərbəst axını yerini seçilmiş "doğru" mövqelərə verir ki, bu da informasiya azadlığının tam mənada çöküşüdür. Bununla yanaşı, seçici iradəsinə də şübhə ilə yanaşılır, xalqın sandıqda ifadə etdiyi seçimlərə bəzən açıq-aşkar hörmətsizlik nümayiş etdirilir. Əgər bu seçimlər Brüsseldəki mərkəzlərin maraqlarına uyğun deyilsə, dərhal manipulyasiya, dezinformasiya, xarici təsir kimi izahlarla etibarsızlaşdırılır. Sanki demokratiya yalnız o zaman qəbul edilə bilər ki, "doğru tərəf" qalib gəlsin. Bu isə seçicinin azad iradəsini, onun siyasi prosesdəki əsas rolunu kölgəyə salır.

Avropanın bu ikili standartları beynəlxalq münasibətlərdə də özünü göstərir. Məsələn, "Ərəb baharı"nda sosial şəbəkələrdəki təşkilatlanmalar demokratiyanın dirçəlişi kimi təqdir edilirdi. Amma bu gün oxşar metodlarla uğur qazanan sağçı partiyaların yüksəlişi "təhlükəli populizm" damğası ilə qarşılanır. Deməli, demokratik proseslərə yanaşma – kimlər üçün və harada baş verməsindən asılı olaraq dəyişir.

Xarici siyasətdə isə bu yanaşma daha açıq formada selektiv tətbiq olunur. Macarıstan milli maraqlarını qoruyanda "avtoritarlaşma"da, Gürcüstan daxili qanunvericiliyini tənzimləyəndə "Avropa kursundan yayınma"-da günahlandırılır. Xüsusilə, Azərbaycan nümunəsində bu siyasətin mahiyyəti daha açıq şəkildə ortaya çıxır. Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq ərazi bütövlüyünü bərpa etdikdə, öz suverenliyini təmin etdikdə və bu uğurları yeni enerji və diplomatik strategiyalarla möhkəmləndirdikdə, birdən-birə "demokratiya" adı altında təzyiq və qarayaxma kampaniyaları başlayır.

COP29 kimi qlobal əhəmiyyətli tədbirin Azərbaycanda keçirilməsi belə, bəzi dairələrdə qıcıq yaratdı – açıq şəkildə boykot çağırışları səsləndirildi. Halbuki bu çağırışların arxasında əslində nə demokratiya, nə də ətraf mühit dayanır – burada əsas məqsəd Azərbaycanın yüksələn beynəlxalq nüfuzunu cilovlamaqdır. Xüsusilə diqqətçəkən məqamlardan biri də odur ki, Bakı İrəvanla vasitəçilərsiz, birbaşa dialoqa üstünlük verərək regionda sülhün və sabitliyin qurulması üçün real və səmimi siyasi iradə nümayiş etdirir. Bu, artıq "demokratiya" pərdəsi altında aparılan sistemli geosiyasi müdaxilə siyasətidir. Və bu siyasət Azərbaycana yaxşı tanışdır: döyüş meydanında qalib gələn bir ölkəni informasiya müharibəsində susdurmaq cəhdi – bu dəfə "döyüşkən demokratiya" adı altında. Amma bu yanaşma Azərbaycan cəmiyyətində gözlənilən effekti yaratmır. Əksinə, bu cür yanaşmalar xalqın dövlətə və milli maraqlara daha sıx birləşməsinə səbəb olur. Çünki qarşıda duran məsələ təkcə demokratiya deyil, həm də milli iradənin tanınıb-tanınmamasıdır.

*

"Döyüşkən demokratiya" bir tərəfdən öz dəyərlərini müdafiə etdiyini bildirir, digər tərəfdən isə bu dəyərləri özünün ideoloji silahına çevirərək fərqli baxışları boğur. Əgər bu model yayılmağa davam edərsə, demokratiyanın gələcəyi sual altına düşə bilər. Çünki demokratiya yalnız ona tabe olanları deyil, fərqli düşünənləri də tanımağı və yaşamağı bacarmalıdır.



Avropa bu gün həlledici seçim qarşısındadır: xalqın artan narazılığına senzura və ideoloji qadağalarla cavab vermək, yoxsa onun səsini dinləyib həqiqi islahatlara getmək? "Döyüşkən demokratiya" kimi təqdim olunan yanaşma, əslində, liberal elitanın getdikcə zəifləyən mövqelərini qorumaq üçün uydurduğu ideoloji qalxandır. Mövcud konsepsiya qorxuya əsaslanır – rəqibin güclənməsinə, fərqli düşüncələrin meydan qazanmasına və ən əsası, sistemin mövcud formasının dəyişməsinə duyulan qorxuya. Amma qorxu üzərində qurulan siyasət nə xalqla birləşdirir, nə də cəmiyyətləri gücləndirir. Əksinə, bu yol uzunmüddətli perspektivdə cəmiyyətləri parçalayır, etimadı sarsıdır və siyasi radikallaşmanı daha da dərinləşdirir. Demokratiyanın ən əsas sütunu olan xalq iradəsi devalvasiya edilir, ona şübhə ilə yanaşılır, sanki xalq yalnız "doğru seçim" edəndə dəyərlidir.

Avropanın liberal mərkəzləri bu gün bir məqamı qəbul etməlidir: cəmiyyət dəyişir, reallıqlar dəyişir, insanlar artıq köhnə şüarlara aldanmır. Əgər bu dəyişimi döyüşlə, yasaqlarla, media hücumları ilə qarşılamaq seçilərsə, bu, yalnız demokratik institutların zəifləməsinə və ictimai qütbləşmənin artmasına gətirib çıxaracaq. Demokratiya öz dəyərlərini qorumaq üçün döyüşməməlidir. O, dinləməli, öyrənməli və yenilənməlidir.

Bu gün Avropanın qarşısında duran sual sadə, lakin cavabı taleyüklüdür: Demokratiya döyüşməlidirmi, yoxsa dinləməlidir? Cavab isə zamanın özü qədər aydındır: yalnız dinləyən demokratiyalar qalib gəlir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki, siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Strateji geosiyasi rəqabət və hərbi qarşıdurmalar



I MƏQALƏ

## Dünya yeni böhrana doğru

İndi dünya müxtəlif regionlarda mövcud olan hərbi toqquşmaları həyəcanla izləyir. Şərqi Avropada Rusiya-Ukrayna, Yaxın Şərqdə İsrail-Fələstin və son zamanlar İsrail-İran, Asiyada Hindistan-Pakistan münaqişələri fərqli dinamikada davam edir. Lakin onların birlikdə dünya üçün ciddi təhlükə yaratdığını deyirlər. Xüsusilə, İsrail-İran və Rusiya-Ukrayna hərbi toqquşmaları sanki geniş miqyasda insanlara gələcəklə bağlı qorxu yaratmışdır.

Ancaq bu proseslərin geosiyasi qiymətləndirilməsi ilə adi səviyyədə qavranılması arasında fərqlər vardır. Strateqlər və analitiklər mövcud vəziyyəti nəzəri geosiyasi yanaşma əsasında anlamağa çalışırlar. Maraqlıdır ki, bunun üçün klassik anlayışlardan çox, müasir elmlərdə yaranmış anlayışlardan istifadə edirlər.

Məsələn, “qeyri-xəttilik”, “asimmetriklik”, “xaotik dinamika”, “turbulentlik”, “mürəkkəblik”, “dayanıqsızlıq” və s. Bu cür anlayışlardan istifadənin mövcud vəiyyəti adekvat dərk etməyə imkan verdiyi haqqında birmənalı fikir bildirmək çətindir. Ancaq reallıqdır ki, artıq əvvəlki mərhələlərdə istifadə olunan anlayışlarla XXI əsrin geosiyasi dinamikasını xarakterizə etmirlər. Onda məntiqi olaraq belə alınır ki, məsələn, İsrail-İran hərbi toqquşmasının nəzəri geosiyasi dərkinə klassik anlayışlar prizmasında baxmaq özünü aldatmaqdır. Başqa münaqişəli vəziyyətləri də nəzər alsaq, ümumiyyətlə, dünya miqyasında geosiyasi mənzərəni necə xarakterizə etmək olar ki, oradan konkret hərbi toqquşma “məkanlarına elmi yüklənmək” mümkün olsun? İndi əksər analitikin istifadə etdiyi bir terminin prizmasında qlobal geosiyasətin dinamikasına baxaq.

## Asinxron çoxqütblülük

“Asinxronluq” burada dünyanın böyük güclərinin nüfuz dərəcəsinin fərqliliyi ilə yanaşı, onlar arasındakı münasibətlərin ziddiyyətliliyini ifadə edir. Bundan başqa, asinxronluq həmin güclü dairələrin dünyanın digər kəsiminə münasibətlərinin də təzadlı olduğuna işarədir. Bu anlam çərçivəsində müasir qlobal geosiyasi mənzərə dayanıqsız və kəskin qarşıdurmalar meydanını xatırladır. İndi həmin mənzərəni əsasən üç toqquşma məkanı formalaşdırır: Rusiya-Ukrayna müharibəsi, İsrail-İran və Hindistan-Pakistan toqquşması. Hələlik diplomatik üsulla bu münaqişə nisbi sabit vəziyyətdədir, lakin istənilən an yenidən alovlana bilər. Bunun təsdiqlərindən biri kimi son olaraq Pakistan–Əfqanıstan sərhədində hərbi toqquşmanın baş verdiyi haqqında informasiyanı xatırlamaq olar.

Eyni zamanda, mövcud toqquşmaların fonunda bir neçə həssas məkanlar vardır. Məsələn, Rusiya-Qazaxıstan sərhədi və ya Qırğızıstan-Əfqanıstan-Pakistan-Hindistan-Çin “beşbucağı” və s.

Bütün bunların prizmasında hazırda aktiv fazada olan toqquşmaları geosiyasi kontekstdə necə qiymətləndirmək olar?

## Rusiya–Ukrayna müharibəsi

Artıq aydındır ki, bu müharibə hələ uzun sürəcək. Tərəflər bir-birini gücdən salmaqda davam edəcəklər. Ukrayna Rusiyaya qarşı keçirdiyi və dünyada əks-səda yaradan son hərbi əməliyyatdan sonra, hərbi aktivlik başqa formaya keçmişdir. Bəlkə də müəyyən dairələrin gözlədiyi kəskin savaş ssenariləri alınmadı. Ancaq Ukrayna tərəfinin tətbiq etdiyi qarşı tərəfin infrastrukturunu havadan zərbələrlə sarsıtmaq metodu böyük maraq yaratmışdır. İndi Rusiyanın analoji fəaliyyətə hazırlaşdığı haqqında informasiyalar alınır. Deməli, Rusiya-Ukrayna cəbhəsində fəallığın nisbi azalması əslində, bir müddət sonra yeni gərginliyə hazırlıq təsiri bağışlayır. Bunun fonunda İsrail-İran toqquşması çox düşündürücüdür.

## İsrail–İran: qarşılıqlı hərbi zərbələr

Bu prosesin ümumi məntiqinə baxanda daha geniş miqyas və hərbi gücdə Ukraynanın Rusiyaya tətbiq etdiyi üsulu görürük. Dronların başqa ölkəyə pikaplarda və yük maşınlarında daxil edilməsi, onların geniş əraziyə yayılması, kəşfiyyatın dəqiq ünvanlarla çox gizli işləməsi və əsasən strateji hərbi obyektlərin hədəfə alınması oxşar ssenari təsiri bağışlayır. Lakin İsrailin məqsədi daha dərin və geniş məqamları əhatə edir. Tel-Əviv İranın nüvə hazırlamaq potensialını tamamən məhv etmək məqsədini qarşıya qoymuşdur. Rusiyaya qarşı belə bir məqsəd qoyulmur. Hindistan-Pakistan toqquşmasında da nüvə potensialını məhv etməkdən söhbət getmir. Deməli, elə bir siyasi və geosiyasi məqam vardır ki, İsrail-İran toqquşmasının mahiyyətini fərqli edir.

Aydın olur ki, nüvə silahına malik olan dövlətlərin böyük əksəriyyəti İranın da həmin silahlara malik olmasını arzulamırlar. Burada Çinin nə düşündüyü bizə tam aydın deyildir. Ancaq Pekinin Tehranı dəstəklədiyi haqqında informasiyalar yayılır. Lakin İsrail rəhbərliyinin Qərbdə nüvə gücü olan dövlətlərin başçıları ilə müzakirələrindən bir ümumi nəticə çıxır – onların hamısı İrana “məsləhət” görürlər ki, nüvə silahı hazırlamaq planlarından əl çəksin və ABŞ ilə danışıqları davam etdirsin. Bunların fonunda İsrail-Fələstin qarşıdurması “xırda məsələ” kimi görünür.

İndi vurğuladığımız məqamları geosiyasi kontekstdə ümumiləşdirə bilərik.

## Ənənəvi hegemonluğun saxlanması

Bir qrup dövlət əsrlərdir ki, özləri üçün təmin etdikləri geosiyasi hegemonluğu saxlamaq uğrunda ciddi savaşa girişmişlər. Onlar əsasən Qərb dövlətləridirlər. Başda ABŞ olmaqla həmin dairələr Çin və Rusiyanın qlobal rolunu özləri bildiyi kimi müəyyən etməyə çalışırlar. İranı isə qətiyyən öz sıralarında görmək istəmirlər. Bu prosesə Rusiya hələ ciddi müqavimət göstərə bilmir. Türkiyə o səviyyədə güclənməmişdir. Çin isə hələ aktiv müqavimət üsuluna keçməmişdir. Bəlkə də uğurlu ola biləcəyinə əmin deyildir.

Fakt ondan ibarətdir ki, başda ABŞ olmaqla müəyyən güclü dairələr diplomatiya ilə sərt güc tətbiqini növbələyərək istədiklərinə nail olmağa çalışırlar. Bu cür yanaşma xeyli dərəcədə Henri Kissincerin realizmlə idealizmi, yumşaq güclə sərt gücü sintez etməyi nəzərdə tutan yanaşmasının təsdiqi kimi görünür.

Yekun mənzərə isə daha qeyri-müəyyən görünür. Qlobal miqyasda strateji rəqabət hərbi toqquşma mərhələsinə keçməkdədir. Bu tendensiyanın əhatə dairəsi genişlənir və daha dağıdıcı xarakter alır. Mümkündür ki, belə bir şəraitdə dünya təhlükəsizlik sistemi tamamilə çöksün və qlobal nizamın formalaşmasına olan ümidlər puç olsun. Eyni zamanda, burada bir sıra faktorlar vardır ki, onların kompleks təsiri situasiyanı kəskin dəyişə bilər. Bəşəriyyət tam ümidsiz deyildir.

Məsələnin kökü onunla bağlıdır ki, ən qüdrətli hərbi gücə malik dövlət, dövlətlər qrupu və hətta alyanslar XXI əsrdə ənənəvi hegemonluqlarını saxlamaqda ciddi problemlərlə üzləşə bilərlər və indi üzləşirlər də. Hazırda Amerikanın olduqca qüdrətli hərbi gücə malik obrazı geniş yayılsa da, dərindən aparılan analizlər və XXI əsrin geosiyasi özəllikləri real vəziyyətin daha geniş kontekstə malik olduğu gerçəkliyini ortaya qoyur. Bu prizmada indi Rusiya, Ukrayna və ya İranın acizlik kimi görünən durumları aldadıcı ola bilər. Belə bir tezisi əsaslandırmaq üçün arqumentlər vardırmı?

## Çoxqütblülük şəraitində gücün paylanması

İndi strateqlər əmindirlər ki, bütövlükdə dünyanın qəbul etdiyi “ən böyük güc” anlayışı yoxdur. Bu vəziyyəti geosiyasi çoxqütblülük yaratmışdır. Buna görə də, Amerikanın XXI əsrin üçüncü onilliyində qeyd-şərtsiz yeganə ən qüdrətli hərbi güc olması və bu əsasda dünyanı yenidən “geosiyasi dizayn” etmək imkanına malik olması tezisi əsaslı görünmür. Bu məqamda doğrudan da dünya miqyasında maraqlı situasiya yaranmışdır.

Tədqiqatçılar onun başlanğıcını XX əsrin 70-ci illərində beynəlxalq münasibətlərin neorealist təliminin görkəmli nümayəndəsi, amerikalı Kennet Uoltsun “çoxqütblülük” anlayışını daxil etməsi ilə əlaqələndirirlər. Neorealistlərə görə, beynəlxalq arenada dövlətin davranışını onun maraqlarından çox mövcud dünya nizamının strukturu müəyyən edir. Məhz dünya düzəninin struktur özəlliyi istənilən dövlətin maraqları və strategiyalarının sərhədlərini formalaşdırır. Geosiyasi güc isə struktur vahidi kimi böyük fövqəldövlətlər arasında güc potensiallarının paylanması əsasında yaranır.

Bu məntiqlə çoxqütblülük bir neçə böyük dövlətin və ya onların alyanslarının güclərinin təmərküzləşməsini ifadə edir. Həmin səbəbdən geosiyasi strukturun çoxqütblü olması maksimum dərəcədə strateji müxtəliflik (“variativlik”) əmələ gətirir. Belə alınır ki, çoxqütblülük şəraitində real olanı bir gücün hegemonluğu ilə deyil, bir neçə böyük dövlətlər arasında güclərin paylanması ilə bağlıdır. Bu da hər hansı dövlət üçün hərbi qüdrətin həlledici olmadığı nəticəsini çıxarmağa əsas verir.

Müasir dünyanın geosiyasi mənzərəsinin ən maraqlı aspekti həmin məqamdan başlayır. Konkret olaraq, XXI əsrdə “güclü fövqəldövlət kimdir?” sualı cavab tələb edir. Və yaxud “ən qüdrətli hərbi gücə malik dövlət dünya hegemonluğunu qalıcı və uzun müddətə təmin edə bilərmi?” kimi suallar ritorik deyildir.

Məsələn, yüksək hərbi texnologiyalara malik olan ABŞ, Çin və ya İsrail başqalarına öz maraqlarını hansı səviyyəyə qədər diqtə edə bilərlər? Bu baxımdan ABŞ-İsrail alyansı İranı (və ya başqa orta hərbi güc olan dövləti) tam məğlub edə bilərmi? Dünyanın çoxqütblü modeli bu suallara birmənalı müsbət cavab verməyə əsas yaratmır. Buna görə də yuxarıda qoyulan suallara substantiv aspektdə tutarlı cavab tapmağa ehtiyac yaranmışdır.

## XXI əsrdə kim güclüdür?

Neorealistlər XX əsrdə hesab edirdilər ki, dövlətin əsas gücü hərbi qüdrətindədir. Lakin iqtisadiyyat və insan kapitalının inkişafı kimi faktorların dövlətin fəaliyyətində təsirlərinin yüksəlməsi ilə gerçək güc anlamı da dəyişməyə başladı. Güclü hərbi potensiala malik olan SSRİ-nin dağılması bu baxımdan dünya üçün bir nümunə oldu. Sovetlərin iqtisadi aspektdə başqa fövqəl hərbi güclərdən xeyli geridə qalması onu sonunda sıradan çıxardı. Ayrıca, SSRİ-də insan kapitalı sırf ideoloji kontekstdə dərk edilirdi. Hətta bir sıra dönəmlərdə kommunist olmayan cəmiyyət üçün insan sayılmırdı.

Deməli, dövlətin real gücü iqtisadi imkanları və insan resursları ilə sıx bağlıdır. İnsanın inkişaf resursları geniş olmayan dövlət yekunda əsl güclü dövlət ola bilmir. Bu bağlılıqda dövlətin müxtəlif sahələr üzrə təhlükəsizliyi məsələsi birbaşa milli təhlükəsizliyin tərkib hissələri kimi çıxış edir. O halda dövlətin milli təhlükəsizliyini yalnız hərbi qüdrət təmin etmir. Hər şeydən öncə, insan kapitalı, insan resursu nəzərə alınmalıdır. Bu istiqamətdə fikirlərə davam etsək, belə qənaət ala bilərik ki, dövlətin enerji resursu olduqca böyük əhəmiyyət daşıyır.

Beləliklə, birincisi, XXI əsrdə dövlətin gücü yalnız hərbi qüdrətlə məhdudlaşa bilməz, ikincisi, insan kapitalı və ya insan resursu daha böyük əhəmiyyət daşıyır, üçüncüsü, dövlətin enerji resursları təhlükəsizliyin təmini baxımından strateji əhəmiyyət kəsb edir, dördüncüsü, enerji təhlükəsizliyi milli təhlükəsizliyin başlıca faktoruna çevrilir.

Belə bir mənzərə indi müşahidə edilən geosiyasi toqquşmalara fərqli bucaq altında baxmağa imkan verir. Bunu müasir mərhələdə “strateji geosiyasi rəqabət” ifadəsinin məna çalarlarından da görmək olar.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının MƏLUMATI

Beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası (Dövlət Komissiyası) Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində əsir və girov götürülmüş vətəndaşların azad edilməsi, itkin düşmüş şəxslərin axtarışı sahəsində Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Respublikasındakı Nümayəndəliyi ilə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərmişdir.

Münaqişənin əvvəlindən etibarən əsir-girov götürülmüş vətəndaşların və itkin şəxslərin ailə üzvləri hər iki qurum tərəfindən qəbul edilmiş, onların müraciətləri və qaldırdığı məsələlərə baxılmış, zəruri tədbirlər görülmüş, siyahıların dəqiqləşdirilməsi və informasiya mübadiləsi aparılmış, ailələrə, o cümlədən əsir-girovluqdan azad edilmiş şəxslərə sosial və psixoloji dəstək göstərilmişdir.

BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin ölkəmizdə fəaliyyətini yaxın vaxtlarda dayandırması ilə bağlı itkin düşmüş vətəndaşların ailələrinin diqqətinə çatdırırıq ki, itkin düşmüş vətəndaşlarımızın taleyinin müəyyən edilməsi üçün Dövlət Komissiyası və aidiyyəti dövlət qurumları tərəfindən təxirəsalınmaz zəruri tədbirlər görülür, o cümlədən işğaldan azad edilmiş ərazilərdə axtarış, qazıntı və ekshumasiya işləri, aşkarlanmış meyit qalıqlarının eyniləşdirilməsi və şəxsiyyəti müəyyən edilmiş itkin-şəhidlərin nəşlərinin ailələrinə təhvil verilməsi işi bundan sonra da intensiv aparılacaqdır.

Bildiririk ki, Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hər zaman olduğu kimi, vətəndaşların müraciətlərinə baxılır, onlarla gündəlik təmaslar və İşçi qrupunda qəbullar davam etdirilir.

İtkin düşmüş yaxınları ilə bağlı məlumatların alınması, həmçinin onlara dair müvafiq materialların, ərizə və müraciətlərin təqdim edilməsi üçün vətəndaşlar info@human.gov.az elektron poçt ünvanı, 010-232-33-77 mobil telefon nömrəsi və 81-61 qaynar xəttindən istifadə etməklə İşçi qrupu ilə əlaqə saxlaya bilərlər.

Dövlət Komissiyasının İşçi qrupu Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 1 ünvanında yerləşir.

**17 iyun 2025-ci il**

## 18 iyun Azərbaycanda İnsan Hüquqları Günüdür

**Bəzən tarixin bir günü sükutla keçir, adını təqvimdə görsək də, onun mənasına varmırıq. Amma bəzən də bir gün özü ilə bütöv bir fəlsəfə gətirir, xalqın yaddaşına, dövlətin ruhuna hopur. 18 iyun Azərbaycan üçün məhz belə bir günlərdən biridir. İnsanın layiq olduğu dəyəri, hüququnu, azadlığını və dövlətin bu hüquqlara yanaşmasını göstərən, cəmiyyətdə həmrəyliyi nümayiş etdirən bir gündür.**

Azərbaycanın müasir siyasi və hüquqi sistemində insan hüquqları təkcə bir prinsip deyil, bir yol xəritəsi, bir mövqedir. “İnsanı yaşat ki, dövlət yaşasın” - fəlsəfəsi təkcə şüar deyil, Azərbaycanın dövlətçilik ideologiyasının mayasıdır. Bu fəlsəfə dövlət idarəçiliyinə, qanunvericilik proseslərinə, sosial siyasətə və beynəlxalq münasibətlərə qədər hər sahəyə sirayət edib.

hüququn cəmiyyətin həyatına daha dərin sirayət etməsi üçün geniş tədbirlər, maarifləndirici layihələr və ictimai dialoqların başlanğıcı oldu. 2011-ci ildə qəbul edilən yeni Milli Fəaliyyət Proqramı bu çərçivəni daha da genişləndirdi. Xüsusilə qadınlar, uşaqlar, əlillər, qaçqın və məcburi köçkünlər kimi əhalinin həssas qruplarının hüquqlarının müdafiəsinə dair konkret tədbirlər nəzərdə tutuldu. Bu

# Dövlət ədalətlə, cəmiyyət ləyaqətlə yüksəlir



1998-ci il bu baxımdan dönüş nöqtəsi oldu. Ümummilli lider Heydər Əliyevin imzaladığı “İnsan və vətəndaş hüquqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərman və həmin il təsdiqlənən “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” hüququ dövlətin təməl prinsiplərindən birinə çevirdi. Bu proqram təkcə normativ sənəd deyildi. Bu, hüquqa dəyər verən vətəndaş cəmiyyəti qurmaq istəyinin ideoloji əsasına çevrildi. Hüquqi islahatlar, beynəlxalq konvensiyalara qoşulmaq, vətəndaşların hüquqi maarifləndirilməsi, hüquq institutlarının müasirləşdirilməsi istiqamətində mühüm addımlar məhz bu illərdə atıldı.

Azərbaycan hüquq sahəsindəki islahatları sistemli şəkildə davam etdirdi. 2001-ci ildə “İnsan Hüquqları üzrə Müvəkkil haqqında” Konstitusiya Qanununun qəbul olunması və 2002-ci ildə Ombudsman təsisatının yaradılması insanla dövlət arasında yeni ünsiyyət körpüsü saldı. **Bu barədə XQ-yə danışan hüquqşünas Samir Osmanlı** bu təsisatın təkcə şikayətləri dinləmək üçün deyil, həm də vətəndaşın səsini dövlətin qulağına çatdırmaq, susanların adından danışmaq, görünməyən haqsızlıqları üzə çıxarmaq, vətəndaşı qorumaq üçün yaradıldığını vurğuladı: “Bu gün Ombudsman – hüququn səsi, ədalətin tərəfdarı kimi çıxış edir. Azadlıqdan məhrumetmə yerlərinə baş çəkməsi, işgəncələrə qarşı mübarizə aparması, sosial müdafiəyə ehtiyacı olan qrupların hüquqlarının qorunması, informasiya əldə etmək azadlığının təmin olunması – bütün bunlar ombudsmanın gündəlik fəaliyyətinin bir parçasıdır. Bu fəaliyyət vətəndaşla dövlət arasında etimadı, inamı və hüquqi ədalətə bağlılığı artırır”.

2006-cı ildə Prezident İlham Əliyevin imzaladığı “İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” hüquqi dövlət quruculuğunda yeni mərhələnin başlanğıcını qoydu. Bu plan insan hüquqlarının müdafiəsini dövlət siyasətinin ayrılmaz hissəsi kimi müəyyənləşdirdi. Vətəndaş cəmiyyətinin inkişafı, hüquqi maarifləndirmənin gücləndirilməsi, məhkəmə sisteminin təkmilləşdirilməsi, idarəetmədə şəffaflığın artırılması bu sənədin əsas istiqamətləri idi.

2007-ci ildən isə 18 iyun Azərbaycanda İnsan Hüquqları Günü kimi rəsmi şəkildə qeyd olunmağa başlandı. Hər il bu tarix ətrafında keçirilən “İnsan Hüquqları Aylığı”

yanaşma bir daha sübut etdi ki, insan hüquqları yalnız kağız üzərində deyil, real həyatda, gündəlik münasibətlərdə və sosial siyasətdə əks olunur.

“Azərbaycanın insan hüquqları siyasəti beynəlxalq əməkdaşlıqla sıx şəkildə bağlıdır. 1998-ci ildə BMT ilə imzalanmış birgə layihə haqqında Memorandum, Avropa Şurası və ATƏT kimi beynəlxalq qurumlarla əməkdaşlıq, insan hüquqları üzrə hesabatlılıq və monitorinq sistemlərinin təkmilləşdirilməsi ölkəmizin bu sahədəki qlobal yanaşmasının tərkib hissəsidir. 2017-ci ildə penitensiar sahədə qəbul edilən fərmanla cəza siyasətinin humanistləşdirilməsi, azadlıqdan məhrumetmə tədbirlərinin alternativ variantlarla əvəzlənməsi hüquqi islahatların insan mərkəzli xarakter daşıdığını göstərdi. Ədalətli cəza sistemi təkcə cəzanın tətbiqi deyil, həm də reabilitasiya və sosial reinteqrasiya məqsədi güdür” – deyən S.Osmanlı qeyd etdi ki, bu gün Azərbaycanın hüquqi sistemi insan hüquqlarının müdafiəsi üçün həm milli, həm də beynəlxalq standartlara cavab verən baza ilə təmin olunub: “Ancaq hüquq yalnız qanunlar məcmusu deyil – hüquqi düşüncədir, əxlaqdır, vətəndaş məsuliyyəti və ləyaqətdir. Hüquq bizə təkcə danışmaq azadlığını yox, haqsızlığa qarşı danışmaq məsuliyyətini də verir.



Hüquq düşünmək haqqı ilə yanaşı, vicdanla davranmaq və başqasının haqqına toxunmamaq borcunu da doğurur”.

Hüquqşünas sonda onu da bildirdi ki, hüququn qorunduğu, azadlıqların təmin olunduğu bir cəmiyyət həm sabit, həm güclü, həm də ləyaqətli cəmiyyətdir: “18 iyun bizi bu həqiqətlə üzləşdirir. Güclü dövlət – vətəndaşının hüquqlarını tanıyan, onu qoruyan, onun yanında olan dövlətdir. Azərbaycan bu anlayışı illər ərzində praktikaya çevirmiş və hüququn səsini dövlət idarəçiliyinin hər qatında eşidilən çağırışa çevirmişdir”.

Bəli, İnsan Hüquqları Günü, sadəcə bir tarix deyil. O, azad cəmiyyətin, hüquqi dövlətin və ləyaqətli həyatın simvoludur. O, insan üçün yaradılan dövlət modelinin, hüququn səsinin və Ali ədalətin nəfəsinin çağırışıdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Bakı–İrəvan münasibətləri və ATƏT(sizlik)

## *Minsk qrupu çoxdan "ölü can"a çevrilib*

**Doğrudur, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan finlandiyalı həmkarı, hazırda ATƏT-in fəaliyyətdə sədri olan Yelina Valtonenlə telefon danışığı zamanı Minsk qrupunun adını tutmayıb. Hər halda, telefon danışığı ilə bağlı erməni mediasının ölkə XİN-ə istinadən yaydığı məlumatda belə bir məqam yoxdur. Amma...**




Beləliklə, erməni XİN rəhbəri ATƏT sədri ilə regional məsələlər ətrafında fikir mübadiləsi apararkən, Ermənistan və Azərbaycan arasında nizamlanma prosesindəki son müzakirələri, o cümlədən sülh müqaviləsinin imzalanması səylərini təqdim edib. Məhz buna "əmma" prizmasından yanaşmaq mümkündür. Mirzoyanın Valtonenə telefon zəngi etməsinə də həmçinin.

Qeyd edək ki, Mirzoyanla Valtonen arasında telefon danışığı, istər-istəməz, diqqəti Azərbaycanın bütün bəndləri razılaşdırılmış sülh müqaviləsi ilə bağlı irəli sürdüyü şərtlərə yönəldir. Söhbət konkret olaraq ATƏT-in Minsk qrupunun ləğvi şərtindən gedir. Rəsmi Bakı tələb edir ki, Ermənistan sözügedən təsisatın fəaliyyətinin rəsmən dayandırılması üçün Azərbaycanla birgə müvafiq müraciət ünvanlasın. Qarşı tərəf bildirir ki, belə bir müraciət yalnız sülh müqaviləsinin imzalanması ilə eyni vaxtda ola bilər. Ölkəmiz isə məsələnin qoyuluşu ilə razı deyil.

Məlum olduğu kimi, ATƏT-in Minsk qrupu uzun illər, guya, Azərbaycan və Ermənistan arasındakı münaqişəli durumun aradan qaldırılması istiqamətində fəaliyyət göstərirdi. Ölkəmizin ictimaiyyəti qrupun ABŞ-dan, Rusiyadan və Fransadan olan həmsədrlərinin torpaqlarımızın işğalı müddətində regiona çoxsyalı səfərlərini yaxşı xatırlayır. O da məlumdur ki, həmin səfərlər heç bir fayda vermirdi. Üstəlik, Minsk qrupu vasitəçilərinin Azərbaycan və Ermənistan liderlərinin dünyanın müxtəlif bölgələrində təşkil etdikləri görüşlər yalnız siyasi dekorasiyaya hesablanırdı.

Rəsmi Bakı bütün bunları görür və bəyan edirdi ki, danışıqlar heç bir fayda verməyəcəyi təqdirdə, Azərbaycan öz torpaqlarını istənilən yolla işğaldan qurtaracaq. Belə bəyanatlar veriləndə isə Minsk qrupunun təmsilçilərinin sözləri bu olurdu: Münaqişənin hərbi həll yolu yoxdur. Hələ ATƏT sədrinin Anjey Kasprşik adlı xüsusi nümayəndəsi də var idi ki, bu şəxsin uzun müddət qoşunların təmas xəttində mənasız monitorinqlər keçirməklə, loru dildə desək, evinə çörək apardığını görmüşdük.

Amma ATƏT-in Minsk qrupunun artıq keçmişdə qalmış Qarabağ münaqişəsinin "həlli" ilə bağlı bəlli "planı" olub. Bu təsisat mənasız görüşləri sıralamaqla vaxt uzadırdı. Vaxt uzadırdı ki, nəsillər dəyişsin və beləliklə, Qarabağ və işğalda qalmış digər ərazilərə dair düşüncə Azərbaycan xalqının yaddaşından tamamilə silinsin. Başqa hansı planı qurmaq olardı ki? Beynəlxalq hüququn Azərbaycanın tərəfində olduğu bir vaxtda yalnız belə bir yolla vaxt udub işğalı leqallaşdırmaq, ona hüquqi don geydirmək mümkün idi...

Azərbaycan 44 günlük müharibə ilə bütün məkrli planları, o cümlədən, ATƏT-in Minsk qrupu vasitəsilə qurulmuş Qarabağ münaqişəsinin həlli "ssenarisini" tamamilə pozdu. Lakin biz müharibədən sonra da erməni tərəfinin və havadarlarının bu təsisatı dirçəltmək niyyətlərinin şahidi olduq. Elə Mirzoyanın özünün Minsk qrupunun danışıqlarda vasitəçilik etməsinə dair fikirləri az olmayıb. Rəsmi Bakı prinsipial mövqeyi ilə belə cəhdlərin qarşısını aldı, Minsk qrupu tam ölü təsisata çevrildi. Amma, belə demək mümkünsə, bıçağı ölmüş öküzün üstündə qoymaq olmaz. Azərbaycan dövlətinin yanaşması budur. Ölkəmizin Minsk qrupunun rəsmən ləğvi tələbi də mövcud yanaşmadan qaynaqlanır.

Bəli, ATƏT-in Minsk qrupunun fəaliyyəti rəsmən dayandırılmalıdır ki, Ermənistan və Azərbaycan arasında münaqişəli ərazi məntiqi tarixin zibilliyinə göndərilsin. Ermənistan dövləti qrupun ləğvinə imza atmalıdır ki, işğalı leqallaşdırmaq niyyəti güdən təsisat qalmasın. Yəni, bununla rəsmi İrəvan ərazi iddiasından geri durduğunu yazılı şəkildə bildirməlidir. Ermənistanın ATƏT-in Minsk qrupunun ləğvinə rəsmən qol qoyması həm də ölkənin siyasi, diplomatik və hərbi miqyaslı Qarabağ məğlubiyyətinin daha bir göstəricisi, etirafı olmalıdır.

Ancaq əvvəldə də bildirdiyimiz kimi, Ermənistan Minsk qrupunun yalnız sülh müqaviləsinin imzalanması ilə eyni vaxtda ləğvini əsas götürür. Daha doğrusu, rəsmi İrəvanın təmsilçiləri bildirirlər ki, sözügedən təsisatın ləğvi üçün birgə müraciət sülh müqaviləsinin imzalanması ilə eyni vaxtda ünvanlana bilər. Ən böyük səmimiyyətsizlik də elə budur.

Erməni tərəfinin yanaşmasında hiylə var. Baş nazir Nikol Paşinyan əvvəllər sülh müqaviləsinin mətnində tərəflərin bir-birilərinə qarşı heç bir ərazi iddiası irəli sürməmələri ilə bağlı müddəanın mövcudluğunu və bu səbəbdən Azərbaycanın Minsk qrupunun qalmasından ehtiyatlanmamalı olduğunu bildirirdi. Yəni bu, qrupun ləğvindən tamamilə boyun qaçırmaq idi. Lakin sonradan erməni iqtidarı Azərbaycanın məsələyə prinsipial münasibətini gördü.

Ölkəmizin prinsipiallığını şərtləndirən cəhətlər var. Heç kəs ATƏT-in Minsk qrupunun sülh müqaviləsi imzalandıqdan sonra ləğv ediləcəyinə təminat verə bilməz. Hər halda, rəsmi İrəvanın və havadarlarının münaqişə məntiqini saxlamaq üçün dəridən-qabıqdan çıxdıqlarını görmüşük. Onlar ATƏT rəhbərliyinə təsir göstərib Azərbaycanın və Ermənistanın sülh müqaviləsinin imzalanması ilə eyni vaxtdakı birgə müraciətinin nəzərə alınmamasına nail ola bilərlər. Amma sülh müqaviləsinin imzalanmasından əvvəl belə bir manipulyasiyaya getmək mümkünsüzdür.

Deməli, Ermənistana qarşı təzyiqi gücləndirmək lazımdır. Lazımdır ki, ölkə Azərbaycana və ümumilikdə qonşularına qarşı ərazi iddiasını gömsün. Nəzərə alaq ki, ölkəmizin sülh müqaviləsinin imzalanması ilə bağlı daha bir şərti də Ermənistanı avantüradan daşındırmaq məqsədi daşıyır. Söhbət Ermənistan konstitusiyasına dəyişiklik, sənədin ölkənin İstiqlaliyyət Bəyannaməsinə istinad kazusunun aradan qalxmasından gedir. O bəyannamə ki, orada "Dağlıq Qarabağ Muxtar Vilayəti" sözü işlədilir, Ermənistan Respublikasında olmayan ərazi vahidinin adı çəkilir.

Sonda onu da vurğulayaq ki, Mirzoyan, yaxud hansısa digər erməni rəsmisi sülh prosesi ilə bağlı həssaslığı nəzərə almalıdır. Həssaslıq isə ilk növbədə prosesi hansısa xarici müstəviyə daşımamaqla assosiasiya olunan reallıqdır. ATƏT müstəvisi isə ümumiyyətlə yolverilməzdir. Çünki bu qurum müasir dövrün Azərbaycan-Ermənistan münasibətləri sistemində mənfi reputasiyaya malikdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# Paşinyan–kilsə davasına diaspor da qoşulur

## *Dövlət–din qarşıdurması Ermənistanın sərhədini aşır*

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edilir ki, N.Paşinyanın katolikos və Erməni Apostol Kilsəsi ilə bağlı paylaşımlar etməyi dayandırmasından və səhərlər artıq məzmurlar (iudaizm və xristianlıqda lirik dua poetik nümunələri, ruhani nəğmələr–S.H.) oxumamasından 5 gün keçməsinə baxmayaraq, kilsəyə qarşı kampaniyanı başa çatmış hesab etmək olmaz. Hakimiyyətə yaxın mənbələrdən alınan məlumata görə, bu susqunluq, sadəcə, görüntü xarakterlidir: hakimiyyət kilsəyə qarşı işini gizli davam etdirir, lazımi məlumatlar, faktlar, ittihamedici sübutlar toplayır, taktika işlənilir. Passivlik isə regiondakı qeyri-sabitliklə və İranla İsrail arasındakı münaqişə ilə bağlıdır.

### Kilsə təxribatçı əməllərindən qalmır

Yazıda bildirilir: "Paşinyan dərk edir ki, cəmiyyət, xüsusilə, bu günlərdə kilsəyə açıq hücumu bağışlamayacaq. Ona görə də hücumu davam etdirmək üçün "suların durulmasını" gözləməyə üstünlük verir. Kilsə də öz növbəsində çağırışı qəbul etdi: bir gün əvvəl "dəyirmi masa" təşkil olundu və orada yüksək rütbəli din xadimləri, eləcə də siyasi və ictimai xadimlər Paşinyanın bəyanatlarını təhlil edərək onlara sərt qiymət verdilər".

Qeyd edək ki, tarixən erməni və Azərbaycan xalqları, eləcə də haylar və türklər arasında nifaq salınmasında, ədavətin qızışdırılmasında müstəsna rol oynayan kilsə təxribatçı əməllərindən qalmır. İyunun 16-dan 22-dək kilsənin iqtmətgahında – Eçmiədzində "Ararat həftəsi"nə həsr olunmuş təntənəli tədbirlərin keçirilməsi bunun göstəricisi sayıla bilər. Həftə iyunun 22-də katedral kilsədə bayram liturgiyası ilə başa çatacaq. Sonda "Müqəddəs Eçmiədzin taxtının toxunulmazlığı və əbədi nuru üçün" arzu-diləklər səslənəcək.

### Rusiyalı biznesmen II Qareginə açıq dəstək verdi

Rusiyada yaşayıb fəaliyyət göstərən biznesmen, "Taşir" şirkətlər qrupunun sahibi Samvel Karapetyanın kilsəyə və katolikosa verdiyi dəstək də diqqətdən yayınmır. O, "Nyus.am"a açıqlamasında Ermənistan hakimiyyətinin bütün ermənilərin katolikosuna qarşı atdığı addımlardan danışıb: "Ermənistanın, erməni kilsəsinin bir neçə minillik (?) tarixini unudaraq kiçik bir qrup erməni kilsəsinə, erməni xalqına hücum edibsə, mən hansı fikirdə ola bilərəm?! Mən həmişə erməni kilsəsinin və erməni xalqının tərəfində olmuşam. Ona görə də hadisələrdə birbaşa iştirak edəcəm. Əgər siyasətçilər buna nail olmasalar, biz öz qayda-qanunlarımızla bütün bunlarda iştirak edəcəyik".



Onu da qeyd edək ki, kadrlardan S. Karapetyanın müsahibə zamanı kilsənin iqamətgahının həyətində olduğu görünür. Bu isə biznesmenin Rusiyadan bu məsələlərlə əlaqədar Ermənistana gəldiyini göstərir.

Beləliklə, aydın olur ki, Ermənistanda siyasi və dini institutları arasında münasibətlər gərgin olaraq qalmaqdadır. Paşinyanın sosial şəbəkələrdə susqunluğu hökumətin geri çəkilməsi kimi deyil, daha çox "siyasi pauza" kimi izah oluna bilər. Yəni, bu, nə geri çəkilmədən, nə də kilsə ilə barışmaq niyyətindən xəbər verir. Bu, həm də hökumətin uzunmüddətli planlarının hələ də gündəmdə olduğuna işarədir. Katolikosun taxtdan getməsi ilə bağlı məsələnin ciddi siyasi-ideoloji çəkişmənin tərkib hissəsi kimi qiymətləndirilməsi mümkündür. Görünən sakitlik isə, əslində, mübarizənin bitməsi deyil, yeni mərhələyə keçidinin işartısı ola bilər.

"Hraparak" qəzetinin yazdığı kimi, hakimiyyətin səssizliyi fonunda arxa planda kompromatlar toplanır, ittihamlar üçün zəmin hazırlanır. Bu, kampaniyanın formaca dəyişməsi, amma mahiyyətcə davam etməsi deməkdir. Təsadüfi deyil ki, bəzi mənbələr Paşinyanın paylaşımları və hətta səhərlər paylaşdığı məzmurlardan belə imtinasını taktiki gediş kimi qiymətləndirirlər. Regiondakı gərginlik, xüsusilə də İran–İsrail böhranı, görünür, Paşinyanı bir qədər ehtiyatlı davranmağa vadar edib. Amma bu o demək deyil ki, kilsə ilə bağlı planlar masa üzərindən yığışdırılıb. Əksinə, bu susqunluq daha sərt mərhələyə keçidin hazırlığı ola bilər.

"Hraparak"ın qeyd etdiyi sonuncu abzası təhlil edəsi olsaq deməliyik ki, bu məqam bir daha Paşinyanın yalnız taktiki səbəblərdən geri çəkildiyini göstərir. Cəmiyyətin, xüsusilə kilsəyə simpatiyası olan təbəqənin narazılığı baş nazirin manevr imkanlarını məhdudlaşdırır. Ona görə də prosesin emosional dalğası səngiyənədək gözləməyi üstün tutur. Amma bu, hücumdan imtina deyil. Bunu siyasi improvizasiya kimi də qiymətləndirmək olar. Kilsə isə geri addım atmır, əksinə, mövqeyini ictimai müzakirəyə çıxararaq müdafiəyə keçir. "Dəyirmi masa"da din, siyasət və cəmiyyət təmsilçilərinin sərt mövqeyi onu göstərir ki, qarşıdurma yeni fazaya qədəm qoyur. Yəni, qarşılıqlı sakitlik müvəqqəti və aldadıcıdır.

### Gərginliyin yeni fazası irəlidədir

Kilsənin "Ararat həftəsi" keçirməsi ilə bağlı yayılan məlumata gəldikdə isə demək lazımdır ki, bu məlumat Erməni Apostol Kilsəsinin öz siyasi və ideoloji təsir imkanlarını itirmək niyyətində olmadığını bir daha sübut edir. Tarixən erməni toplumunda kilsə təkcə dini yox, həm də milli kimliyin qoruyucusu kimi çıxış edib, amma bu rol çox vaxt təxribatçı istiqamətə yönəlib. Azərbaycan və türk xalqları ilə münasibətlərdə nifaq salmaqda onun payı danılmazdır. İndi isə Eçmiədzində təşkil olunan "Ararat həftəsi" həmin xəttin yeni ideoloji davamıdır. Bu tədbirlər sırf dini xarakter daşımır, eyni zamanda tarixi yaddaş və milli identiklik üzərindən siyasi mesajlar verir. "Müqəddəs Eçmiədzin taxtının əbədiliyi" kimi ifadələr dini romantizmdən çox, kilsənin təsir imkanlarının qorunmasına yönəlib. Belə mərasimlər eyni zamanda Paşinyan hakimiyyətinə cavabdır. Yəni, "kilsə buradadır və geri çəkilmək niyyətində deyil". Liturgiyanın bu qədər təntənəli keçirilməsi isə mövqelərin daha da sərtləşəcəyindən xəbər verir. Kilsə bu yolla həm daxili ictimai dəstəyini möhkəmləndirməyə çalışır, həm də siyasi mesaj verir. Bir sözlə, Eçmiədzin yenidən ideoloji cəbhəyə çevrilir.

Samvel Karapetyanın verdiyi açıqlama isə yanan ocağa benzin tökməyə bənzəyir və Ermənistanda kilsə ilə hakimiyyət arasındakı gərginliyin nə qədər dərin və mürəkkəb olduğunu göstərir. "Taşir" şirkətlər qrupunun sahibinin kilsəyə və katolikosa açıq dəstəyi, həmçinin hadisələrə birbaşa müdaxilə etmək niyyəti bu mübarizənin yalnız siyasi yox, həm də ictimai-dini təbəqələrdə geniş rezonansa malik olduğunu ortaya qoyur. Karapetyanın "kiçik qrup erməni" ifadəsi ilə hakimiyyətin kilsəyə hücumunu tənqid etməsi, bu qarşıdurmanın yalnız hökumət daxilindəki siyasi münaqişə olmadığını, həm də geniş kütlələrdə hiss olunduğunu göstərir. Onun Ermənistana səfəri və kilsə qarşısında çəkilən görüntüləri vəziyyətin nə qədər ciddi olduğunu vurğulayır. Bu həm də o deməkdir ki, diasporun aparıcı simaları da bu proseslərdə aktiv rol oynayır və məsələnin Ermənistan sərhədlərindən kənara çıxdığını göstərir. Karapetyanın siyasətçilərin bacarmadığı işi öz qaydaları ilə etməyə hazır olması isə həm də gələcəkdə daha kəskin qarşıdurmaların olacağına işarədir. Bu açıqlamalar Ermənistanda cəmiyyətin parçalanma riskini və dini institutların siyasi oyunlarda alət kimi istifadə edilməsinin nə qədər təhlükəli olduğunu göstərir. Belə vəziyyətdə gərginliyin yumşaldılması üçün konstruktiv dialoq və ortaq məxrəcə gəlmək xüsusi əhəmiyyət kəsb edir.

### Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

– Bu gün istər kilsə, istərsə də siyasi partiya və qruplar Ermənistanda Paşinyan iqtidarına alternativ sayıla bilməzlər. Məsələ ondadır ki, Hayastan cəmiyyəti fərdlərin ətrafında birləşən cəmiyyətdir. Yəni, bu cəmiyyət üçün ideya yox, fərdlər önəmlidir. İndi isə erməni diasporu və lobbisi dini ideologiyadan istifadə etməklə bu prosesi dəyişməyə çalışır. Hazırda erməni diasporu ilə kilsə müştərək oynayır. Onlar siyasi cameəni fərdlərin ətrafında birləşməkdən çıxararaq ideologiya ətrafında birləşdirmək siyasəti yürüdürlər. Hazırda bu proses gedir. Nə qədər uğurlu olub-olmayacağı ayrı mövzudur.

Bununla belə, hesab edirik ki, prosesin Ermənistan hakimiyyəti üçün ciddi qorxusu yoxdur. Amma Paşinyan iqtidarının narahat olduğu məqam bundan ibarətdir ki, bu proses yeni siyasətçilər, yeni liderlər yetişdirə bilər. Paşinyan da fərdlər ətrafında birləşən siyasi cameəni ideoloji əsaslara doğru itələyən prosesə özü nəzarət etmək istəyir.

Bu prosesin getməsi ilə yanaşı bölgədə baş verən proseslər Ermənistan üçün ciddi risklər formalaşdırır. Çünki İranın ən ehtiyat etdiyi qonşusu məhz Ermənistandır. Baxmayaraq ki, Tehranın İrəvanla yaxşı münasibətləri mövcuddur.

Yekun olaraq, qeyd edə bilərik ki, Ermənistan cəmiyyətində kilsə və hakimiyyət arasında gərginlik hələ qalmaqdadır. Paşinyanın taktiki susqunluğu prosesin sona çatması deyil, sadəcə mərhələli davamıdır. Kilsə öz mövqeyini möhkəmləndirmək üçün güclü ictimai dəstək əldə etməyə çalışır. Diasporun tanınmış simalarının məsələyə müdaxiləsi vəziyyətin mürəkkəb olduğunu göstərir. Bu qarşıdurmanın həlli yalnız katolikosun vəzifəsindən getməsi yolu ilə həllini tapa bilər. Əks təqdirdə ölkədəki parçalanma dərinləşəcək və gərginlik artmağa davam edəcək.

***Səxavət HƏMİD***
***XQ***

# AİB Azərbaycanın Orta Dəhliz səylərini dəstəkləyir

**Asiya İnkişaf Bankının (AİB) Cənubi, Mərkəzi və Qərbi Asiya üzrə vitse-prezidenti İnmin Yan Bakı səfəri çərçivəsində Azərbaycanın hökumət nümayəndələri ilə keçirdiyi görüşlərdə respublikamızın regional əlaqələrin, eləcə də ticarətin inkişafında mühüm rol oynadığını, Asiya və Avropa arasında vacib körpü olduğunu bildirib.**




O, eyni zamanda, AİB-nin Azərbaycanın Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramında fəal iştirakını alqışladığını və ölkəmizin Orta Dəhliz və Xəzər "Yaşıl" Enerji Dəhlizi təşəbbüslərinin gerçəkləşdirilməsi istiqamətində fəallığını dəstəklədiyini vurğulayıb. Görüşlər zamanı vitse-prezident Azərbaycanda iqtisadi artım perspektivlərini müzakirə edərək maliyyə sektoru və kapital bazarının inkişafı, özəl sektorun iştirakının genişləndirilməsi, regional əməkdaşlığın möhkəmləndirilməsi və rəqəmsal keçidə diqqət çəkib. AİB rəsmisi energetika, nəqliyyat, su təchizatı və kənd təsərrüfatı sahələrində əsas layihələrin iqtisadiyyatın şaxələndirilməsi və karbohidrogenlərdən asılılığın azaldılması baxımından əhəmiyyətini vurğulayıb. Bundan başqa son illər AİB-nin özəl sektorun maliyyələşdirilməsi vasitəsilə Azərbaycanda günəş enerjisinin inkişafına da fəal şəkildə sərmayə qoyduğunu diqqətə çatdırıb.

Xatırladaq ki, Azərbaycan 1999-cu ildə AİB-yə qoşulduğu vaxtdan bəri dövlət və özəl sektorları əhatə edən 145 layihə çərçivəsində nəqliyyat, energetika, dövlət sektorunun idarə olunması, səhiyyə, kənd təsərrüfatı və ticarətin maliyyələşdirilməsi sahələrində, ümumilikdə, 4,4 milyard ABŞ dolları məbləğində maddi dəstək alıb.

Hazırda dünya üzrə enerji, ticarət və nəqliyyat sistemlərində baş verən dəyişikliklər beynəlxalq logistik dəhlizlərin əhəmiyyətini daha da artırıb. Bu kontekstdə Orta Dəhliz kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) artıq Avropa ilə Asiya arasında strateji bir körpü rolunu oynamağa başlayıb.

Azərbaycanın coğrafi mövqeyi isə bu dəhlizin əsas halqalarından biri olmasını təmin edir. Bu səbəbdən ölkəmizin Orta Dəhlizin inkişafı istiqamətində atdığı addımlar beynəlxalq maliyyə institutlarının, xüsusən də AİB-nin diqqət mərkəzindədir.

Orta Dəhliz Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa istiqamətini əhatə edən multimodal nəqliyyat yoludur. Bu dəhliz Şimal və Cənub marşrutları ilə müqayisədə daha qısa və təhlükəsiz bir marşrut təklif edir. Regional və qlobal ticarət axınlarını sürətləndirməklə yanaşı, Orta Dəhliz ölkələrin iqtisadi inteqrasiyasını və logistika potensialını da artırır.

Azərbaycan Orta Dəhlizin əsas tranzit ölkəsi olaraq, infrastrukturun modernləşdirilməsi, rəqəmsallaşdırma və gömrük prosedurlarının sadələşdirilməsi kimi sahələrdə ciddi islahatlar həyata keçirir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı – Tbilisi – Qars dəmir yolu və "Bir pəncərə" sistemləri kimi layihələr bu strategiyanın əsas komponentləridir. Bu təşəbbüslər Azərbaycanın regionda nəqliyyat qovşağına çevrilməsinə əlverişli şərait yaradır.

AİB uzun illərdir ki, Azərbaycanda enerji, nəqliyyat və sosial sahələrdə mühüm layihələrə maliyyə dəstəyi göstərir. Bank Orta Dəhlizlə bağlı infrastrukturun genişləndirilməsi və modernləşdirilməsinə yönələn layihələrdə də fəal iştirak edir. AİB, həmçinin regionda "yaşıl" və davamlı nəqliyyat sistemlərinin qurulmasına önəm verir.

Son dövrlərdə AİB ilə Azərbaycan hökuməti arasında aparılan danışıqlarda Orta Dəhlizin tranzit imkanlarının artırılması, dəhliz boyunca rəqəmsal inteqrasiyanın gücləndirilməsi və ekoloji dayanıqlığın təmin edilməsi məsələləri xüsusi yer tutur. AİB nümayəndələri tərəfindən verilən açıqlamalarda Azərbaycanın bu istiqamətdə göstərdiyi səylər yüksək qiymətləndirilir.

AİB-in dəstəyi ilə həyata keçirilən bəzi layihələrə dəmir yolu infrastrukturunun təkmilləşdirilməsi, Xəzər dənizində liman imkanlarının artırılması və dəhliz boyunca dayanıqlı logistika mərkəzlərinin yaradılması daxildir. Bu layihələr Orta Dəhliz üzərindən daşınan yüklərin həcmini artırmaqla yanaşı, regional iqtisadi artımı da stimullaşdıracaq.

Bankın gələcəkdə Azərbaycanın Orta Dəhlizlə bağlı yeni təşəbbüslərinə texniki və maliyyə dəstəyi göstərməsi gözlənilir. Bu isə nəinki respublikamızın mövqeyini gücləndirəcək, həm də, ümumilikdə, regionda sülh, əməkdaşlıq və iqtisadi sabitliyə töhfə verəcək.

Orta Dəhliz XXI əsrin vacib nəqliyyat arteriyalarından birinə çevrilməkdədir. Azərbaycanın bu dəhlizin inkişafına verdiyi töhfə həm milli maraqlara, həm də regional əməkdaşlığa xidmət edir. AİB-nin bu səyləri dəstəkləməsi isə beynəlxalq tərəfdaşlığın nümunəsi olaraq mühüm əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq çərçivəsində həyata keçiriləcək layihələr təkcə Azərbaycanın deyil, bütün Avrasiya regionunun iqtisadi gələcəyinə müsbət təsir göstərəcək.

***Vaqif BAYRAMOV***
***XQ***

# Azərbaycana Çin yatırımı 900 milyon dollara çatıb

**Çinin ölkəmizdəki səfiri Lu Mey Azərbaycan–Çin (Quandonq) İqtisadi və Ticarət Əməkdaşlığı Konfransındakı çıxışında indiyədək ölkəsinin respublikamıza 900 milyon dollar investisiya yatırdığını bildirib. O, Azərbaycanın Çinə qoyduğu investisiyanın məbləğinin isə 300 milyon dollar təşkil etdiyini diqqətə çatdırıb. Səfir vurğulayıb ki, 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi 43,3 faiz artıb.**



İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev sözügedən konfransında çıxışı zamanı Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşı olduğunu, cari ilin yanvar-aprel aylarında iki ölkə arasında ticarət dövriyyəsinin 37 faiz artaraq 1,4 milyard dollara çatdığını bildirib.

E.Əliyev qeyd edib ki, Azərbaycanın ticarət və şərab evləri artıq Çinin Pekin, Şanxay, Urumçi, Tsindao, Çendu, Nankin və Çjantszyatsze şəhərlərində fəaliyyət göstərir. Azərbaycan Ticarət Evi Çinin məşhur e-kommersiya platforması olan "JD"də də fəallığı ilə diqqət çəkilr.

İqtisadiyyat nazirinin birinci müavininin sözlərinə görə, Çin şirkətləri ölkəmizdə geniş miqyasda təmsil olunurlar. Cari ilin may ayının 1-nə olan məlumata əsasən, Azərbaycanda 320-yə yaxın Çin şirkəti sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət sektorlarında fəaliyyət göstərir.

Hazırda iki ölkə arasında qeyri-neft sektorunda, xüsusən yüksək texnologiyalara və innovasiyalara, alternativ və bərpaolunan energetikaya yönəlmiş birbaşa investisiyaların cəlb olunması sahəsində birgə əməkdaşlığa dair danışıqlar aparılır.

E.Əliyev qeyd edib ki, göstərilən səylər nəticəsində Çin şirkətləri ilə sənaye, "yaşıl" enerji, nəqliyyat, kənd təsərrüfatı, İKT və ipəkçilik kimi sahələrdə birgə layihələr həyata keçirilir.

Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik ölkələrdəndir. Belə ki, respublikamızın bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır.

Ölkəmizin günəş və külək enerjisi potensialı ilə Çinin "yaşıl" texnologiyalar sahəsindəki təcrübəsi sinerji yaradaraq birgə layihələrin reallaşdırılması üçün əlverişli mühit formalaşdırıb. Bakıda keçirilən COP29 tədbiri çərçivəsində Azərbaycan aparıcı Çin şirkətləri ilə genişmiqyaslı günəş və külək enerjisi layihələri, enerji saxlama sistemləri və "ağıllı" şəbəkə infrastrukturunun inkişafını əhatə edən mühüm sazişlər imzalayıb. Həmçinin Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində Azərbaycanla Çin şirkət və qurumları arasında bərpaolunan enerji sahəsində əməkdaşlığa dair 6 sənəd imzalanıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Naxçıvan – İğdır qaz kəməri üzrə audit hesabatı

**İğdır-Naxçıvan qaz boru kəməri üzrə paralel auditin yekun hesabatları təqdim olunub. Bununla bağlı Naxçıvan şəhərində təqdimat mərasimi keçirilib. Təqdimatda Azərbaycan Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və Türkiyə Hesablama Məhkəməsinin sədri Mətin Yenərin rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak ediblər.**



Mərasimdə, həmçinin Milli Məclisin komitə sədrləri Azər Əmiraslanov və Sadiq Qurbanov, Dövlət Neft Şirkətinin vitse-prezidenti Elşad Nəsirov, Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov və digər rəsmi şəxslər də yer alıblar. Toplantı zamanı ali audit qurumları arasında həyata keçirilmiş paralel auditin nəticələri təqdim olunub, layihə çərçivəsində investisiya qoyuluşları üzrə əldə edilmiş nəticələr müzakirə edilib. Hesabatların əsas məqamları ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, paralel audit Azərbaycan Hesablama Palatası və Türkiyə Hesablama Məhkəməsi arasında 2022-ci ildə imzalanaraq yenilənmiş Anlaşma Memorandumu çərçivəsində həyata keçirilib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Bakıda QDİƏT PA-nın iclasları

**İyunun 17-də Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) 70-ci Büro və 65-ci Daimi Komitəsinin iclasları da keçirilib.**



Azərbaycan Milli Məclisinin sədri və QDİƏT PA-nın fəaliyyətdə olan sədri Sahibə Qafarova iclaslara sədrlik edib. O, müzakirələrin konstruktiv və məhsuldar olacağına, qəbul olunacaq qərarların təşkilatın gələcək fəaliyyətinə müsbət töhfələr verəcəyinə inamını ifadə edib.

Keçirilən müzakirələrdə QDİƏT PA-nın Baş Assambleyasının gündəliyi, həmçinin təşkilatın ötən dövr ərzindəki fəaliyyəti, növbəti dövrdə fəaliyyətinə dair məsələlər, bir sıra təşkilati məsələlər nəzərdən keçirilib və müvafiq qərarlar qəbul olunub.

*

**Həmin gün Azərbaycan paytaxtında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) Sosial və humanitar siyasət komissiyasının iclası da keçirilib.**

Quruma üzv ölkələrin parlament nümayəndə heyətlərinin iştirakı ilə keçirilən tədbirdə Milli Məclisi QDİƏT PA-da nümayəndə heyətimizin rəhbəri deputat Eldar Quliyev, üzvləri Eldar İbrahimov, Musa Quliyev və Səbinə Salmanova təmsil ediblər.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin və QDİƏT PA-nın Sosial və humanitar siyasət komissiyasının sədri Musa Quliyev gündəlikdə olan məsələlər barədə məlumat verib. O bildirib ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımızın əsas hədəflərindən biri birlikdə sosial rifahı yüksəltmək, insan ləyaqətini təbliğ etmək və heç kəsi kənarda qoymayan inklüziv cəmiyyətlər qurmaq üçün ortaq niyyətlərimizin həyata keçirilməsini təmin etməkdir.

İclasda "QDİƏT üzv dövlətlərində əlilliyi olan şəxslərin təhsilinin və məşğulluğunun artırılması üzrə cari təcrübə və strategiyalar" mövzusunda hesabat layihəsi nəzərdən keçirilib. Sonra eyni mövzuda tövsiyə qərarının layihəsinə baxılıb və sənəd səsə qoyularaq qəbul olunub.

***XQ***

# OPEC Fondu ilə Çərçivə Sənədi imzalanıb



**İqtisadiyyat Nazirliyi və Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) Beynəlxalq İnkişaf Fondu arasında əməkdaşlıq istiqamətlərinə dair Ölkə üzrə Tərəfdaşlıq Çərçivə Sənədi imzalanıb. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında məlumat verib.**

Nazir paylaşımımnda sənədin OPEC Beynəlxalq İnkişaf Fondunun Forumu çərçivəsində fondun prezidenti Əbdülhəmid Əlxəlifə ilə görüşdə imzalandığını qeyd edib. Onun sözlərinə görə, 2025-2030-cu illəri əhatə edən sənəd sənaye, bərpa olunan enerji, nəqliyyat, infrastruktur və digər sahələrdə dövlət və özəl sektor layihələrinin dəstəklənməsini nəzərdə tutur. Bu istiqamətdə həyata keçiriləcək təşəbbüslər iqlim maliyyələşməsi, inklüziv artım, kiçik və orta sahibkarlığın inkişafına töhfə verəcək.

"Fondun prezidenti Əbdülhəmid Əlxəlifə ilə görüşdə qarşılıqlı əlaqələrin ölkəmizin enerji sektorunun şaxələndirilməsinə töhfə verdiyini qeyd etdik. Bərpa olunan enerji, infrastruktur və texniki yardım sahələrində əməkdaşlıq imkanlarını müzakirə etdik", – deyə M.Cabbarov bildirib.

***XQ***

# Azərbaycan–Şimali Makedoniya enerji əməkdaşlığı müzakirəsi



**Energetika Nazirliyində energetika naziri Pərviz Şahbazov ilə Şimali Makedoniya Assambleyasının sədri Afrim Qaşinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.**

Görüşdə ikitərəfli münasibətlərin inkişaf perspektivləri, xüsusilə enerji sahəsində əməkdaşlığın dərinləşdirilməsi imkanları müzakirə olunub.

Son illərdə Azərbaycanla Şimali Makedoniya arasında siyasi və iqtisadi əlaqələrin, o cümlədən enerji sahəsində əməkdaşlığın inkişaf etdiyi vurğulanıb.

Söhbət zamanı Azərbaycan tərəfindən Avropa İttifaqı və üzv ölkələrlə həyata keçirilən enerji layihələri, o cümlədən Cənub Qaz Dəhlizi, "yaşıl enerji dəhliz"ləri və bərpaolunan enerji mənbələrinin inkişafı barədə məlumat verilib.

***XQ***

# İlbəil cavanlaşan xariqələr şəhəri

## Sumqayıt Azərbaycanın "Gənclər paytaxtı"dır



**Xəzərin sahilində, Abşeron yarımadasının şimalında qərar tutmuş Sumqayıt ölkəmizdə "gənclik şəhəri" kimi tanınan yeganə coğrafi ünvandır. İndi artıq 75 yaşı olsa da, Sumqayıt özünəməxsus aurasına – qaynar həyatına görə yenə də belə adlanır. Bu şəhərin xarakterinə tükənməz şövq, coşqu, canlanma xasdır. Şəhər onu sevənlərin, qoynunda pərvəriş tapanların əlləri ilə böyüyüb, gözəlləşib, müasirləşib. Sumqayıtlı gənclər ata-babalarından qəbul etdikləri estafeti layiqincə davam etdirir və şəhərin dinamizm ruhunu yaşadırlar. Təsadüfi deyil ki, 2025-ci ildə Sumqayıt Azərbaycanın "Gənclər paytaxtı" elan edilib.**

Bu layihə Azərbaycan Prezidentinin 2011-ci ildə imzaladığı Dövlət Proqramının müvafiq bəndinə əsasən reallaşdırılır. Məqsəd yerlərdə gənclərlə işin daha da canlandırılmasıdır. Qeyd edək ki, Avropa məkanında da "Gənclər Paytaxtı" seçmək təcrübəsi tətbiq olunur. Ötən il dekabrın 7-də Gənclər və İdman Nazirliyinin növbəti kollegiya iclasında səsvermə nəticəsində namizəd şəhərlərimiz arasından Sumqayıtın "paytaxt" seçildiyi açıqlanıb. Bu il fevralın 2-də – Azərbaycan Gəncləri Günündə Sumqayıtda layihənin təqdimatı keçirilib. Gənclər və idman naziri Fərid Qayıbov "Gənclər Paytaxtı"nın rəmzi açarını şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcova təqdim edib. Sonra layihənin loqosu və maskotu nümayiş etdirilib.




Mərasimdə "Sağlam düşüncə" Gənclər Təşkilatı İdarə Heyətinin üzvü, ADU-nun məzunu Vüqarə Əzizova da rəsmilərlə bərabər çıxış edib. Onun dedikləri:

– Doğrusu, çox həyəcanlı idim. Amma özümü tez toparlaya bildim və "Gənclər Paytaxtı" elan edilmiş Sumqayıtın sakini olmağımla fəxr etdiyimi söylədim. Söz verdim ki, yaşıdlarımla birlikdə etimadı əməli işlərimlə doğrultmağa çalışacağam. Həmin mərasimdə nazirliyin təsis etdiyi "İlin gənci" mükafatı, eləcə də ötən il fərqlənmiş dostlarıma Sumqayıt Şəhər İcra Hakimiyyətinin fəxri-fərmanları verildi. Az vaxt keçib, ancaq biz "Gənclər Paytaxtı" adına layiq olduğumuzu artıq sübut etməyə başlamışıq. İlin sonuna qədər də elə bu şövqlə davam edəcəyik.




Açılışdan sonrakı aylarda nazir Fərid Qayıbov bir neçə dəfə Sumqayıtda olub, Azərbaycan Gənclər və Tələbə Gənclər təşkilatlarının nümayəndələri ilə görüşüb. "Gənclər Paytaxtı"nda həyata keçiriləcək layihələr, gənclər düşərgələri, beynəlxalq təmsilçilik, süni intellektlə bağlı təşəbbüslər, gənclərin rəqəmsal bacarıqlarının inkişafı, karyera, könüllülük fəaliyyəti, biznes qurumları ilə əməkdaşlıq və digər məsələlər ətrafında müzakirələr aparılıb.

"Gənclər Paytaxtı"nda düzənlənən bir çox tədbir kütləviliyi, dinamikliyi və mütəhərrikliyi ilə diqqət çəkib. Məsələn, 200-ə yaxın iştirakçı ilə "Sumqayıt gənclik marafonu 2025", Beynəlxalq Velosiped Günü münasibətilə 70-dən artıq peşəkar və həvəskarın qatıldığı "Gənclərlə veloyürüş" xüsusilə cəlbedici olub.

Marafonda qalib gəlmiş Elnur Xələfov söhbət zamanı finişə 1-ci çatmasını təvazökarcasına təsadüf adlandırdı:

– Əlbəttə, kimsə bir başqası da qələbə qazana bilərdi. Məncə, belə yarışların əsas cəhəti budur ki, əslində, heç bir iştirakçı məğlub olmur. Ən başlıcası iştirakdır, ümumi ansamblda özünü görmək və sonadək mübarizə aparmaqdır. Bir də ki, "Gənclər Paytaxtı" adı altında çıxış etmək hər birimiz üçün böyük şərəf idi. Gəncliyi idmansız təsəvvür etmək mümkünsüzdür. Yaxşı ki, belə yarışlar keçirilir və bizə motivasiya verir.

İyunun 11-də Sumqayıtda Vətən müharibəsində əldə edilən Zəfərin 5 illiyinə həsr olunmuş XXVIII "Şahin" hərbi-idman oyununun respublika final mərhələsi keçirilib. Yarışma ümumilikdə 22 min məktəblini əhatə edib. Finalda 14 komanda sıra hazırlığı, darağa patronların doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, fiziki hazırlıq, maneələrin dəf olunması, tüfəngdən hədəfə atəş açılması, mülki müdafiə hazırlığı, çadırın qurulması və intellektual müsabiqə mərhələlərində gücünü sınayıb. Sumqayıt şəhər komandası 1-ci yerə layiq görülüb. Bağlanış mərasimində nazir Fərid Qayıbov, şəhər rəhbəri Zakir Fərəcov və Vətən Müharibəsi Qəhrəmanı Anar Mirzəyev çıxış ediblər. Sonra jurnalistlərə müsahibəsində Fərid Qayıbov deyib ki, bu yarış çoxçeşidli tədbirlərimizdən biridir və 1996-cı ildən keçirilir. "Hər bir regionun qalibləri bu gün final mərhələsində yarışdılar. Minlərlə məktəbli mübarizə apardı. Burada bir çox dövlət qurumları da iştirak edirdi. Prezident İlham Əliyevin vətənpərvərlik istiqamətində verdiyi tapşırıqları nəticəsində il ərzində müxtəlif yarışlar təşkil edirik".

Qeyd edək ki, yarışda Sumqayıt komandası qalib gəlib. Sabunçu 2-ci, Xaçmaz isə 3-cü olub. Qalib komandanın kapitanı – Təbiət Elmləri Gimnaziyasını bu il bitirən Kərəmcan Kərimlinin ürək sözləri:

– Sevinirəm ki, hərbi-vətənpərvərlik amallı yarışda qalib adını biz qazandıq. Axı, Sumqayıt əsl vətənpərvərlər, qəhrəmanlar şəhəridir. Birinci və İkinci Qarabağ müharibələrində şəhərimizin minlərlə yetirməsi döyüşlərə atılıb. Milli Qəhrəman, Vətən müharibəsi qəhrəmanı adı alan, orden və medallarla təltif olunan həmyerlilərimiz çoxdur. Şəhidlər Xiyabanında yüzlərlə igid gəncimiz uyuyur. Biz də Sumqayıtın adını ucaltmaqla onların ruhunu şad edirik.

"Gənclər paytaxtı"nın Şəhidlər Xiyabanı dənizkənarı parkın ərazisində yerləşir. Burada ucalan "Qalib Azərbaycan əsgəri" abidəsini hər bir sakin, xüsusilə də gənclər hər gün ehtiramla ziyarət edir, əbədi məşəlin önündə şəkil çəkdirir, məzarların üstünə gül dəstələri qoyur, şəhid ruhlarına dualar oxuyurlar. Xatırladaq ki, Buirinci Qarabağ müharibəsində Valeh Müslümov, Qorxmaz Eyvazov, Şükür Həmidov, Polad Həşimov Milli Qəhrəman, Adil İbrahimli, Anar Şükürov, Ramiz Cəfərov, Sübhan Cəbrayılov, Camal İsmayılov və Mehrab Niftəliyev Vətən Müharibəsi Qəhrəmanı kimi Sumqayıtın başını daha da ucaldıblar.

Burada əzəmətli Azərbaycan bayrağı hündürlüyü 30 metr olan dirəkdə dalğalanır. Ətrafı mərmərlə üzlənən fəvvarə kompleksi, 3 ədəd buta və Ay-ulduz formalı əbədi məşəl kompleksi yaradılıb. Rəmzi Zəfər ağacının budaqlarından şəhidlərin ad və soyadı yazılmış, doğum tarixi və sonsuzluq işarəsi qeyd olunmuş "yarpaq"– lövhəciklər asılıb. Ərazidə yaşıllıq örtüyü salınıb. İşıqlandırma sistemi müasirləşdirilib. Bütün bunların fonunda xatirə kompleksi daha əzəmətli təsir bağışlayır. Ziyarətçilərdən başqa, yeni ailə quran cütlüklərin də xiyabana gələrək abidə önünə gül dəstələri qoyması, əbədi məşəlin önündə şəkil çəkdirməsi gözəl bir ənənə halı alıb...

Şəhidlər Xiyabanından çıxıb parkın digər başındakı şəhər stadionuna yollanıram. Bu möhtəşəm idman kompleksi İkinci Dünya müharibəsinin qəhrəman partizanı Mehdi Hüseynzadənin adını daşıyır. Əfsanəvi "Mixaylo" Sumqayıtın yaxınlığındakı Novxanı kəndindən olub. Hələ bu şəhər yaranmazdan 31 il əvvəl qocaman Xəzərin sahilində dünyaya göz açıb və bu yerlərin övladlarına xas igidliyi ilə "Uzaq sahillərdə"n – İtaliya və Sloveniyadan dünyaya səs salıb.

Xatirə qanadlarında gəlib stadiona çatıram. Doğulub böyüdüyüm bu şəhərin stadionu sakinlərin, xüsusilə də gənclərin ən sevimli ünvanlarından biridir. Az sumqayıtlı tapılar ki, buraya gəlib futbol oyunlarına baxmasın və ya hansısa idman növü ilə məşğul olmasın. Yarım əsr əvvəl mənim də bu idman kompleksində – "Neftçi" idman cəmiyyətinin boks bölməsində məşqlərə gedib, yarışlarda iştirak etməyim yadıma düşür. İndi kompleks daha müasir, modern layihə üzrə yenidən qurularaq gənclərin ixtiyarına verilib. Abşeron–Xızı Regional Gənclər və İdman idarəsi də burada yerləşir. "Gənclər Paytaxtı"nın idman nailiyyətləri ilə tanışlıq qəlbimi qürur hissi ilə doldurur.

İlk olaraq mənə çox sevindirici bir xəbər verirlər: Bir neçə gün əvvəl Şimali Makedoniyanın paytaxtı Skopyedə güləş üzrə U-17 Avropa çempionatında yunan-Roma güləşi üzrə ilk qızıl medalı məhz Sumqayıt yetirməsi Rihad İbrahimli (110 kq) alıb. O, finalda bolqarıstanlı Denis Lazarovu göz açmağa qoymayıb və "tuş"la qələbə qazanaraq Avropa çempionu olub. Qeyd edək ki, Rihad Sumqayıtdakı Yusif Məmmədəliyev adına 31 nömrəli tam orta məktəbin şagirdidir.

İlin əvvəlindən qazanılan digər idman uğurları da fərəhlidir. Ötən 5 ayda Sumqayıt idmançıları beynəlxalq səviyyəli yarışlardan 51 medal əldə ediblər. Bunlardan 24-ü qızıl, 10-u gümüş, 17-i isə bürünc medaldır. Əksəriyyəti də Dünya, Avropa səviyyəli çempionat, birincilik və kubok yarışlarında əldə olunub. Bu medallardan 9 qızıl, 5 gümüş, 2 bürünc mükafat olimpiya oyunlarının proqramına daxil olan idman növləri üzrədir. Fevral ayında Fransanın paytaxtı Paris şəhərində keçirilən cüdo üzrə "Böyük Dəbilqə" yarışında Azərbaycanı təmsil edən Sumqayıt idmançıları – Ruslan Paşayev (66 kq) qızıl, Ömər Rəcəbli (81kq) isə bürünc medala sahib olub. Polşanın Belsko-Bialo şəhərində karatenin WKF versiyası üzrə keçirilən 52-ci Avropa çempionatında şəhər idmançıları Ələddin Məlikov (16-17 yaş, 68 kq) gümüş, Vüsal Qənbərov (14-15 yaş, 52 kq) bürünc medal qazanıb. Yanvar, fevral və may aylarında müvafiq olaraq Qətər, Türkiyə və Özbəkistanda təşkil olnunan stolüstü tennis üzrə Dünya seriyalı turnirlərdə sumqayıtlı Yağmur Məmmədli 1 qızıl və 2 bürünc medal qazanıb.

Aprel ayında Serbiyada keçirilən "Gimnaziada İdman Oyunları"nın proqramına daxil olan cüdo, boks, taekvondo, yunan-Roma güləşi və karate növlərində milli yığma komandalarımızın tərkibində çıxış edən Sumqayıt idmançıları Fuad Rəhimli (cüdo), Zöhrab Səfərov (yunan-Roma güləşi), Nigar Şəkərəliyeva, Rüqəyya Əliyeva, Eda Ezen (taekvondo) qızıl, İsmayıl Aslanlı (boks), Qorxmaz Səfərli (karate) və Elmira Bayraq (taekvondo) gümüş medallara sahib olublar. Həmin ay paralel olaraq Polşa və Xorvatiyada keçirilən cüdo üzrə Avropa kuboku yarışlarında böyüklər arasında Gültac Məmmədəliyeva (52 kq) gümüş, Kamran Süleymanov (73 kq) bürünc medal, gənclər arasında isə Süleyman Şükürov (81 kq) gümüş, Nihad Məmişov (60 kq) bürünc medala layiq görülüblər. Nihad Məmişov 2023 və 2024-cü illərdə yeniyetmələr arasında iki dəfə Dünya birinciliyinin qızıl medalına sahib olub. Gültac Məmmədəliyeva Paris Yay Olimpiya Oyunlarının iştirakçısıdır.

Apreldə Kiprin Limassol şəhərində keçirilən sambo idman növü üzrə yeniyetmələrin Avropa birinciliyində Sumqayıt idmançısı Rəsul Səmədli (+98 kq) 3-cü yeri tutub. Karatenin Fudokan növü üzrə may ayında Polşada keçirilən 10-cu Dünya çempionatında Qorxmaz Səfərli (60kq), Hacıəli Vəlizadə (80 kq), Şəfəqət Zeynalov (60 kq) 1-ci, Kamran Heydərzadə (80 kq) və Yusif Mustafazadə (35 kq) isə 3-cü yeri tutublar. Mayın ortalarında Rumıniyanın Meres şəhərində karatenin digər bir növü olan Şotokan versiyası üzrə keçirilən Avropa çempionatında Xəyal Məmmədov fəxri kürsünün ən yüksək pilləsinə ucalıb.

Sumqayıtda keçirilmiş "Gənclərə öz karyera yollarını seçməkdə kömək edən – çatbotlar" layihəsinin təqdimatı, "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Sənin hüququn – sənin gəncliyin!" adlı genişmiqyaslı tədbir, yaş həddi 14–35 olan gənclər arasında "Könüllülük proqramı" müsabiqəsi, "Gənclər şiddətsiz kommunikasiyada", "Liderlik və motivasiya" psixoloji təlimləri, "Suveren dövlət – qalib gənclik" adlı dəyirmi masa, "Azərbaycanın gələcəyi: Heydər Əliyev irsinin işığında" elmi-praktik konfransı idarənin gənclər sektorunun yaddaqalan tədbirlərindəndir.

Gənclik şəhərində özünün bədii istedadı ilə seçilənlər çoxdur. "Gənclər Paytaxtı Sumqayıtda Poeziya Günü" adlı tədbir bunu bir daha göstərdi. Milli Məclisin deputatı Səbinə Salmanovanın təşəbbüsü ilə baş tutan tədbirdə şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov, Xalq artisti Rasim Balayev, Xalq şairləri Vahid Əziz və Sabir Rüstəmxanlı, şair Rüstəm Behrudi iştirak ediblər. Xalq şairi Nəriman Həsənzadənin videomüraciəti də yayımlanıb. Qeyd olunub ki, Sumqayıtda keçirilən bu kimi tədbirlər gənc nəslin milli-mənəvi dəyərlərə bağlılığını gücləndirir, onların ədəbiyyata, incəsənətə marağını artırır. Ədəbi-bədii kompozisiya seyrçiləri sözün əsl mənasında duyğulandırıb.




Şeirə könül verənlərdən biri yeni nəsil şairlərdən olan Sahibə Yusifdir. Onun "Bu dünyanı nağıl bilək" adlı ilk şeirlər kitabı yenicə çapdan çıxıb. Yaradıcılıq nümunələri AYB-nin ədəbi-bədii orqanı olan "Ulduz" jurnalında, almanax və qəzetlərdə, o cümlədən, "Nur ocağı" antologiyasının 1-ci və 2-ci cildlərində, "Şah dağı" ədəbi məcmuəsində dərc edilib. Sumqayıt Poeziya Evində söylədiyi şeirlərdən də hiss etdik ki, sənətə ciddi yanaşır, sözün çəkisini və qədrini bilir.

**Bahar ümidlərində açdı neçə gül-çiçək,**
**Arzuları qəlbindən boylandı ləçək-ləçək.**
**İlk eşqin alovları gözlərində alışdı,**
**Rəngli xəyallarını axar suya danışdı.**

– Bu misralar Sahibə Yusifin "Mələk" şeirindəndir. O, "Gənclər Paytaxtı" mövzusunda silsilə şeirlər üzərində işlədiyini də bildirdi.

Milli təhsilimizin flaqmanı sayılan Sumqayıtda 43 tam orta ümumtəhsil məktəbi, 4 yeni tipli məktəb – 3 lisey, 1 gimnaziya, 3 internat, 4 məktəbdənkənar–tərbiyə, 56 məktəbəqədər tərbiyə müəssisəsi, 4 peşə liseyi, 1 universitet – SDU, 4 kollec fəaliyyət göstərir. Şəhərin rəhbərliyi təhsilə diqqəti prioritet sayır. Ötən il Sumqayıt məktəblərini 3879 şagird bitirib ki, onların da üçdə-ikisi tələbə adını qazanıb. Bugünün məktəb şagirdləri isə indidən öz bilik və bacarıqları ilə fərqlənməyə çalışırlar. Təhsildə seçilənlərin öncülləri sırasında olan 2 (direktor Xalid Adıgözəlov) və 28 nömrəli (direktor Araslan Rzayev) məktəblərin yetirmələri də az deyil.

Cari ildə 2 nömrəli tam orta məktəbini 10 şagird fərqlənmə ilə bitirib. Məzunların ümumi sayı 107 nəfərdir və inam var ki, builki qəbulun nəticələrinə görə, onların böyük əksəriyyəti tələbə adını qazanacaq. Bu yaxınlarda Ulu öndərin anadan olmasının 102 illiyi münasibətilə keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsinin tarix üzrə respublika fənn yarışmasında bu məktəbin 10-cu sinif şagirdi Mühəmməd Quliyev qızıl medala layiq görülüb.

– Suallar çətin idi, amma ciddi hazırlaşdığım üçün hamısının öhdəsindən gələ bildim və 1-ci oldum, – deyə o bildirdi. – Bu, mənim "Gənclər Paytaxtı" adını alan şəhərimizin uğur salnaməsinə töhfəm oldu. Humanitar fənlərə marağım böyükdür. Hansı sahəni seçəcəyimi indidən deyə bilmərəm. Bildiyim odur ki, zəhmətsevərlik, çalışqanlıq nəticəsiz qalmır. Gələcəkdə harada olacağımdan, hansı peşədə çalışacağımdan asılı olmayaraq, daim Sumqayıtın şöhrətini artırmaqda qərarlıyam. Bəlkə də diplomat olacağam. Axı, mən hazırda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Sumqayıt "Uşaq səfirləri" məclisinin sədriyəm.

Təhsil ocağının 8-ci sinif şagirdi Həsən Osmanov karatenin WKF növü üzrə dünya birinciliyinin qalibi olub. Sevinir ki, beşqat Dünya çempionu, 11 dəfə Avropa çempionu olan, adı Ginnesin Rekordlar klitabına düşən Azərbaycan karatesinin "Qara brilyantı", "Şöhrət" və 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenli sumqayıtlı Rafael Ağayevin ustadı – 6-cı dan qar kəmər sahibi, Əməkdar məqşçi Rafael Məmmədovun yetirməsidir və etimadı doğrulda bilib.

Sumqayıtdakı Milli Qəhrəman Polad Həşimov adına 2 nömrəli məktəbə gəlişimiz ənənəvi "Son zəng" mərasiminə təsadüf etdi. 11-ci sinif şagirdlərindən 57 nəfəri, 9-cu sinif şagirdlərindən isə 67 nəfəri bu il buraxılış imtahanlarında 200-dən yuxarı bal toplayıb. Tam təhsil üzrə 25 şagird, orta təhsil üzrə 23 nəfər fərqlənmə attestatına layiq görülüb. "Sabahın alimləri" XIV respublika layihə müsabiqəsində Telman Əsgərov, Ayşə İsrafilova, Ağalar Əliyev və Mədinə Abbaszadə parlaq nəticələri ilə müəllim və valideynlərini sevindiriblər. Çox keçməz ki, onlar da yüksək göstəricilərlə arzusunda olduqları tələbə adını qazanarlar.

Ümumiyyətlə, bu məktəbdə zəfər ovqatlı bir aura hökm sürür. Ötən günlərdə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin Azercellə birlikdə layihəsi uğurla həyata keçirilib. Layihənin əsas məqsədi məktəblilərin kibertəhlükələrə qarşı məlumatlılıq səviyyəsini yüksəltmək, onları rəqəmsal mühitdə üzləşə biləcəkləri risklər barədə maarifləndirmək idi. Şagirdlər tədbirdə yüksək fəallaq nümayiş etdiriblər.

Məktəbin idmançıları da uğur yolçuluğunda inamla irəliləyirlər. Elə bu günlərdə 7-ci sinif şagirdi Əsma Musayeva Uşaq-Gənclər Basketbol Liqasında l-ci yerə çıxdığına görə təltif olunub. Daha öncə 8-ci sinif şagirdi Nahid İbrahimli və 7-ci sinif şagirdi Nazim İbrahimli də idmanda uğurlu nəticə əldə ediblər. Futbol yarışında isə məktəbin komandası qalib gələrək azarkeşlərini sevindirib.

Sumqayıtda kiminlə söhbət etdiksə, şəhərin heç vaxt əskilməyən gənclik ruhundan danışdı. Vurğulandı ki, nəinki burada doğulanlar, bir müddət yaşayan hər kəs də hökmən Sumqayıta ömürlük bağlanır, özünü bu şəhərə həsr edir. Sumqayıt hər bir sumqayıtlının öz adı, öz taleyi, vizit kartıdır. 75 yaş bir insan üçün müdriklik çağı sayılsa da, bir şəhərin ilkinlik dövrüdür. Buna görə Sumqayıt öz sakinlərinin təzə-tər gənclik və gözəllik ünvanı, ilham və enerji mənbəyi sayılır. İnanırıq ki, bu şəhər həmişə olduğu kimi, dinamik inkişaf edəcək və ölkəmizin parlaq gələcəyinə töhfələrini daha da artıracaq.

"Gənclər Paytaxtı" adı Sumqayıta çox yaraşır.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Bakıda piano təntənələri

## Xəzər sahilləri dünya musiqisi qanadlarında





**Artıq bir neçə gündür ki, Bakının mədəni ritmi IV Beynəlxalq Piano Festivalının sədaları ilə daha da canlı təsir bağışlayır. Qocaman Xəzərin dalğaları, sahil şəhərinin küləkləri ilə həmahəng musiqi melodiyaları ətrafa yayılır və ecazkar aura yaradır.**

"Landmark Hotel Baku"da keçirilmiş açılış konfransında festivalın təsisçisi və direktoru, tanınmış caz pianoçusu və bəstəkar, Əməkdar artist Şahin Növrəsli ilə bayramın art-direktoru, Əməkdar artist Natəvan Növrəsli, Braziliya və Xorvatiyanın ölkəmizdəki səfirləri Manuel Montenegro ilə Branko Zebiç, Fransa səfirliyinin müşaviri Şarl Denye, Avstriya səfirliyinin baş konsulu Herxard Luts, "PASHA Holding"in departament direktoru Nazim Səfərov və başqaları ürək sözlərini söyləyiblər. Bildirilib ki, festivala 10 ölkədən sənətçilər qatılacaq, möhtəşəm proqram təqdim olunacaq.

Ertəsi gün "Rotunda Roof Garden"də Bakı Piano Festivalının açılışı uğurla keçdi. Təsisçi Şahin Növrəsli qısaca olaraq "Bakı Piano Festivalı"nın yaranma tarixindən danışdı və ötən illər ərzində təşkilatçılara göstərdikləri dəstəyə və köməyə görə dostlara və sponsorlara təşəkkür elədi.

Sonra Fransanın məşhur caz-divası Mina Aqossinin kvarteti paytaxtımıza, sözün əsl mənasında, səs saldı. O, bir solist kimi çıxışına Bakıya həsr etdiyi improvizə kompozisiya ilə başladı. Vokal ifalarında onu Ceremi Brüger (fortepiano), Erik Cakot (bas gitara) və Cos Aydama (nağara) virtuoz şəkildə müşayiət edirdilər.

Konsertə böyük tamaşaçı kütləsi gəlmişdi. Bu sırada ünlü mədəniyyət və incəsənət xadimləri ilə yanaşı, xiridar mətbuat nümayəndələri də vardı.

Bakı Piano Festivalı çərçivəsində "Rotunda Roof Garden"də adını transformasiya və innovasiyadan alan yenilikçi "Altera Ensemble" (Türkiyə) qrupunun, eləcə də rəqqaslar Kamran Babayev və Ezgi Erin iştirakı ilə tanqo gecəsi də böyük uğurla keçdi. Sənətçilərin ifasında parlaq proqram sərgiləndi. Səhnədə Zibelhan Dağdelen (vokal), Rüstem Mustafa (skripka), M.Reşat Güner (akkordeon), Suzan Şenol Sayın (piano), Simge Keskin (violonçel), Bora Çamoğlu (kontrabas), Ege Tokatlı (gitara), Yavuz Akalın (ney) ruh oxşayan gözəl çıxışları dönə-dönə alqışlandı.

Heyrət doğuran bu idi ki, "Altera Ensemble" klassik və müasir dünya musiqisini unikal aranjimanlarla yeni kontekstdə təqdim edirdi. Sopranonun valehedici səsinə bələdçilik edən alətlərin zəngin səs çalarları əlvan ahəngdə birləşərək dinləyicilərə qeyri-adi musiqi performansı təqdim etdi. Özünün musiqi səyahətinə coşğun melodiyalarla başlayan qrup pop və kino musiqisinin mürəkkəb şərhlərini, dünya musiqisini və müasir tanqonu bir araya gətirməklə necə geniş imkanlara malik olduğunu bir daha sübuta yetirdi. Ayrı-ayrı çıxışlarda emosional dərinlik, bədii incəlik və mədəni müxtəlifliyin təzahürü əyani şəkildə görünürdü.



**Türkiyəli sənətçi – soprano Zibelhan Dağdelen jurnalistlərlə söhbət zamanı festivala bağlı xoş təəssüratlarını bölüşdü:**

– Bakıda özümüzü çox yaxşı hiss edirik. Bu, çox gözəl şəhərdir, burada mehriban insanlar var. Bakı səhnəsində musiqi ifa etmək xüsusi hadisədir. Biz çıxışlardan olduqca həyəcanlıyıq və Bakı Piano Festivalında olmağdan çox şadıq. Bu fürsətə görə təşkilatçı Şahin Növrəsliyə, çıxışlarımıza mənəvi stimul verən seyrçi dəstəyinə görə isə musiqisevərlərə minnətdarıq.

**Şimali Kipr Türk Cümhuriyyətini təmsil edən Röya Taner isə çıxışı ərəfəsində dedi:**

– Bu, Azərbaycana 7-ci səfərimdir. İlk dəfə bura 1992-ci ildə gəlmişdim. Bakı Piano Festivalında çıxış edəcəyim üçün çox şadam. Ümid edirəm ki, Bakı Kamera Orkestri ilə səhnəyə çıxacağım Beynəlxalq Muğam Mərkəzində çoxlu tamaşaçı olacaq və biz birlikdə musiqidən zövq alacağıq. Səhnədə yaradıcılığımı azərbaycanlı tamaşaçılarla bölüşəcəyim anı səbirsizliklə gözləyirəm.

Musiqisevərlər dünən ADA Universitetində Şahin Növrəslinin virtuoz çıxışına, "Meyvi klub"da isə "Art Vorkşop ənd Jam session"a şahidlik etdilər. IV Bakı Piano Festivalı iyunun 28-dək davam edəcək. Paytaxtımızın sakinləri və qonaqlarını müxtəlif janrlı musiqilərdən ibarət geniş konsert proqramlarına "qonaq" ola biləcəklər. Müxtəlif musiqi məkanları festivalı qoynuna alacaq. "Caz gecəsi", Zaza Xutçişvilinin, Simon Raabın, Liz Rasanın, Mike Del Ferronun, Yeganə Axundovanın çıxışları, gənc istedadların "Gələcək bizik" konserti kimi özəl sürprizlər olacaq.

"Bakı Piano Festivalı – 2025" çərçivəsində bədii tədbirlər, sərgilər, ədəbi müsabiqə və cem sessiyalarının təşkili də nəzərdə tutulub.

***Ə.ƏLİYEV***
***XQ***

Qırmızı işıq

# Piyada yoluna çıxma, sürücü!

**Dəfələrlə müxtəlif səviyyələrdə tənqid olunmasına baxmayaraq, yenə də Bakı küçələrinin piyada səkiləri müxtəlif növ avtomobillər üçün dayanacağa çevrilməkdədir. Piyadaların hər iki istiqamətdə hərəkət etdikləri səkilərdə qaydalara məhəl qoymayan hansısa sürücülər maşın saxlayır və gediş-gəlişə mane olurlar.**

Doğrudur, bəzən ölkəmizdə avtomobillərin səkiləri zəbt etməsinə qarşı reydlər keçirilir, təqsirkarlar məsuliyyətə cəlb olunurlar.Təəssüf ki, bu kollajdakı mənzərəyə bənzər hallara, nədənsə, Dövlət Yol Polisi (DYP) və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA), yumşaq desək, bir qədər loyal münasibət bəsləyirlər. Xüsusilə də axşam saatlarında səkiləri elə hey avtomobillər zəbt edir. Əslində, piyada narahatlıqları, əsəb gərginlikləri baxımından elə səkidə maşın "park" etmək, dayanma-durma qaydalarını pozmaq da avtoxuliqanlıq sayılmalıdır. Axı, bu üzdən piyadalar ciddi əziyyət çəkir və haqlı narazılıqlarını dilə gətirirlər.



Piyadaların əziyyəti bir yana, sürücü mədəniyyəti deyilən bir nəsnəni "unudan"lar Bakının xarici qonaqlarının, turistlərin onların haqqında nə düşündüyünü də vecl.rinə almırlar. Yeri gəlmişkən, Avropa ölkələrində yanlış parketmə problemi yaradanlara, nəqliyyat vasitələrini təsadüfi yerdə saxlayanlara xüsusi xəbərdarlıq və böyük cərimələr edilir. Məsələn, "Saxlamaq qadağandır!" qadağasına məhəl qoymamaq 10, əlillər üçün dayanacaqda parkinq isə 35 avrodur. Yanlış park edən sürücülər həmişə xəbərdarlıq və ya cərimə ilə yaxalarını qurtara bilməzlər. Qaydaların davamlı pozulması zamanı ödəniləcək məbləğ 3 rəqəmə qədər çatır. Sürücülər parketmə cərimənsindən əlavə, təxliyyə xərclərini, habelə bələdiyyə vergisini də ödəməli olurlar.

Hələ onu demirik ki, bizdə yolların kəsişmə nöqtəsinə yaxın yerlərdə, "zebra" xətti üzərlərində avtomobil saxlama halları da olur və bu da yolun daralmasına, hərəkətin çətinləşməsinə gətirib çıxarır.

Xatırladaq ki, ötən il qəzetimizin 2 mart tarixli sayında verdiyimiz "Ehey, kim saxlayıb bu səkidə maşını?.." adlı replikada da eyni problemi qaldırmışdıq. Həmin yazıda paytaxtın dəmiryol vağzalı ilə "28 May" metro stansiyasının qar-şısındakı meydanda, görkəmli dramaturq Cəfər Cabbarlının abidəsinin düz arxa tərəfində rəsmi pullu dayanacaq fəaliyyət göstərdiyinə diqqət cəlb edilirdi. Yazmışdıq ki, bu, günün istənilən vaxtında böyük piyada sıxlığı müşahidə olunan bir yer üçün tamamilə qəbuledilməzdir. Həmin replikamız belə bitirdi: "Hələ onu demirik ki, bu azmış kimi, həmin dayanacağın ətrafında da minik avtomobilləri "park" edilməklə daha acınacaqlı vəziyyət yaradır. "Parkinq"in yerində gül-çiçəkli park və ya xiyaban yaradılsa, daha məqsədəuyğun olmazmı?"

Nəhayət, səsimiz eşidildi və 2024-cü ilin payızında həmin meydanda yenidənqurma işləri görüldü: parkinq ləğv edildi, meydan ərazisində fərdi və digər nəqliyyat vasitələrinin hərəkətinə son qoyuldu, piyadalar və velosiped sürənlər üçün zolaqlar yaradıldı. İndi orada gözəl bir park yaradılıb, meydana yalnız məhdud sayda marşrut avtobusları daxil ola bilir.

Nəqliyyat sahəsi üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov "Xalq qəzeti"nə açıqlamasında bildirib ki, ölkədə həm parklanma yerlərinin təşkili ilə, həm də dayanma-durma yerlərinin müəyyən edilməsi ilə bağlı problemlər var. Onun sözlərinə görə, bəzi sürücülər başqalarını nəzərə almadan, yol hərəkəti qaydalarına biganə yanaşırlar ki, bu da onların öz maraqlarını üstün tutmasından irəli gəlir. Sürücülərdən, sadəcə, yol hərəkəti qaydalarına riayət etmələri tələb olunur. Onlar bilməlidirlər ki, səkilər piyadaların hərəkəti üçün nəzərdə tutulub və bu yerlər zəbt olunanda onlar da yolun maşın hərəkəti hissəsi ilə getməyə məcbur olurlar. Nəticədə ciddi təhlükələr yaranır. Digər tərəfdən, yol polisləri də buna daha ciddi nəzarət etməlidirlər. İnzibati Xətalar Məcəlləsinin 124-cü maddəsinə görə, səkidə park edilmiş avtomobil gediş-gəlişə mane olursa, evakuasiya edilərək, cərimə meydançasına aparılmalıdır. Yeri gəlmişkən, 346-cı maddəyə görə, indi artıq cərimə məbləği 60 manata qaldırılıb və 2 cərimə balı da yazılır. İctimai tənbeh də gücləndirilməlidir. Düşünürəm ki, belə olsa, "dəcəl" avtomobilləri biz artıq səkilərdə görmərik".

Ümid edirik ki, göstərilən nöqsanların qarşısı daha qətiyyətlə alınacaq və heç kəs maşınını səkilərdə saxlamaq fikrinə düşməyəcək.

***Əli DOSTƏLİ***
***XQ***

# Folklor araşdırmaları da rəqəmsallaşır



**AMEA-nın Folklor İnstitutunun strukturunda müasir dünyanın çağırışlarına müvafiq olaraq rəqəmsal folklor və netnoqrafik analiz şöbəsi yaradılıb. Bu barədə qərar Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Xankəndi şəhərində – Qarabağ Universitetində keçirilən xüsusi iclasında qəbul edilib.**

Yeni şöbənin yaradılması "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" və "2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası"nda müəyyən edilən prioritetlərə müvafiq olaraq, AMEA-da həyata keçirilən islahatlar fonunda humanitar və ictimai elmlərdə rəqəmsal transformasiyanın genişləndirilməsi, eləcə də süni intellekt texnologiyalarının tətbiqi zərurətinə əsaslanır.

**Folklor İnstitutunun direktoru, filologiya elmləri üzrə fəlsəfə doktoru Hikmət Quliyev "XQ"-yə açıqlamasında yeni şöbənin gələcək fəaliyyət istiqamətləri barədə danışdı:**

– Rəqəmsal texnologiyaların, elektron mühitin, qlobal informasiya şəbəkəsinin mövcudluğu elmin bütün sahələrində olduğu kimi, folklorşünaslıqda da yeni istiqamət və təmayüllərin meydana çıxarılmasını zəruri edir. Bu baxımdan milli təhlükəsizliyin əsas komponentlərindən olan milli-mənəvi dəyərlərin qorunması, xalq mədəniyyətinin, folklorun müasir dünyanın tələblərinə müvafiq şəkildə informasiya təhlükəsizliyi kontekstində araşdırılması kifayət qədər aktual məsələdir.

Hazırda AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin rəhbərliyi ilə AMEA-da həyata keçirilən genişmiqyaslı islahatların əsas istiqamətlərindən biri, dövlətimizin milli maraqlarını və dünya üzrə inkişaf edən qabaqcıl trendləri nəzərə alaraq, humanitar və ictimai elmlər sahəsində rəqəmsal texnologiyaların və süni intellekt metodlarının tətbiqinin artırılması, süni intellekt texnologiyalarının etik prinsiplərinə dair tədqiqatların genişləndirilməsi və bu sahədə kadr potensialının inkişafına diqqətin gücləndirilməsidir. Elə bizim institutda yeni şöbənin yaradılması da bu istiqamətə xidmət edir.

Yeri gəlmişkən deyim ki, bu sahə mənim son illərdəki doktorluq araşdırmalarımın mövzusu ilə sıx bağlıdır. Buna görə də indiyədək olan pərakəndə çalışmalarımızı akademiya rəhbərliyinin təşkilati dəstəyi ilə daha institusional etməkdə qərarlıyıq. Hələlik daxili imkanlar və mövcud ştat vahidləri hesabına çalışacaq şöbəyə mən rəhbərlik edəcəyəm.

Rəqəmsal hökumət və rəqəmsal cəmiyyət prinsipləri əsasında fəaliyyəti nəzərdə tutulan bu şöbədə yalnız ənənəvi ünsiyyət kontekstində deyil, həm də virtual mühitdə meydana gələn folklor prosesləri və bu proseslər nəticəsində yaranan xalq yaradıcılığı nümunələrinin sistemli şəkildə araşdırılması həyata keçiriləcək. Şöbə Azərbaycandilli virtual folklor mühitində – sosial şəbəkələrdə, onlayn platformalarda yayılan memlər, deyimlər, internet nağılları və digər rəqəmsal folklor nümunələrinin toplanması, təhlili və arxivləşdirilməsi ilə məşğul olacaq.

Rəqəmsal folklor və netnoqrafik analiz şöbəsinin fəaliyyət istiqamətləri genişdir. Buraya əsasən internet folklorunun nəzəri-metodoloji problemləri çərçivəsində Azərbaycandilli virtual folklor mühitinin spesifikasının tədqiqi, sosio-texnoloji və texno-kulturoloji mühitdə folklorun təbiətinin araşdırılması, süni intellekt və folklor münasibətlərinin öyrənilməsi, rəqəmsal folklor nümunələrinin (memlər, onlayn nağıllar, deyimlər və s.) toplanması, təsnifatı və arxivləşdirilməsi, Azərbaycandilli virtual sosial platformalarda folklorlaşma proseslərinin netnoqrafik metodlarla tədqiqi, milli Rəqəmsal Folklor Verilənlər Bazasının yaradılması və strukturlaşdırılması, elmi-etik prinsiplər gözlənilməklə süni intellekt texnologiyalarının (mətn analizi, avtomatik klasterləşdirmə və s.) tətbiqi ilə folklor materiallarının təhlili, eləcə də rəqəmsal folklorun milli kimlik, kollektiv yaddaş və ictimai özünüifadə vasitəsi kimi öyrənilməsi daxildir.

İnanırıq ki, yeni təşəbbüs sayəsində qədim folklor nümunələrimizin ömrü daha da uzanacaq, şifahi xalq yaradıcılığının bütövlüyü və tamlığının qorunub saxlanması daha da etibarlı olacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***

# "Xalq qəzeti" ilə "Ulduz"lu görüşlər"



**"Xalq qəzeti" ilə "Ulduz" jurnalının birgə layihəsi olan "Ulduz"lu görüşlər"in növbəti qonağı akademik, Əməkdar elm xadimi Nizami Cəfərov olub.**

Azərbaycanda Atatürk Mərkəzinin zalında keçirilən tədbirin "Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəs akademiklə görüşə gələn Azərbaycan Universitetinin tələbələrinə bildirib ki, Nizami Cəfərovun tədqiqatları Azərbaycan dili tarixi, türkologiya və müasir ədəbi prosesə sıx bağlıdır. O, eyni zamanda, "Azərbaycanşünaslığın əsasları"nın yaradılmasına mühüm töhfə verib.

Azərbaycan Universitetinin baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Xəyalə Cəfərova gənc filoloqların gələcək fəaliyyətində belə görüşlərin önəmindən danışıb və tələbələrlə ünsiyyətə görə akademikə minnətdarlıq edib.

Nizami Cəfərov gənc həmkarlarına Azərbaycanda Atatürk Mərkəzinin yaranma tarixindən danışıb, dilçiliyin və türkologiyanın problemlərini təhlil edib. Azərbaycan Universitetinin tələbələri alimə coxsaylı suallar ünvanlayıb, akademikin əsərlərindən müxtəlif sitatlar səsləndiriblər.

Sonda Nizami müəllim tələbələrə öz kitablarını avtoqrafla hədiyyə edib.

***XQ***

# Gəncə MDB-nin İdman Paytaxtı sertifikatını aldı



**Bununla əlaqədar olaraq Gəncə Şəhər İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən ümumşəhər tədbiri təşkil olunub.**

Gəncə şəhər Heydər Əliyev Park-Kompleksində baş tutan tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki Baş konsulu Kaxaber Abdaladze, Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Elnur Məmmədov, MDB İcraiyyə Komitəsinin İctimai, sosial və humanitar sahələr üzrə əməkdaşlıq departamentinin direktor müavini Manuçehir Hojizadə, şəhər rəsmiləri, idarə və müəssisə rəhbərləri, şəhər ictimaiyyətinin nümayəndələri və yerli sakinlər iştirak ediblər.

Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə tər çiçəklər düzülüb. Daha sonra Heydər Əliyev Mərkəzindən "Zəfər Tağı"nadək olan məsafədə müxtəlif idman növləri üzrə idmançıların çıxışları izlənilib. Tədbirin rəsmi hissəsi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra ulu öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxışlar zamanı tədbirin 15 İyun – Milli Qurtuluş Günündə keçirilməsinin xüsusi rəmzi məna daşıdığı qeyd olunub. Böyük inkişaf yolunu qətiyyətlə addımlayan azad, müstəqil Azərbaycanda mötəbər idman tədbirlərinin təşkil edilməsinin sevindirici olduğu vurğulanıb. III MDB Oyunlarının ölkəmizdə, Nizami yurdu Gəncədə keçirilməsinin önəmindən bəhs edilib.

Daha sonra Gəncənin 2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin (MDB) İdman Paytaxtı seçilməsi ilə bağlı sertifikat MDB İcraiyyə Komitəsinin İctimai, sosial və humanitar sahələr üzrə əməkdaşlıq departamentinin direktor müavini Manuçehir Hojizadə tərəfindən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramova təqdim olunub.

Tədbirin davamında Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası solistlərinin, Göygöl Dövlət Mahnı və Rəqs Ansamblının, həmçinin Bakıdan dəvət olunmuş müğənnilər Rilaya Hüseynzadə və Mərdan Kazımovun ifasında konsert proqramı baş tutub.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

**Gəncə**

## Xankəndidə Minalardan və hərbi sursatlardan təmizləmə İşçi qrupunun iclası

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupun növbəti iclası Xankəndi şəhərində keçirilib.**



Əvvəlcə ANAMA və İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri Agentlik tərəfindən Ağdam rayonunun Sarıcalı kəndi ərazisində və Fövqəladə Hallar Nazirliyi tərəfindən rayonun Əlimədətli kəndində icra edilən humanitar minatəmizləmə fəaliyyəti ilə tanış olublar.

Daha sonra İşçi qrupun Xankəndi şəhərində geniş tərkibdə iclası keçirilib. Agentliyin İdarə Heyətinin sədri, İşçi qrupun rəhbəri Vüqar Süleymanov iclasda çıxış edərək, illik tədbirlər planına əsasən həyata keçirilən humanitar minatəmizləmə əməliyyatlarının gedişatı barədə məlumat verib. İdarə Heyətinin sədri qeyd edib ki, minatəmizləmə fəaliyyətinə cəlb olunan qurumlar tərəfindən 2025-ci il ərzində yaşayış infrastrukturu üzrə 8 318 hektar, kənd təsərrüfatı üzrə 9 176 hektar, ekoloji qiymətləndirmə üzrə 1 951 hektar, nəqliyyat infrastrukturu üzrə 708 hektar, meliorasiya və su təsərrüfatı üzrə 628 hektar və digər prioritet layihələr daxil olmaqla, cari il ərzində 27 204 hektar ərazi mina və partlayıcı qalıqlarından təmizlənib.

İclasda çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov ölkə rəhbərinin azad edilmiş ərazilərin yenidən qurulması, Böyük Qayıdış Proqramının uğurlu icrası, təhlükəsiz və dayanıqlı məskunlaşmanın təmin olunması istiqamətindəki tapşırıqlarına uyğun olaraq aparılan mühüm işlər və gələcək layihələr barədə məlumat verib.

İclasda bərpa-quruculuq layihələri ilə əlaqəli şəkildə icra edilən humanitar minatəmizləmə fəaliyyəti istiqamətində görülən işlərin icrası və cari məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən icra edilən fəaliyyət üzrə hesabatlar dinlənilib, əməliyyatlara cəlb olunmuş texnika və avadanlıqlar barədə məlumat verilib.

İşğaldan azad edilmiş ərazilərə çox sayda keçmiş məcburi köçkünün geri qayıdışını, habelə turist səfərlərinin artımını nəzərə alaraq, aidiyyəti qurumlarla birgə mina təhlükəsinə dair maarifləndirmə fəaliyyətinin, müştərək təbliğat-təşviqat işlərinin genişləndirilməsi, mümkün layihələrin icrası istiqamətində fikir mübadiləsi aparılıb, təkliflər irəli sürülüb.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Modi Kiprə niyə getdi?

**İyunun 15-də Hindistanın baş naziri Narendra Modi Kanadada keçiriləcək G7 sammitinə yola düşməzdən əvvəl Kiprə iki günlük səfər etdi. Onu hava limanında Kipr prezidenti Nikos Xristodulidis qarşıladı. 74 yaşlı Hindistan lideri sosial şəbəkə X-də yunan dilində paylaşım edərək yazdı ki, "Bu səfər Hindistan–Kipr münasibətlərinə, xüsusilə ticarət, investisiyalar və digər sahələrdə əhəmiyyətli təkan verəcək". Əlbəttə ki, səfərin əsas məqsədi tək bu sadalananlarla yekunlaşmır.**



Narendrə Modinin Kiprə səfəri simvolik diplomatik jest olmaqla yanaşı, həm də daha dərin geosiyasi və iqtisadi məqsədlərlə müşayiət olunur. Bəs səfərin strateji aspektləri hansılardır? Mütəxəssislərin sözlərinə görə, Kiprə getməklə Modi G7 sammiti öncəsi Avropa İttifaqına ismarıc göndərmək istədi. Modinin Kanadadakı G7 sammitindən əvvəl Kiprə baş çəkməsi Avropa İttifaqının periferiyasında yerləşən bir ölkə ilə əlaqələri gücləndirmə cəhdidir. Bu, eyni zamanda, Hindistanın Avropa bazarlarında daha fəal rol oynamaq istədiyinin göstəricisi kimi də qiymətləndirilir.

Bundan başqa, səfərdə məqsəd geoiqtisadi maraqların qorunması və investisiya cəlbetməsidir. Ekspertlərin sözlərinə görə, Kipr kiçik olsa da, Avropa İttifaqının maliyyə qapısı funksiyasını yerinə yetirən ölkələrdən biridir. Hindistanın texnologiya, dərman sənayesi və enerji sahəsində sürətlə böyüyən iqtisadiyyatı Avropa bazarına çıxmaq üçün Kiprdə hüquqi və maliyyə platforması axtarır. İş adamları ilə görüş də bu kontekstdə, Hindistan kapitalı üçün Kipri "Qərbə qapı" kimi formalaşdırmaq məqsədi daşıyır.

Hindistanın Şərqi Aralıq dənizində də mövcudluğunu artırmaq istəyinə düşməsi heç kimə sir deyil. Bu mənada Kipr Aralıq dənizinin enerji təhlükəsizliyi və qaz ehtiyatları baxımından strateji nöqtələrindən biri sayılır. İsrail, Misir və Yunanıstanla sıx əməkdaşlıq edən Kiprin təbii qaz layihələrinə Hindistan da maraq göstərir. Yeni Delhi burada həm Avropa qaz bazarına çıxış, həm də geosiyasi təsir zonasını genişləndirmək istəyir.

Modinin Kiprə səfərini Hindistan–Yunanıstan–Ermənistan əlaqələri kontekstində balans yaratmaq cəhdi kimi də xarakterizə etmək olar. Hindistan son dövrlər Ermənistana silah satışı və hərbi-texniki əməkdaşlıqla gündəmə gəlib. Bu, regionda Azərbaycan və Türkiyənin narahatlığına səbəb olur. Kiprə səfər isə Hindistanın Aralıq dənizi–Qafqaz xəttində yeni geosiyasi tərəfdaşlar tapmaq planının bir hissəsi ola bilər. Kiprin Ermənistanla yaxın münasibətləri də bu xəttə əlavə kontekst qazandırır.

Nəhayət, Modinin səfərinin əsas məqsədlərindən biri də Çinin "Bir kəmər, bir yol layihəsinin balanslaşdırılmasına yönəlik diplomatik cəhdlərini gücləndirməkdir. Çin son illərdə Kipr limanlarında strateji maraqlar nümayiş etdirir. Hindistan isə Çinlə rəqabət şəraitində Avrasiya və Aralıq dənizi məkanında öz iqtisadi-diplomatik varlığını artırmağa çalışır. Modi administrasiyası üçün Kipr, Pekinlə rəqabətə girmədən, Avropada dayaq nöqtəsi formalaşdırmaq imkanı yarada bilər.

Bir sözlə, Narendra Modinin Kiprə səfəri, sadəcə, təkcə diplomatik jest deyil, həm də Hindistanın Avropa, Aralıq dənizi və Yaxın Şərq istiqamətində yeni xarici siyasət arxitekturasının fraqmentidir. Bu səfər təkcə Kiprlə deyil, həm də Avropa İttifaqı və Aralıq dənizi regionunda yerləşən digər dövlətlərlə strateji yaxınlaşmanın siqnalıdır. Modi Kiprdə ticarət və investisiya sahələrində dialoqu gücləndirərək, Hindistanı Qərb iqtisadi və siyasi strukturlarına yaxınlaşdırmaq istəyir.

Bu da bir faktdır ki, Yeni Dehli Aralıq dənizi və Cənubi Qafqaz kimi ənənəvi geosiyasi maraq dairələrindən kənarda olan regionlarda da öz mövcudluğunu genişləndirmək istəyir. Bu meyil Hindistanın artan enerji və təhlükəsizlik ehtiyacları, ticarət marşrutlarının şaxələndirilməsi və geosiyasi nüfuz ambisiyaları ilə izah olunur. Lakin bu cəhdlərin uğurla nəticələnməsi yalnız qlobal ambisiyalarla deyil, həm də yerli güc mərkəzləri ilə koordinasiyalı siyasətlə mümkündür. Xüsusilə Türkiyə və Azərbaycanın geosiyasi mövqeyi və hərbi-siyasi gücü nəzərə alındıqda, Hindistanın bu iki aktoru gözardı etməsi onun regional strategiyalarında ciddi əngəllərə səbəb ola bilər.

Türkiyə Aralıq dənizi regionunda həm NATO üzvü, həm də regional güc olaraq mühüm aktordur. Onun Şərqi Aralıq dənizində qaz ehtiyatları uğrunda apardığı mübarizə, Liviya və Suriya kimi münaqişə bölgələrindəki aktivliyi, eyni zamanda, Avropa və Asiyanın kəsişməsində yerləşməsi Hindistanın bölgədəki təsirini ciddi şəkildə çərçivələndirir. Ankara öz maraqlarına təhdid kimi qiymətləndirilən istənilən xarici təşəbbüsə sərt cavab vermək iqtidarındadır.

Azərbaycan enerji resursları, nəqliyyat dəhlizləri və Türkiyə ilə dərinləşən hərbi-siyasi müttəfiqliyi ilə Cənubi Qafqazda aparıcı aktordur. "Zəngəzur dəhlizi", Bakı–Tbilisi–Qars dəmir yolu və TANAP kimi layihələr regionun gələcəyində Azərbaycanın rolunu daha da artırır. Hindistanın Ermənistana yönəlik strateji əməkdaşlıq cəhdləri isə Bakı tərəfindən balans pozucu yanaşma kimi qiymətləndirilir və bu, qarşılıqlı etimadı zəiflədir.

Buna görə də, Türkiyə və Azərbaycanla əlaqələrin nəzərə alınmadığı, xüsusilə Ermənistan və Kipr kimi dövlətlərlə eksklüziv əməkdaşlıq formatlarına üstünlük verildiyi halda, Hindistan yalnız regional müqavimətlə deyil, həm də rəqiblərinin fəallaşması ilə qarşılaşacaq. Geosiyasi tarazlıq, maraqların uzlaşdırılması və mehriban diplomatiya olmadan Hindistanın bu regionlardakı strategiyaları ya dayanacaq, ya da başqa güclərin möhkəmlənməsinə şərait yaradacaq. Bu baxımdan, Yeni Dehlidə strateji düşüncə mərkəzlərinin və qərarverici dairələrin Türkiyə və Azərbaycanın mövqelərini sistemli şəkildə nəzərə alması Hindistanın regional siyasətinin uğurunu müəyyənləşdirən əsas şərtdir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***


# Azərbaycan Respublikası Ədliyyə Nazirliyi

## Ədliyyə Akademiyasının məlumatı

***Ədliyyə Akademiyası aşağıdakı vəzifələri tutmaq üçün***

# MÜSABİQƏ ELAN EDİR

| № | Kafedranın adı | Vəzifənin adı (ştat vahidi ilə) |
|---|---|---|
| 1 | Məhkəmə hüququ, prokuror və vəkillik fəaliyyəti kafedrası | müəllim – 1 ştat |
| 2 | Məhkəmə hüququ, prokuror və vəkillik fəaliyyəti kafedrası | müəllim – 1 ştat |

Qeyd- müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində qəbul edilir. Təqdim olunması nəzərdə tutulan sənədlərin siyahısı barədə aşağıda qeyd olunmuş əlaqə vasitəsilə məlumat almaq mümkündür. Müsabiqədə iştirak etmək istəyənlər həmin sənədləri mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər:

Telefon- (994 12) 498- 09 -83.
Ünvan- AZ1000, Bakı şəhəri, Vidadi küçəsi 158.



## "İsmayıllı Tikinti-27" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025 -ci il saat 16.00-da "İsmayıllı Tikinti-27" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. Cəmiyyətin 2024-cü il üzrə maliyyə- təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi.
2. Səhmdarlara dividendlərin verilməsi.

Səhmdarların iştirakı vacibdir.
Telefon- 055 -347 -80 -89.
Ünvan-İsmayıllı şəhəri, M.Orucov küçəsi 100.



## "Bakı Toxucu" QSC səhmdarlarının nəzərinə!

1 avqust 2025-ci il saat 12.00 da "Bakı Toxucu" QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. "Bakı Toxucu" QSC-nin 2024-cü ilin maliyyə hesabatının müzakirəsi .
2. "Bakı Toxucu"QSC-nin idarə heyətinin sədrinin seçilməsi.
3. "Bakı Toxucu"QSC-nin idarə heyətinin üzvlərinin seçilməsi və digər təşkilati məsələlər.
4. Səhmlərin alqı-satqısı.

Telefon- 012-458-14-21
Ünvan-Bakı şəhəri,Bül-bülə qəsəbəsi, S.Bəhlulzadə küçəsi 47.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 123 (30817) 18 iyun 2025-ci il, çərşənbə

İdrakın kodları

# Tanrı və yaradılışın kodlaşdırılma ehtimalı

IV YAZI




## 1. Proqramçı Tanrı: İlahi niyyətin kodlaşdırılması

Müasir dövrdə Tanrı anlayışı yalnız klassik teoloji çərçivələrlə deyil, eyni zamanda informasiya fəlsəfəsinin kodları ilə də izah olunmağa çalışılır. Texnoloji mühitdə formalaşmış yeni metafor – Proqramçı Tanrı – ilahi iradəni kainatın kodlaşdırılmış strukturu kimi təqdim edir. Əgər hər şey "Ol" əmri ilə başlanmışdırsa, bu əmri kainatın başlanğıc kodu – ilkin əmri (komanda) kimi də yozmaq mümkündür. Kainat, bu anlamda, bir "sistem proqramı", yaradılış isə onun işləməyə başlamasıdır.

## 2. İlahi niyyətin sistemə çevrilməsi: Kainatın arxasındakı kod

Ənənəvi yaradılış nəzəriyyələri kainatı ilahi qüdrətin məhsulu olaraq izah etsə də, informasiya fəlsəfəsində bu qüdrət bir niyyətin algoritmik təcəssümü kimi anlaşılır. Bu zaman belə bir sual doğur: İlahi iradə mütləq determinist idimi, yoxsa kodlaşdırılmış ehtimallar içində "azad seçim" sahələri də var? Kvant fizikası kainatda qeyri-müəyyənlik və ehtimallar prinsipini irəli sürürsə, bəlkə Tanrının proqramlaşdırdığı sistem də ehtimallı strukturlara açıqdır?

## 3. "Söz"ün ilahi kod səviyyəsi: Kainatın alqoritmi

"İncil"də yazıldığı kimi, "Başlanğıcda Söz var idi. Söz Tanrı ilə idi və Söz Tanrı idi." Bu ifadə ilahi kəlamın – Logosun – həm məna, həm struktur, həm də funksionallıq daşıyıcısı olduğunu göstərir. Burada "Söz" yalnız məcazi yox, həm də informasiya daşıyıcısı, bəlkə də kodlaşdırılmış ilkin siqnaldır. Bu "söz"də, hər bir varlığın mövcudluğu üçün lazımi məlumat paketi yerləşdirilmişdir.

## 4. Kodlaşdırılmış insan: Ruh və bədən arasında informasiya körpüsü

"İnsan Tanrının surətində yaradıldı" ifadəsi sadəcə görünüşü yox, daxili strukturu da əhatə edir. Müasir biologiyada insanın genetik kodunun – DNA-nın – mövcudluğu bu fikri bir qədər informasiya səviyyəsinə keçirir: bədən bir informasiya strukturu üzərində formalaşır. Bəs ruh? Ruh, bəlkə də bu sistemdə kodlaşdırıla bilməyən, amma sistemin məqsədini daşıyan ilahi niyyətin canlı fraqmentidir.

## 5. Kodda boşluqlar: Azad iradə və səssiz əmrlər

Hər kodlaşdırılmış sistemdə boşluqlar, dəyişənlər və ehtiyat sahələr mövcuddur. İnsanın azad iradəsi, ehtimal ki, bu kod boşluqları içində fəaliyyət göstərir. İlahi sistem içində insan həm proqramın iştirakçısı, həm də onun təfsirçisidir. Bəzən isə kodun içində səssiz əmrlər yerləşir – görünməyən, amma istiqamətverici mesajlar. Həyatda qarşılaşdığımız qeyri-müəyyənliklər, bu səssiz əmrlərin işə düşməsi ola bilər.

## Nəticə: İlahi kod izi axtarışı

Əgər Tanrı həqiqətən də böyük bir Proqramçı kimi kainatı yaratmışsa, bizim missiyamız bu kodun izlərini tapmaq, onu anlamaq və onunla harmoniyada yaşamaqdır. İdrakın kodlarını çözmək, həm Tanrını anlamağa, həm də özümüzə bir addım daha yaxınlaşmağa xidmət edir.

*Oğuz ARİF*

Elimizdən, obamızdan

# Yay ola, yaylaq ola...



**Vətən hənirli dağlarımıza baxıram, ürəyim dağa dönür. Ulu Vətən dağlarının eşqi, cazibəsi nə gözəldir,Tanrım! Vətənsiz nə ömür-gün, nə həyat eşqi?! Yad ölkənin ocağı Vətən ocağının istiliyinin yerini verməz. Qısa ömrümüz ərzində Vətənlə nəfəs alırıq, Vətən ocağının istisinə isinirik, Vətən eşqi ilə yaşayırıq.**

Vətənimiz ilin hər fəslində gözəl olur. İllər ötür, fəsillər və nəsillər dəyişir. Bəlli zaman kəsiyində qış, yaz, yay, payız öz yerini tutur. Fəsillərin və nəsillərin bir-birilə əvəzlənməsi təbii əvəzlənmədir. Yay fəslində ellərimizin aran köçü, dağ köçü, yaylaq nişanı bugünümüzdə də yaşayır. Amma necə? Tarixin yazılı və yazısız soraqlarında, insanların yaddaşında gözəl yaylaq adətlərimiz vardı. Yaylaq mədəniyyətimiz qədim bir xalqın etnoqrqfiyasıdır.

Mən Borçalı mahalında doğulmuşam. Orada boya-başa çatmışam, ana yurdumuzda pöhrələnmişəm. Adət-ənələrimizin gözəlliyini də orada görmüşəm. Dilimizin saflığını, ilkinliyini də ulu babalarımdan, nənələrimdən öyrənmişəm. Hələ də ana yurdumda qatı açılmamış o qədər folklor nümunələri var ki... Yaylaqlarımızın hər qarışında, hər addımında zəngin tarix yatır.



Yaylaqlarda keçən günlərimiz yaxşı yadımdadır. Köç ərəfəsində cecim və gəvələr, marfaşlar yorğan-döşəklərlə arabalara yüklənərdi. Yayın isti nəfəsilə, köç yolunda adamların şən səsilə arandan yaylağa köç karvanı gedərdi. Kəndimizdə ailələr həm çılpaq dağlarda öz dədə-baba yurdlarında, həm də meşəli dağların qoynuna köç edib 3 ay yayı binə qurardılar. Binələrdə mal-qara saxlamaq üçün həmişə münbit şərait olurdu. Həm də meşədə moruq, yemişan, itburnu, zoğal və başqa giləmeyvələr çox olurdu.

Tək-tük ailələr, o cümlədən də bizim ailəmiz payızın son ayına kimi binələrdə qərar tuturdular. Meşələrin payızı daha çox xoşuma gəlirdi. Qoz, fındıq, fıstıq o zaman yetişirdi. Anamla biz qoz ağaclarından tökülən şıldırları (yetişmiş qoz) yel əsəndə yığmaq üçün səhər erkəndən gedərdik. "Yel əsib qoz tökülür" məsəli belə yaranıb.

Payız binələrinin sakinləri səhər erkəndən axşam qaş qaralanadək çöllərdə olurdular. Bayırdan əl-ayaq yığışandan sonra həyət-bacada hər kəs öz işi ilə məşğul olurdu. Hərə öz dəyəsinin qarşısında ocaq başında oturardı. Biş-düşdən sonra yaylaq qonşularının könüllərdə sevinc doğuran ocaqbaşı söhbəti başlayardı. O söhbətlər danüzünədək uzanardı. Onların xoş ünsiyyəti ailədə, qonşuluqda bəlli idi. Binə qonşularımız həmişə səmimi, sədaqətli adamlar olurdu. Uzun illərdən sonra görüşəndə də həmişə eyni açıq üzlə, xoş niyyət və xoş sifətlə qarşılayardıq bir-birimizi.

Binə qonşuluğu-yaylaq qonşuluğunda o qədər məğrur, mərd, alicənab və səxavətli insanlar gördüm. Kasıb olsalar da, insanların gözü tox idi. Arandan yaylağa qonaq gələndə alaçıqda süfrə açar, geniş ürəklə qonağı qəbul edərdilər. Arandan sovqat gələndə imkanlı qonşulardan imkansızlara pay düşərdi. Bu, qonşular arasında elə şirin ülfət yaradırdı, ürəklərə elə mehribanlıq çiləyirdi ki... Qonşular arasında qırılmaz doğmalıq bağları yaranırdı.

Ömrünün çox hissəsini yaylaqlarda keçirən insanlar yurdun dağ vüqarını özündə saxlayır, uzunömürlü olurdular. O dağlar, o dağ çayları, sıx ormanlar, göllər, çöllər təbiətin yaratdığı möcüzəli rəsmlər olmaqla yanaşı, suyu, havası can dərmanıdır. Ona görə də yaylaq adamları–dağ adamları sağlam yaşa dolurdular. Mən bir ömür boyu atamın və anamın timsalında bunun canlı şahidi oldum. Ömürlərinin sonunadək nə xəstələndilər, nə də yatağa düşdülər. Yaşının ahıl çağında atam rahatlıqla özümüzün mal-heyvanımızı dağda, bağda otarırdı, enişi enir, yoxuş qalxırdı.

Onların ömrü sərin sulu dağ çeşməsinə bənzəyirdi. Qayaların üstündən zamanın ötüşməsi ilə onların yaşının üstünə yaş gəlməsi arasında da bir oxşarlıq görürdüm. Dağ çeşmələrinin suyu qayalardan sızıb üzə çıxırdı. Çeşmələrin gözündən nur tökülürdü, şəffaf suyundan ovuc-ovuc su içəndə atamın üzü gülürdü.

Mən onda başı kəkilli, aşırmalı şalvar geyinən, hər yerdə gözəllik axtaran bir uşaq idim. Meşələrin zümrüd qoynundakı gözəllikləri gözlərimə köçürürdüm. Ucsuz-bucaqsız meşələrdə ilan kimi qıvrılan cığırlarda tək gəzib dolaşanda bəzən itib azardım. Amma vəhşi heyvanların hucumuna tuş gələcəyimi ağlımın ucundan keçirmədiyimə görə, qorxunun nə olduğunu bilməzdim. Müharibənin odundan-alovundan sağ çıxmış atamdan və kişi şücaətli anamdan o yaylaqların qoynunda keçən uşaqlıq illərimdə çox şey öyrəndim.

Gecənin bir aləmində "Saymaz" adlı itimizin səsi gələndə yalquzaqların bağrı yarılardı. Mal-heyvanımızın xalxalına yaxın düşə bilməzdi. Heyvanların pəyəsinə hücum etməkdən çəkinirdilər.

Gözəl yay səhərlərinin birində Qızılqayada, Daşlı Gəzdəkdə, Tənəklidə, Əzgillidə fındıq çubuqlarından dəyə qurduğumuz – yuva qurduğumuz çağlar könlümün zirvəsində qərar tutub.

Neçə illərdi dağlardan ayağımız kəsilib. Bu illərin üstündən neçə-neçə həsrət adlayıb. Həsrət çəkən ürək də kövrəkləşir, insan da... Təəssüf ki, hər zaman imkanla istək bir yerdə olmur. Şair gözəl deyib:

**Yay olanda bir yaylaqda olasan,**
**Narın-narın yağış səpə, çən gələ...**

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

Hava

# Abşeronda yağmursuz, bölgələrdə yağıntılı və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 18-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, günün ikinci yarısında cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 19-22°, gündüz 25-29° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 760 mm civə sütunu, nisbi rütubət gecə 70-75 , gündüz 50-55 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 20-21° isti,**

Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 21-22° isti olacaq.Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-21°, gündüz 27-32°, dağlarda gecə 4-9°, gündüz 13-18° isti olacaq.



*Q.QASIMOV*
*XQ*

İdman

## Karateçilərimiz Kişineuda 6 medal qazanıblar



**Azərbaycan karateçiləri Moldovanın paytaxtı Kişineuda keçirilən "Chisinau Karate Open Grand Prix" turnirində 6 medal qazanıblar. Deflimpiya Komitəsinin mətbuat xidməti xəbər verir ki, turnirdə 6 eşitmə məhdudiyyətli karateçi daxil olmaqla, ümumilikdə 16 nəfər ölkəmizi təmsil edib.**

287 idmançının iştirak etdiyi turnirdə "Senior Deaf" kateqoriyası üzrə müxtəlif çəki dərəcələrində döyüş keçirən eşitmə məhdudiyyətli idmançılar 1 qızıl, 2 gümüş və 3 bürünc medal əldə ediblər. Elnur Qasımzadə (67 kq) qızıl, Hikmət Ağayev (60 kq), Əliəkbər Əlizadə (75 kq) gümüş, Şaiq Osmanov (75 kq), Sahib Sahibli, Elmin Hüseynli (hər ikisi 84 kq) isə bürünc medal qazanıblar. İdmançılar baş məşqçi Seymur Xudaverdiyevin rəhbərliyi altında mübarizə aparıblar.

Qeyd edək ki, 2023-cü ilin oktyabrdan fəaliyyətə başlayan Deflimpiya Komitəsi eşitmə məhdudiyyəti olan şəxslər arasında bədən tərbiyəsi və idmanın inkişafı istiqamətində fəaliyyət göstərir.

## Basketbolçularımızın İsveçrə qələbəsi



**Azərbaycan Xüsusi Olimpiya Komitəsinin oğlanlardan ibarət 3x3 basketbol üzrə komandası İsveçrənin Mies şəhərində keçirilmiş FIBA Open beynəlxalq turnirində uğurla çıxış edib. Turnirdə ümumilikdə 14 xüsusi olimpiya komandası təmsil olunub.**

Yarışların ilk günü yoxlama oyunları keçirilib və bu matçların nəticələrinə əsasən komanda A qrupunda yer alıb. Yığma Fransanı (8:2), Niderlandı (5:3) və Finlandiyanı (5:4) məğlub edərək qrupun qalibi olub.

## Ronaldodan Trampa hədiyyə

**Portuqaliya millisinin məşhur futbolçusu, "Qızıl top"un beşqat qalibi Kriştianu Ronaldo ABŞ prezidenti Donald Trampa üzərində adı və şəxsi avtoqrafı olan formasını hədiyyə edib. Bu barədə Portuqaliya millisinin mətbuat xidməti məlumat yayıb.**



Portuqaliya millisinin köynəyinin üzərində "Sülhün tərəfdarı olan prezident Donald Tramp" yazısı yer alıb. Forma Trampa Avropa Şurasının rəhbəri Antonio Kosta tərəfindən verilib.

Qeyd edək ki, K.Ronaldu Çempionlar Liqasının beşqat, Millətlər Liqasının ikiqat qalibidr. O, həmçinin Avropa çempionu tituluna yiyələnib.

*M.HACIXANLI*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3691
SİFARİŞ 1205
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00